AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASI
FOLKLOR İNSTİTUTU

NAİLƏ ƏSKƏR

# İSLAM COĞRAFİYASI VƏ AZƏRBAYCANDA OYUNLAR

BAKI – 2017

**REDAKTOR:** **Qumru ŞƏHRİYAR**

**RƏYÇİ:** **Ramazan QAFARLI**
filologiya üzrə elmlər doktoru,
professor

**Nailə Əskər.** İslam coğrafiyası və Azərbaycanda oyunlar. Bakı, Elm və təhsil, 2017, -160 səh.

Kitabda IV İslam Həmrəyliyi Oyunları ərəfəsində islam coğrafiyasında, o cümlədən Azərbaycanda oynanılan xalq oyunları və ənənəvi idman oyunları haqqında geniş məlumat verilmişdir. Burada islam coğrafiyasını əhatə edən oyunların bir çoxu haqqında ilk dəfə söz açılır.

İSBN: 978-9952-810-89-9

Ə 4603000000 / N-098-2017 Qrifli nəşr

© Nailə Əskər, 2017

# İslam Həmrəyliyi Oyunları

Bu il Azərbaycanın paytaxtı Bakıda təşkil ediləcək IV İslam Həmrəyliyi Oyunlarında 57 islam ölkəsindən 5 mindən çox idmançının iştirakı gözlənilir. Bir növ İslam Olimpiadası sayılacaq bu möhtəşəm tədbirdə 20-dən artıq idman növü üzrə yarışların keçirilməsi nəzərdə tutulur. Pəhləvanlar ilk dəfə olaraq bu yarışlarda ənənəvi idman oyunları ilə yanaşı, milli zorxana oyunu üzrə də mübarizə aparacaqlar.

Azərbaycanın paytaxtında IV İslam Həmrəyliyi Oyunlarının keçirilməsi 24 iyul 2013-cü ildə Səudiyyə Ərəbistanının Ciddə şəhərində İslam Həmrəyliyi Federasiyası baş məclisinin VIII hesabat-seçki yığıncağında qərara alınmışdır. Yığıncaqda "Bakı-2017" kitabının təqdimatı keçirilmişdir.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 18 sentyabr 2015-ci il tarixli sərəncamı ilə Bakıda IV İslam Həmrəyliyi Oyunlarının keçirilməsi üzrə Təşkilat Komitəsi yaradılmış, Azərbaycan Respublikası Milli Olimpiya Komitəsi İcraiyyə Komitəsinin üzvü Mehriban Əliyeva təşkilatın sədri təyin olunmuşdur.

İslamiada − 2017-nin ilkin loqotip və şüarı təşkilat komitəsi tərəfindən hələ 2013-cü ildə hazırlanmışdır. Oyunların ilkin şüarı belə idi: "*Həmrəylik gücümüzdür*". Loqotipdə isə milli ornamentlərdən və Azərbaycan bayrağının rənglərindən istifadə olunmuşdur. 2016-cı il 12 mayda oyunların Azərbaycan dizaynerləri tərəfindən yaradılan yeni loqotipi və brendi təqdim edilmişdir. Yeni loqotip islam dövlətlərinin mədəniyyətini, irsini və tarixini əks etdirir. Brendin əsas mövzusu isə islam ölkələrinin əksəriyyətinin mədəni ənənələrinə xas olan xalçaçılıqla bağlıdır. Burada əks olunan elementlər Azərbay-

can xalça sənətinin və Qobustan qayaüstü rəsmlərini simvolizə edir.

Azərbaycan İslam Həmrəyliyi Oyunlarına yeni ruh və nəfəs verəcəkdir. İndiyədək Beynəlxalq Olimpiya Komitəsi və ümumən, dünya idman ictimaiyyəti İslam Həmrəyliyi Oyunlarına çox da ciddi yanaşmırdı. Belə hesab edilirdi ki, bu oyunlar yalnız islam ölkələri arasında təşkil olunur. Ona görə oyunlara hazırlıq prosesi də qapalı şəkildə, piarsız keçirilirdi. Azərbaycan ilk gündən İslam Həmrəyliyi Oyunlarını digər nüfuzlu yarışlar səviyyəsinə, ən azı qitə oyunları səviyyəsinə qaldırmağa çalışdı və buna nail oldu. Artıq bütün dünya bilir ki, İslam Həmrəyliyi Oyunları Azərbaycanda keçiriləcək və yüksək səviyyədə təşkil olunacaqdır. Azərbaycan iki il əvvəl I Avropa Oyunlarının standartlarını təyin etdiyi kimi, bu oyunların da standartlarını təyin edəcəkdir. Yeri gəlmişkən, Səudiyyə Ərəbistanı Olimpiya Komitəsinin prezidenti şahzadə Abdulla bin Müsaəd bin Əbdüləziz əs-Səud Azərbaycanın idman obyektlərinin ən yüksək standartlara cavab verdiyini təsdiq etmişdir.

İslam Həmrəyliyi Oyunlarının fəlsəfəsi, məqsədi nədir? Oyunların əsas məqsədi islam dininin əsl dəyərlərini bütün dünyaya bəyan etməkdir. Bu, hər şeydən əvvəl, islam dininin humanist bir din olduğunu, insanlar arasında irq, millət və dil baxımından heç bir fərq qoymadığını göstərməkdir. İslam dini son dövrlərdə bəzi məkrli dairələrin iddia etdiyi kimi, terrora dəstək verən bir dünyagörüşü deyil, əksinə, sülhü, əmin-amanlığı təbliğ edən, qardaşlığı və birliyi təşviq edən dindir.

İslam Həmrəyliyi Oyunları çərçivəsində keçiriləcək yarışlar da məhz bu ideallara xidmət edəcəkdir. Yəni oyunlarda əsas məsələ rəqibi məğlub etmək, nəyin bahasına olursa-olsun, qələbə qazanmaq deyil, kollektiv və ya fərdi şəkildə dürüst və təmiz mübarizə aparmaq, əsl idmançıya xas olan

təvazökarlıq və ülviyyət nümayiş etdirməkdir. Təkəbbür və bədgümanlıq müsəlman idmançıya əsla xas deyil, çünki o, Allaha, onun əta etdiyi həyata, nemətlərə və verdiyi uğurlara daim şükr edən və qail olan ruha sahibdir.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 2017-ci ili "İslam Həmrəyliyi ili" elan etməsi İslam Həmrəyliyi Oyunları kontekstində çox gözəl və vacib təşəbbüsdür. Çünki bu gün bəzi islam ölkələri çox ağır problemlərlə üzləşir. Bəzi ərəb ölkələri münaqişə və böhran vəziyyətindədir, islam dün-ya-sında bir sıra aktual məsələlər barəsində fikir ayrılıqları və ziddiyyətlər var. Azərbaycan Respublikası Prezidentinin bu nəcib çağırışı müsəlman ölkələri arasında birlik və həmrəylik kimi yüksək ideyaya xidmət edir. Həmin təşəbbüsün məhz Azərbaycan tərəfindən irəli sürülməsi tamamilə qanunauyğundur, çünki Azərbaycan sivilizasiyalararası və mədəniyyətlərarası dialoqun yaradılmasında, ölkələr arasında əməkdaşlığın və qarşılıqlı anlaşmanın möhkəmlənməsində mühüm rol oynayır.

İslam Əməkdaşlıq Təşkilatının mühüm iştirakçısı olan Azərbaycan müsəlman ölkələrinin birləşməsi üçün çox böyük səy göstərir. Bütün bunlar ölkə başçısı İlham Əliyevin müdrik və uzaqgörən siyasətinin nəticəsidir. Azərbaycanın belə bir nəcib təşəbbüs irəli sürməsi müsəlman ölkələrinin inkişafına və tərəqqisinə, ümumi məqsədlərə nail olmağa kömək edəcəkdir. İslam dünyasında həmrəyliyə və birliyə nail olmağa yönəlmiş siyasət yeridən Prezident İlham Əliyev bütün mühüm məsələlərin həllində islam dünyasını həmişə dəstəkləyir, ona kömək edir, Azərbaycanda qlobal tədbirlər keçirilməsinə dair təşəbbüslər irəli sürür. Azərbaycan, Fələstin məsələsində dəyişməz mövqe tutur, Misir ilə Türkiyə arasında vasitəçilik rolu oynayır.

Üstəlik, bu təşəbbüs təkcə islam dünyasına deyil, bütün ölkələrə belə bir inam təlqin edir ki, islam ölkələri birləşərək siyasi, iqtisadi, ictimai və mədəni məsələləri, qaçqınlarla bağlı və digər problemləri həll edə bilərlər.

Azərbaycan birliyin, həmrəyliyin, tolerantlığın, dinc, yanaşı yaşamağın parlaq nümunəsidir. Bu gün İraq, Suriya, Yə-mən və bəzi başqa ölkələrdə milli və dini zəmində problemlərin və münaqişələrin mövcud olduğu bir vaxtda Azərbaycan modeli həmin ölkələr üçün nümunə ola bilər.

Azərbaycan Respublikası Prezidenti İlham Əliyevin islam həmrəyliyi barədə təşəbbüsü həm islam dünyası daxilində, həm də müsəlman ölkələri ilə digər dövlətlər arasında dostluq münasibətlərinin və əməkdaşlığın möhkəmlənməsinə sanballı töhfə verəcək, bütün dünyada sülhə, təhlükəsizliyə və sabitliyə nail olmaq istiqamətində real addım olacaqdır.

Hazırda İslam Əməkdaşlıq Təşkilatının 57 üzvü var. Bu ölkələr müxtəlif qitələrdə və bölgələrdə yerləşir, müxtəlif siyasi, iqtisadi və mədəni inkişaf səviyyəsindədir. Onlarının hər birinin özünəməxsus özəllikləri, maraqlı xüsusiyyətləri vardır. İdman sahəsində də onlar orijinal və fərqli cəhətləri ilə seçilirlər. Ona görə də bu kitabın əvvəlinə İslam Əməkdaşlıq Təşkilatına üzv olan ölkələrin hər biri haqqında qısa məlumat verməyi lazım bildik.

Daha sonra islam ölkələrində ənənəvi idman növləri, qrup və fərdi qaydada oynanılan, əyləncə səciyyəsi daşıyan yarışlar haqqında geniş məlumat verilmişdir.

İdman nöqteyi-nəzərindən oyun nədir? Bu sualın ən sadə cavabı belədir: insanı fiziki və zehni cəhətdən inkişaf etdirən, müəyyən qaydaları olan, xoş vaxt keçirməyə yarayan yarış növünə oyun deyilir.

Maraqlı yarışlar, xoş əyləncələr, uğurlu oyunlar!

# İslam Əməkdaşlıq Təşkilatının üzvləri və müşahidəçiləri

## Azərbaycan

Azərbaycan və ya rəsmi adı ilə Azərbaycan Respublikası – Cənubi Qafqazda, Xəzər dənizi hövzəsində yerləşən dövlət. Ərazisi 86600 $km^2$ (11,5%-ni meşələr, 1,6%-ni su hövzələri, 50%-ni becərilən torpaqlar, 36,9%-ni digər torpaqlar) təşkil edir. 39°24' ilə 41°54' şimal en dairələri arasında və 44°46' ilə 50°45' şərq uzunluğunda yerləşir. Sərhədlərinin uzunluğu 3489 km-dir. Bunun 825 km-i su sərhəddidir. Cənubdan İranla 765 km, Türkiyə ilə 11 km, şimaldan Rusiya ilə 391 km, şimali-qərbdən Gürcüstan ilə 471 km, qərbdən Ermənistan ilə 1027 km həmsərhəddir. Sahil xəttinin uzunluğu 713 km, Bakıdan şimal qütbünə qədər olan məsafə 5550 km, ekvatora qədər olan məsafə isə 4440 km-dir. Azərbaycan Respublikası Cənubi Qafqazın şərq hissəsində, Xəzər dənizinin qərb sahilində yerləşir.

Azərbaycan ərazisinin bir hissəsi (Dağlıq Qarabağ bölgəsi və ona bitişik 7 inzibati rayon) Ermənistan tərəfindən işğal edilmişdir və bu da ölkə ərazisinin 20%-ni təşkil edir.

Azərbaycan Respublikası 18 oktyabr 1991-ci ildə müstəqilliyini elan etmişdir. Əhalisi 10 milyon nəfərdir. 90%-ə yaxını islam dininə etiqad edir. Dövlət dili Azərbaycan dilidir. Paytaxtı Bakı şəhəridir.

BMT Baş Assambleyasında 24 oktyabr 2011-ci il seçkiləri zamanı Azərbaycan 155 səs toplayaraq 2012-2014-cü illər üçün BMT Təhlükəsizlik Şurasının 10 qeyri-daimi üzvündən biri seçilmişdir.

## Albaniya

Albaniya (albanca: Shqipëria) və ya rəsmi adı ilə Albaniya Respublikası (albanca: Republika e Shqipërisë) – Balkan yarımadasının cənub-qərbində, Adriatik dənizinin sahillərində yerləşən ölkə. Ölkənin qərbdən Adriatik dənizinə, cənub-qərbdən İon dənizinə çıxışı vardır. Sahəsi 28748 $m^2$-dir. Sahəsinə görə dünya ölkələri arasında 139-cu yerdə durur. Qonşuları şimaldan 287 km Serbiya və Monteneqro ilə, şimaldan və şərqdən 151 km Makedoniya Respublikası ilə, cənubdan və cənub-şərqdən 282 km Yunanıstanla həmsərhəddir. Adriatik dənizi və İon dənizinə çıxışı olan ölkənin 362 km sahili vardır. İtaliyadan 100 km Otranto boğazı ilə ayrılır.

Sovet dövründə sosializm düşərgəsinə daxil olsa da, Moskvaya tam boyun əyməmiş, imkan daxilində müstəqil siyasət yürütməyə çalışmışdır. Ərazisində sovet qoşunlarının olmasına icazə verməmişdir. Albaniya 2009-cu ildən NATO-nun, Qara dəniz İqtisadi Əməkdaşlıq və İslam Əməkdaşlıq Təşkilatının üzvüdür.

Ən hündür nöqtəsi Korab dağıdır (2753 m). Ölkənin sahil ətrafı ərazisində Aralıq dənizi iqlimi şərqə tərəf getdikcə kontinental iqlimlə əvəz olunur. Orta temperatur yanvar ayında − 8-9°C, iyul ayında isə +24-25°C təşkil edir.

Paytaxtı Tirana şəhərində 400 min (bəzi mənbələrə görə, 1 milyon) adam yaşayır. Əhalisi 3 milyon nəfərdən çoxdur. Onların təqribən 60%-i islam dininə etiqad edir.

## Banqladeş

Banqladeş (benqalca: বাংলাদেশ ) və ya rəsmi adı ilə Banqladeş Xalq Respublikası (benqalca: গণপ্রজাতন্ত্রী বাংলাদেশ ) –

Cənubi Asiyada dövlət. Keçmiş Qərbi Pakistan ərazisində yaranmışdır. 1971-ci ilin martından müstəqil dövlətdir. Rəsmi olaraq 16 dekabr 1971-ci ildə təşkil olunmuşdur. Parlament quruluşlu unitar dövlətdir.

Paytaxtı Dəkkə şəhəridir. Dəkkə ölkənin ən böyük şəhəridir. Qanq çayının deltasında yerləşir və 1971-ci ildən Banqladeşin paytaxtıdır. Şəhərin əhalisi təqribən 15 milyon, şəhərətrafı ərazidə yaşayanlarla birlikdə 20 milyon nəfərə yaxındır. Banqladeşin sahəsi 147570 $km^2$, əhalisi təqribən 170 milyon nəfərdir. Əhalisinin sayına görə dünyada 8-ci, ərazisinə görə 92-ci, əhalinin orta sıxlığına görə isə 1-ci yeri tutur. Orta yaş həddi 63 yaşdır.

Ölkədə tez-tez təbii fəlakətlər baş verir. Məsələn, 1970-ci ildə şiddətli siklonlar yarım milyon insanın ölümünə səbəb olmuş, 1974-cü ildə baş vermiş daşqınlarda iki min adam ölmüş, ölkənin dörddə üçü fəlakətə məruz qalmış, məhsulun 40%-i məhv olmuşdur.

Əhalinin 90%-i müsəlmandır, qalanları isə induistlər, tibetlilər, birmalılar və digər azsaylı xalqlardır.

## Benin

Benin (fransızca: Bénin; yorubaca: Benin) və ya rəsmi adı Benin Respublikası (fransızca: République du Bénin; yorubaca: Orílẹ̀-èdè Olómìnira ilẹ̀ Benin; 1975-ciilədək Daqomeya) – Qərbi Afrikada dövlət. Benin körfəzinə və Qvineya körfəzinə çıxışı var. Şimalda Burkina-Faso və Niger, şərqdə Nigeriya, qərbdə Toqo ilə həmsərhəddir. Paytaxtı Porto-Novo şəhəridir, ancaq hökumət ölkənin ən iri şəhəri olan Kotonuda yerləşir.

Son siyahıya alınmanın nəticələrinə əsasən 2013-cü ildə ölkədə əhalinin sayı 10 milyon nəfər olmuşdur. Əhalinin illik

təbii artımı 2,9% təşkil edir. Orta ömür müddəti 59 ildir. Benində 60-dan çox xalq yaşayır, ölkə əhalisinin əksəriyyətini (təqribən 65%-ni) fon xalqlarına aid olan şərqi eve xalqı, həmçinin daqomey, barba, somba, yoruba, busa və digər xalqlar təşkil edir. Ölkə üzrə kişilərin 48%-i, qadınların 23%-i savadlıdır.

Ölkədə rəsmi dövlət dili fransız dilidir. Bundan başqa, Beninin cənub bölgələrində yoruba və fon, şimalında müxtəlif tayfaların dillərindən də geniş istifadə edilir.

2002-ci il statistikasına görə, Benində əhalinin 42,8%-ni xristianlar (əsasən katoliklər), 24,4%-ni müsəlmanlar, 17,3%-ni buddistlər, 15,5%-ni digər dinlərin nümayəndələri təşkil edir.

## Birləşmiş Ərəb Əmirlikləri

Birləşmiş Ərəb Əmirlikləri (ərəbcə: العربية المتحدة دولة الإمارات) Ərəbistan yarımadasının şərq hissəsində Fars və Oman körfəzləri sahilində yeləşir. Üç dövlətlə – cənubda və qərbdə Səudiyyə Ərəbistanı (457 km), şimalda Qətər, cənub-qərbdə Omanla (410 km) həmsərhəddir. Əmirliklərin sahil xəttinin uzunluğu 800 km-ə yaxındır.

BƏƏ-nin tərkibində yeddi əmirlik var: Əbu-Dabi, Dubay, Şərca, Ümm-əl-Quveyn, Rəs-əl-Xeymə, Acman və əl-Füceyrə daxildir. Ölkə ərazisinin 93%-i Əbu-Dabi və Dubay əmirliklərinin payına düşür. İqtisadiyyat gündən-günə inkişaf edir. Ölkənin ümumi ərazisi 83600 km$^2$-dir. Əhalisi 3,5 milyon nəfərdir (vətəndaşlığı olmayanların sayı 2 milyon nəfərdən artıqdır). Paytaxtı Əbu-Dabi şəhəridir. Burada 425 min nəfər yaşayır.

BƏƏ-nin dövlət dili ərəb dilidir, lakin müəyyən bir dövrdə ingilis hakimiyyətində qaldığı üçün burada ingilis dilində də danışırlar. Xüsusilə iş həyatında bu dildən geniş şəkildə istifadə edilir. Küçə, mağaza və digər yerlərin adları ingilis dilində də

yazılır. Ölkədə Pakistandan və Hindistandan olan gəlmələrin sayı yüksək olduğundan hind və urdu dilləri də işlədilir.

BƏƏ əhalisinin böyük əksəriyyəti (89%) müsəlmandır. Onların üçdə iki hissəsi sünnülüyün hənbəli məzhəbinə etiqad edir. Birləşmiş Ərəb Əmirliklərində həmçinin xristianlar (əhalinin təqribən 6%-i, əsasən ingilislər və amerikanlar) və induslar da yaşayırlar.

## Bəhreyn

Bəhreyn (البحرين), tam adı – Bəhreyn Krallığı (ərəbcə: مملكة البحرين) – İran körfəzində yerləşən ada dövləti. Ən kiçik ərəb dövləti olmaqla yanaşı, eyni zamanda dünyanın ən kiçik dövlətlərindən biridir. Bəhreyn Səudiyyə Ərəbistanından 16 km məsafədə yerləşir, ərazisi 760 km$^2$-dir. Bu arxipelaq 33 ada və adacıqdan ibarətdir. Bu adalardan ancaq beşində əhali məskunlaşmışdır. Ən iri ada olan Bəhreynin uzunluğu 50, eni isə 16 km-dir. Nisbətən iri adaları Mühərrək, Sitra, Ümm-Nəsən, Ümm-əs-Sübhan və Ciddədir. Bəhreyn adası Mühərrək və Sitra adaları ilə torpaq bəndlər vasitəsilə birləşdirilmişdir. 1986-cı ilin noyabrında Bəhreyn adasını Səudiyyə Ərəbistanı ilə birləşdirən Kral Fəhd körpüsü işə salınmışdır. Asiyada ən uzun (25 km) 7 torpaq bənddən və onları birləşdirən 5 körpüdən ibarət olan həmin yolun su üzərində ümumi uzunluğu 12,5 km-dir.

Bəhreyn 1971-ci il avqustun 14-də müstəqil dövlət elan edilmiş və BMT-yə üzv qəbul olunmuşdur. Bəhreyn Fars körfəzi bölgəsində yerləşən üç azad ticarət zonasından biridir. Paytaxtı Manama şəhəridir, burada 150 min əhali yaşayır.

Ölkə üzrə orta yaş həddi 73,7 ildir, o cümlədən kişilərdə 71,3, qadınlarda isə 76,2 ildir. Əhalinin sayı təqribən 1,3 milyon nəfərdir. Əksəriyyəti ərəblərdən ibarətdir, müsəlman-

lar 85% təşkil edirlər. Onların yarıdan çoxu şiə, qalanı sünnüdür. Xristianlar əhalinin 7%-ni (26 min nəfər) təşkil edir.

**Bruney**

Bruney, yaxud rəsmi adı ilə Bruney Dar-əs-Salam dövləti − cənub-şərqi Asiyada Borneo adasında yerləşən sultanlıqdır. Ölkənin yeganə qonşusu Malayziyadır. Ərazisi 5765 $km^2$-dir. Paytaxtı Bəndər Səri Beqavan şəhəridir, burada 40 min əhali yaşayır.

Monarxiya üsul-idarəsi ilə idarə edilən Bruneydə zəngin qaz və neft yataqları var. O, Qətərdən sonra dünyanın ən zəngin ikinci ölkəsi hesab edilir. Bruney sultanı Həssən-əl-Bolkiah dünyanın ən varlı adamlarındandır. Sultan sarayı, yaxud Qızıl saray dünyadakı ən böyük saraydır. Onun 1876 otağı var.

Ölkənin əhalisi 2015-ci ilin siyahıya alınmasına görə, 426 min nəfərdir. İllik artım 1,73%-dir. Orta ömür kişilərdə 74, qadınlarda 78 ildir. Əhalinin etnik tərkibini malaylar (66%), onlara qohum etnik qruplar – kelaylar, ibanlar, melanlar, dayaklar və b. 8% təşkil edir. Ölkədə xeyli çinli (11%), avropalı və indus da yaşayır.

Rəsmi dil malay dilidir, ingilis və Çin dilləri də işlədilir. 2001-ci il statistikasına görə, savadlılıq kişilər arasında 95%, qadınlar arasında 90%-dir. Şəhərin əhalisi 75%-i təşkil edir. Əhalinin sıxlığı hər $km^2$-də 62 nəfərdir. Ölkə əhalisinin üçdə biri paytaxtda, qalan hissəsi əsasən neft yataqları yerləşən ərazilərdə yaşayır.

Əhalisinin 67%-i islama etiqad edir. 13%-ni buddistlər, 10%-ni xristianlar, 10%-ni isə yerli dinlərə inananlar təşkil edir.

## Burkina-Faso

Burkina-Faso − Qərbi Afrikada dövlətdir. 5 avqust 1960-cı ildə müstəqilliyini elan etmiş, 1984-cü ilin avqustuna qədər Yuxarı Volta adlanmışdır. Mali, Niger, Benin, Toqo, Qana və Kot-d'İvuarla həmsərhəddir. Dənizə çıxışı yoxdur. Adının mənası: "burkina" "ləyaqətli adamlar", "faso" isə "vətən" deməkdir.

Ölkənin ərazisi 274200 km$^2$-dir. Bu, ərazisinə görə dünyada 74-cü yerdə durur. Paytaxtı Uaqaduqu şəhərində 2 milyondan çox adam yaşayır. 2015-ci ilin statistikasına görə, ölkədə 18,3 milyon nəfər yaşayır. Bu, dünya üzrə 60-ci yer deməkdir. Təbii artıma görə dünyada 11-ci yerdədır. Əhalinin 20%-i şəhərlərdə yaşayır. Bir km$^2$-ə 48,2 adam düşür.

Orta yaş həddi dünyada 203-cü yer olmaqla 53 yaş; kişilərdə 51, qadınlarda 55 yaşdır. 2003-cü ilin statistik məlumatına əsasən, savadlılıq kişilər arasında 29%, qadınlar arasında isə 15%-dir. Burkina-Fasonun yerli əhalisi iki əsas etnik qrupdan (qur və mande) ibarətdir. Qurlar əhalinin təqribən 75%-ni, mandelər isə 25%-ni təşkil edirlər. Ölkənin rəsmi dili fransız dilidir.

Dini bölgüdə birinci yeri müsəlmanlar tutur. Əhalinin 60,5%-i islam dininə etiqad edir, 23,2%-i xristiandır, 15,3%-i yerli dinlərə inanır.

## Cibuti

Cibuti (ərəbcə: جيبوتي Cībūtī, fransızca: Dji-bouti, somalicə: Jabuuti) və ya rəsmi adı Cibuti Respublikası − Şərqi Afrikada kiçik bir ölkə. Şimaldan Eritreya, qərbdən və cənubdan Efiopiya, cənub-şərqdən isə Somali ilə həmsərhəd-

dir. Qırmızı dənizə və Ədən körfəzinə çıxışı vardır. Yəməndən 20 km-lik məsafədə yerləşir. Paytaxtı Cibuti şəhəridir. Burada 500 min nəfər yaşayır.

Cibuti Respublikası qədim Fransa müstəmləkəsidir. 27 iyun 1977-ci ildə müstəqilliyini elan etmişdir. Ölkədə 1992-ci il 4 sentyabrda referendum yolu ilə qəbul olunmuş, 15 sentyabr 1992-ci ildə qüvvəyə minmiş konstitusiya fəaliyyət göstərir.

2015-ci ilin statistik məlumatına əsasən, Cibutinin ərazisi 23000 $km^2$, əhalisi 875 min nəfərdir. İllik artım 2,2% təşkil edir. Kişilərin orta ömrü 58, qadınlarınkı isə 63 ildir. 2003-cü il statistikasına görə, 15 yaşdan yuxarı əhalinin 68%-i savadlıdır. Şəhər əhalisinin sayı 90%-ə yaxındır.

Əhalinin etnik tərkibi mürəkkəbdir. Somali mənşəli issa tayfası əhalinin 60%-ni, afar tayfası 35%-ni, ərəblər, fransızlar, italyanlar və yunanlar isə 5%-ni təşkil edirlər. Fransız və ərəb dilləri Cibutinin rəsmi dilləri olsa da, Somali və afar dilləri də geniş şəkildə işlədilir. Əhalinin böyük əksəriyyəti (94%) islam dininə etiqad edir, 6%-i xristiandır.

## Çad

Çad və ya rəsmi adı ilə Çad Respublikası (fransızca: République du Tchad, ərəbcə: ة جمهوري شاد تـ) – Orta Afrikada dövlət, dənizə çıxışı yoxdur. Keçmişdə Fransanın müstəmləkəsi olmuş, 11 avqust 1960-cı ildə müstəqilliyini elan etmişdir. Şimaldan Liviya, qərbdən Niger, Nigeriya və Kamerun, cənubdan Mərkəzi Afrika Respublikası, şərqdən Sudanla həmsərhəddir. Adını bir vaxtlar Afrikanın ikinci böyük gölü, indi əvvəlki həcminin onda biri qədər olan təbii relikt Çad gölündən alır.

Paytaxt Ncamena şəhərinin 800 min nəfərdən çox sakini var. Ərazisi 1284000 $km^2$-dir. Kişilərdə orta yaş həddi 47,

qadınlarda isə 49 yaşdır. Əhalinin təqribən 30%-i şəhərlərdə yaşayır. Cənubunda tropik, şimalında səhra iqlimi hakimdir. Əhalisi 12 milyon nəfər, illik artım 2%-dir. Təhsil sistemi Fransadakı kimidir. Ölkədə kişilərin 43%-i, qadınların isə 13%-i savadlıdır.

Çad Respublikasının rəsmi dili fransız və ərəb dilləridir. Çadda, ümumiyyətlə, 200-dən artıq dil və ləhcədən istifadə edilir. Əhalinin 55%-ni müsəlmanlar, 35%-ni xristianlar, 10%-ni yerli inanclara etiqad edən insanlar təşkil edir.

## Əlcəzair

Əlcəzair (ərəbcə: الجزائر), tam adı Əlcəzair Xalq Demokratik Respublikası (ərəbcə: الجمهورية الجزائرية الديمقراطية الشعبية) – Şimali Afrikada dövlət. Tunis, Liviya, Niger, Mali, Mavritaniya və Mərakeş ilə həmsərhəddir. Keçmiş Fransa müstəmləkəsidir, 18 mart 1962-ci ildə müstəqilliyini əldə etmişdir. Müstəqillik uğrunda mübarizədə 1,5 milyon nəfər şəhid vermişdir.

Sahəsinə görə Afrika qitəsinin ən iri dövlətidir. Ərazisi 2381741 km$^2$, əhalisi 40 milyon nəfərdir. Əhalisinin sayına görə dünyada 34-cü yeri tutur. Əhalinin 83%-ni ərəblər, 17%-ni bərbərlər təşkil edir. Paytaxtı ətrafı ilə birlikdə 5 milyon əhalisi olan Əlcəzair şəhəridir.

Əlcəzair təbii qaz (istehsalda dünyada 5-ci, ixracatda 4-cü yeri tutur) və neft (istehsalda 13-cü, ixracatda 9-cu yeri tutur) istehsalçısı və ixracatçısıdır. Ölkənin cənub-qərbində dəmir, cənubunda isə iri uran, sink, kalium permanqanat və fosforit yataqları var. Əlcəzair paxla istehsalı üzrə dünyada 1-ci, əncir istehsalı üzrə 5-ci, xurma istehsalı üzrə 6-cı, ərik istehsalı üzrə 9-cu, badam istehsalı üzrə 10-cu yeri tutur.

Şəhər əhalisi ümumi əhalinin 65 %-ini təşkil edir. 2002-ci ilin statistik məlumatlarına görə, kişilərin 79%-i, qadınların 60%-i savadlıdır. Dövlət dili ərəb dilidir. Fransız dili də geniş şəkildə istifadə olunur.

## Əfqanıstan

Əfqanıstan və ya tam adı ilə Əfqanıstan İslam Respublikası (farsca: فغانستان اسلامی جمهوری) – Asiyada dövlət. Cənubdan və şərqdən Pakistan, qərbdən İran, şimaldan Türkmənistan, Özbəkistan və Tacikistan, şimali-şərqdən Çin ilə həmsərhəddir. Paytaxtı Kabil şəhərində təqribən 4 milyon adam yaşayır. Əfqanıstanın ərazisi 652864 km$^2$-dir. Sahəsinə görə dünyada 41-ci, əhalisinə görə 38-ci yeri tutur. Dövlət dili puştu və dəri dilləridir.

Ölkə tarixində 1979-1989-cu illərdə SSRİ ilə apardığı müharibə mühüm yer tutur. 1979-cu il dekabrın 24-də sovet hərbi qüvvələri Əfqanıstanı işğal etməyə başlamışdır. 10 il davam edən müharibə nəticəsində əfqan mücahidləri qalib gəlmişdir. Bu savaşda 7500 azərbaycanlı iştirak etmiş, onlardan 208 nəfəri həlak olmuş, 7 nəfəri itkin düşmüşdür.

Əfqanıstan çoxmillətli ölkədir, lakin heç bir etnik qrup sayca üstünlük təşkil etmir. Ölkədə beş böyük etnik qrup var: puştular, taciklər, özbəklər, xəzəralar və türkmənlər. Əfqanıstan əhalisinin 30 milyon nəfər olduğu təxmin edilir. Bunun 35%-ni puştular, 25%-ni taciklər, 9%-ni özbəklər, 3%-ni türkmənlər, qalanını qızılbaşlar, qırğızlar, tatarlar, qaraqalpaqlar, qazaxlar, həzaralar, bəluclar və b. təşkil edir. Bəzi iddialara görə, türksoylu xalqlar əhali içində 35%-lik paya sahibdir; özbəklərin sayı 4 milyon, türkmənlərin sayı 3 milyon, qızılbaşların (Səfəvilər dövründə buraya köçürülmüş əfşar, bayat, şa-

hağası, otuzikilər, iyirmidördlər və s. Azərbaycan tayfaları) sayı yarım milyon, qaraqalpaqların sayı 20 min, qırğızların sayı 20 min nəfərdir, lakin bunun rəsmi təsdiqi yoxdur.

## Fələstin dövləti

Fələstin dövləti (ərəbcə: دولة فلسطين, ingiliscə: State of Palestine) − Yaxın Şərqdə dövlət. 2015-ci ilin sentyabrınadək onu BMT-nin üzvü olan 193 dövlətdən 136-sı tanımışdır. Fələstin dövləti 15 noyabr 1988-ci ildə Əlcəzairdə elan edilmişdir.

1947-ci il noyabrın 29-da BMT Baş Assambleyası Fələstin ərazisində yəhudi və ərəb dövlətlərinin qurulması haqqında 181 saylı qərar çıxarmışdır. Qərara əsasən Fələstinin 54%-i yəhudi, 45%-i isə ərəb dövlətinin payına düşürdü. Qüds şəhərinin yerləşdiyi qalan 1% isə beynəlxalq ərazi olmalı idi. Sionistlər 1948-ci ilin mayından bəri Fələstin ərazisinin 77%-ni (20770 $km^2$) işğal etməyə nail olmuşlar.

1994-cü ildə İsraillə FAT (Fələstin Azadlıq Təşkilatı) arasında Oslo razılaşmasına görə, Fələstin Milli Administrasiyası yaradılmışdır, lakin o, real dövlət strukturlarını, ən əsası da ordunu qura bilməmişdir. Burada iki qrup – Həmas və Fəth bir-biri ilə rəqabət aparır. Onlar 2 iyul 2014-cü ildə milli birlik hökuməti təşkil edə bilmişlər.

Fələstinlilərin sayı 2008-ci ilin statistikasına görə, təqribən 10,5 milyon nəfərdir. Onlardan təqribən 5 milyonu tarixi Fələstin regionunda (təqribən 1,2 milyonu İsrailin daxilində, 2,4 milyonu Qərb sahilində, 1,4 milyonu isə Qəzza zolağında) yaşayır. Eyni zamanda təqribən 3,2 milyon fələstinli İordaniyaya və 1,7 milyon isə Livan, Suriya, Misir və digər ərəb ölkələrinə yayılmışlar. Təqribən 600 min nəfər isə xarici dövlətlərdədir.

Fələstin dövləti qurmaq uğrunda bu xalqın mübarizəsi davam edir.

## İndoneziya

İndoneziya (İndoneziya dilində: Indonesia), rəsmi adı İndoneziya Respublikası (İndoneziya dilində: Republik İndonesia) – Cənub-şərqi Asiyada dövlət. Malay arxipelaqı adalarında və Yeni Qvineya adasının bir qismində yerləşir. Dünyada ən böyük ada dövlətdir. Rəsmi statistikaya görə, 17804 adadan ibarətdir. Malayziya, Papua-Yeni Qvineya və Şərqi Timorla qonşudur. 255 milyon nəfər əhalisi var. Ərazisi 191093132 km$^2$-dir. Əhalisinin sayına görə Çin, Hindistan və ABŞ-dan sonra dünyada 4-cü, sahəsinə görə 14-cü yeri tutur. Paytaxtı Cakarta şəhəridir. Burada 10 milyon adam yaşayır.

Niderlandın müstəmləkəsi olmuş, 17 avqust 1945-ci ildə müstəqilliyini elan etmişdir. Ölkədə 400 vulkan var, onlardan 80-i aktivdir. İndoneziya 3 saat qurşağına bölünür. Ölkə kömür istehsalı üzrə dünyada 5-ci, qaz üzrə 8-ci, neft üzrə 37-ci yeri tutur. Düyü, banan, şəkər qamışı, qəhvə, bibər, çay üzrə dünyanın ən iri tədarükçüləri arasındadır.

Ölkədə təqribən 250 dil və ləhcə işlədilir, ancaq dövlət dili İndoneziya dilidir. Gənclər ingiliscə yaxşı danışırlar. 2009-cu il statistikasına görə, xalq arasında savadlılıq 94,7%-dir. Əhalisinin 88%-i islam dininə etiqad edir. İndoneziya dünyada ən böyük müsəlman ölkəsidir.

## İordaniya

İordaniya (ərəbcə: الأردن), rəsmi adı: İordaniya Haşimilər Krallığı (ərəbcə: الهاشمية المملكة الأ ردنية ) – Yaxın

Şərqdə yerləşən ərəb dövləti. Şimalda Suriya, şimal-şərqdən İraq, cənubdan Səudiyyə Ərəbistanı, qərbdən İsrail və Fələstinlə həmsərhəddir. İsrail və Fələstinlə Ölü dənizdən, İsrail, Səudiyyə Ərəbistanı və Misirlə Əqəba körfəzindən qonşudur. Ərazisinin 90%-ni səhra və yarımsəhralar tutur. Ən yüksək nöqtəsi 1754 m, ən alçaq nöqtəsi dəniz səviyyəsindən 403 m aşağıdır. Qışı sərin, yayı isti və qurudur.

Dövlət quruluşu konstitusiyalı monarxiyadır. Kral Hüseyn ölkəni yarım əsrə yaxın müddətdə (1952-1999) idarə etmişdir. Hazırda II Abdulla İordaniya taxtındadır. 25 may 1946-cı ildən müstəqil dövlətdir. Krallığın paytaxtı Əmman şəhəridir. 17 təpə üzərində yerləşən bu füsunkar şəhərdə 3 milyondan artıq adam yaşayır. Şəhər əhalisi 72%, kənd əhalisi 28%-dir. Ölkənin rəsmi dili ərəb dilidir. Biznes sahəsində, savadlı adamlar arasında ingilis dili yayılmışdır. Ərəb və ingilis dillərinin məktəblərdə tədrisi və öyrənilməsi məcburidir.

İordaniya Krallığının ümumi ərazisi 92000 $km^2$, əhalisi isə 7 milyondan artıqdır. 95%-i ərəblərdir, onlardan 35%-i iordaniyalı, 55%-i fələstinli ərəblərdir. Ölkədə xeyli adıq (çərkəz), balkar, çeçen, kürd və s. yaşayır. Xristianlar əhalinin 5%-ni təşkil edirlər.

## İraq

İraq (ərəbcə: ال عراق), tam adı İraq Respublikası (ərəbcə: ال جمهورية ال عراقية əl-Cümhuriyyət il-İraqiyyə) − dünyadakı ən qədim mədəniyyətlərin beşiyi olan Aşağı Mesopotamiyada yerləşən bir dövlətdir. İraq müharibədən əvvəl Səudiyyə Ərəbistanı və Birləşmiş Ərəb Əmirliklərindən sonra dünyanın ən böyük üçüncü neft ölkəsi idi.

Körfəz ölkələri arasında İraq, Səudiyyə Ərəbistanı və İrandan sonra 435000 km² ilə ən böyük ərazisi olan ölkədir. İraqın İranla 1458 km, Səudiyyə Ərəbistanı ilə 814 km, Suriya ilə 605 km, Türkiyə ilə 331 km, Küveyt ilə 242 km və İordaniya ilə 181 km sərhəddi, ümumən 3631 km sərhəddi var.

Münbit Mesopotamiya ovalığı, Yaxın Şərqin ən böyük çayları olan Dəclənin (uzunluğu 1718 km) və Fəratın (uzunluğu 2300 km) orta və aşağı axarları İraq ərazisindədir. 1979-cu ildən bəri bir-birinin ardınca İraq-İran savaşı, İraqın Küveyti işğal etməsi, İraqın Küveytdən çıxarılması, Körfəz savaşı, 2003-cü ildə Səddam Hüseynin öldürülməsi, İraqın işğalı, bu gün də davam edən xaos ölkəni xarabalığa çevirmişdir.

İraqın 36 milyon əhalisi var. Mütəxəssislərin fikrincə, bunun 65%-ni ərəblər, 17%-ni kürdlər, 13%-ni türkmənlər, qalanını assuriyalılar, farslar, süryanilər, kəldanilər, nəsturilər və digər xalqların nümayəndələri təşkil edir. İraq əhalisinin təxminən 60%-i şiə, 35%-i sünnü müsəlmanlardan, 3%-i xristianlardan, 2%-i digər dinlərə etiqad edənlərdən ibarətdir.

## İran

İran (farsca: ايران) və ya tam adı ilə İran İslam Respublikası (farsca: ايران ا سلامى جمهورى) – Qərbi Asiyada dövlət. Şimalda Ermənistan, Azərbaycan və Türkmənistanla, şərqdə Əfqanıstan və Pakistanla, qərbdə İraq və Türkiyə ilə həmsərhəddir. Şimaldan Xəzər dənizi ilə, cənubdan İran körfəzi və Oman körfəzi ilə əhatə olunmuşdur. Paytaxtı Tehran şəhəridir. Ayrı-ayrı vaxtlarda Həmədan, Təbriz, Qəzvin, İsfahan paytaxt olmuşdur. Tehranın əhalisi 20 milyon nəfərə çatır.

Ərazisi 1628770 km²-dir, sahəsinə görə dünyada 18-ci yeri tutur. 2015-ci ildə keçirilmiş siyahıya almaya görə, 78,4

milyon nəfər olan əhalinin 43%-ni türklər (30855205 nəfər), 25-30%-ni farslar, 8-10%-ni gilək və mazandaranlılar, 7-8%-ni kürdlər, 6-7%-ni ərəblər, 3-3,5%-ni lurlar-bəxtiyarilər, 2%-ni bəluclar, 2%-ni isə digər etnik qruplar təşkil etmişdir.

Ərazi 31 ostana bölünmüşdür. Ostana Daxili İşlər naziri tərəfindən təyin olunan ostandar rəhbərlik edir. Ostan, öz növbəsində, şəhristanlara bölünür. Şəhristanların tərkibinə şəhərlər və digər ərazilər daxildir. Şəhristana rəhbərlik edənlər bəzən təyin olunur, bəzən də seçilirlər.

Əhalinin 98%-i müsəlmandır. Onların 90%-i şiə, 9%-i sünnüdür (əksərən kürdlər). Qriqorian ermənilər, nestorian aysorlar, habelə bəhailər, zərdüştilər və başqaları da var. İranda dövlət dili fars dilidir.

## Kamerun

Kamerun (fransızca: Cameroun, ingiliscə: Cameroon), rəsmi adı Kamerun Respublikası (fransızca: République du Cameroun, ingiliscə: Republic of Cameroon) – Mərkəzi Afrikanın qərbində dövlət. Ölkə Nigeriya, Çad, Mərkəzi Afrika Respublikası, Konqo Respublikası, Qabon, Ekvatorial Qvineya ilə həmsərhəddir. Atlantik okeanı ilə 402 km-lik sahil xətti var. Ölkənin paytaxtı Yaundedir.

XV əsrdə bölgəyə gələn portuqaliyalı işğalçılar burada koloniyalar qurmuş, kölə ticarətinə başlamışlar. 1864-cü ildə alman müstəmləkəsi olmuş, I Dünya Müharibəsi zamanı Almaniyanın əlindən çıxmış, 1919-cu ildə İngiltərə və Fransa arasında bölüşdürülmüşdür. 1 yanvar 1960-cı ildə Fransadan qoparaq müstəqil olmuş, 1 yanvar 1961-ci ildə İngiltərənin əlindəki torpaqlarını almış, 1972-ci ildə Birləşmiş Kamerun adı ilə tam müstəqilliyini elan etmişdir. 1984-cü ildə təkrar Ka-

merun Respublikası adlanmışdır. Bakassi yarımadası Kamerunla qonşu Nigeriya dövləti arasında mübahisə mövzusudur.

Kamerunun 475000 $km^2$ ərazisi var, sahəsinə görə dünyada 54-cü yeri tutur. 2016-cı ilin statistikasına görə, 23,8 milyon əhalisi olduğu müəyyən edilmişdir. Ölkə üzrə orta sıxlıq hər $km^2$-ə 35,7 adamdır.

Rəsmi dil fransız və ingilis dilləridir. Əhalinin əksəriyyəti xristiandır. Onlardan 40%-i katolik, 30%-i protestantdır. Müsəlmanlar əhalinin 18%-ni təşkil edir, 6%-i heç bir dinə sitayiş etmir.

## Komor adaları

Komor adaları, rəsmi adı Komor Adaları İttifaqı (2002-ci ilədək Federativ İslam Komor Adaları Respublikası) – Hind okeanında dövlət. Mozambik körfəzində Madaqaskar adasının və Mozambikin şimalında yerləşir. Komor adalarının doğru adı Qəmər adalarıdır. Osmanlı qeydlərində və ərəbcədə belə adlanmışdır. Qəmər sözü ərəb dilində "ay" deməkdir. Ancaq fransızlar bunu "Komor (Comores)" kimi oxumuş və rəsmi olaraq bu addan istifadə etmişlər. Ayın təsviri bayrağında da əks olunmuşdur.

6 iyul 1975-ci ildən Komor adaları müstəqil dövlətdir. Ölkənin prezidenti Azali Assoumani 26 may 2016-cı ildən etibarən həm də baş nazirdir. Ölkənin ərazisi 1862 $km^2$, Mayotta adası ilə birlikdə 2235 $km^2$-dir. Federativ respublika olan Komor adaları 3 muxtar vilayətdən (adadan) ibarətdir: Nqazidja (Böyük Komor), Mvali (Moheli) və Ndzvani (Anjuan). Prezident 5 illik müddətə növbə ilə hər dəfə bir adadan seçilir.

Paytaxtı Moroni şəhərinin 2011-ci il statistikasına görə, 54 min sakin var. 2016-cı ilin statistikasına görə, ölkə əhalisi

1 milyon nəfərdən bir qədər çoxdur. İllik artım 2,7%-dir. Orta yaş həddi kişilərdə 61, qadınlarda 66 ildir. Kişilərin 63%-i, qadınların 39%-i savadlıdır.

Əhalinin böyük əksəriyyəti islam dininə etiqad edir. Dövlət dili fransız, komor və ərəb dilləridir. Komor adalarının ordusu 500 nəfərdən ibarətdir.

## Kot-d'İvuar

Kot-d'İvuar və ya rəsmi adı ilə Respublikası (fransızca: République de Côte d'Ivoire; 1986-cı ilədək ölkənin adı Fil Dişi Sahili kimi tərcümə olunurdu) – Qərbi Afrikada dövlət. Liberiya, Qvineya, Mali, Burkina-Faso və Qana ilə həmsərhəddir. Cənubda Atlantik okeanının Qvineya körfəzinə çıxışı var. Keçmiş Fransa müstəmləkəsidir. 1985-ci ildə hakim Demokrat partiyasının qurultayı qərara aldı ki, Kot-d'İvuar coğrafi addır və onu fransız dilindən tərcümə etmək olmaz.

7 avqust 1960-cı ildən müstəqil dövlətdir. Paytaxtı 242 min sakini olan Yamusukro şəhəridir. Ən böyük şəhəri Abicandır. Şəhərin 3 milyon əhalisi var. Ərazisi 322463 $km^2$-dir və ərazisinə görə dünyada 69-cu yeri tutur. 2015-ci ilin məlumatına görə, ölkədə 23,5 milyon əhali yaşadığı təxmin edilmişdir. İllik artım sürəti 2,1%-dir.

Orta yaş həddi kişilərdə 55, qadınlarda 57 ildir. Kişilər arasında savadlılıq 60%, qadınlarda 38%-dir. Şəhər əhalisi bütün əhalinin 49%-ni təşkil edir. Ölkənin etnik tərkibi müxtəlifdir: akanlar 42%, qurlar 17%, şimal mandeləri 16%, krular 11%, cənub mandeləri 10% təşkil edirlər. Onlardan başqa, 100 min ərəb və 14 min fransız da var.

Ölkənin rəsmi dili fransız dilidir, ancaq burada 77 dildə danışılır. Bunların arasında baule və dyula ən geniş yayıla-

nıdır. Əhalinin 40%-i islam dininə etiqad edir. İkinci yeri 38,7%-lə xristian dini tutur. Afrikanın yerli dinlərinə inananlar və ya hər hansı bir dinə mənsub olmadığını bəyan edənlər də var. Miqrantların 70%-i müsəlman, 20%-i xristiandır.

## Küveyt

Küveyt (ərəbcə: كويت), rəsmi adı Küveyt Dövləti (ərəbcə: ال كوي ت دولة) – Yaxın Şərqdə dövlət (əmirlik). Şimalda və qərbdə İraqla, cənubda Səudiyyə Ərəbistanı ilə həmsərhəddir. Şərqdən Fars körfəzi sahilindədir. Paytaxtı Küveyt şəhəridir.

Ölkənin əsas problemləri İraq Respublikası ilə olmuşdur. 1990-cı ildə Səddam Hüseyn Küveyti işğal etmiş, 1991-ci ildə koalisiya qoşunları (NATO və körfəz dövlətlərinin hərbi qüvvələri) tərəfindən Küveyt azad edilmişdir.

Ərazisi 17818 $km^2$-dir. Bu, dünya üzrə 158-ci yerdir. Ərazisinin çox hissəsini tutan yaylalar qərbdən şərqə doğru alçalır və İran körfəzi sahilində düzənliyə çevrilir. Su ehtiyatları olduqca azdır, buna görə də dənizin suyu saflaşdırılaraq istifadə olunur. Ölkədə çox böyük neft-qaz yataqları mövcuddur. Neftin sayəsində ölkə iqtisadiyyatı sürətlə inkişaf edərək qabaqcıl ölkələr səviyyəsinə çatmışdır.

2014-cü ilin statistikasına görə, əhalisi 3 milyon nəfərdir. Onun 45%-i bu ərazidə məskunlaşan etnik ərəblər (küveytlilər), 35%-i bu əraziyə sonradan gəlmiş ərəblərdir. Qalan 20%-ni isə iqtisadiyyatın sürətli inkişafına görə işçi qüvvəsinə artan tələbatı ödəmək üçün xaricdən gələnlər təşkil edir.

Dövlət dili ərəb dilidir. Küveyt əhalisinin əksəriyyəti müsəlmandır. 92% əhali islam dininə etiqad edir. Müsəlmanlar arasında sünnülüyün maliki məzhəbi geniş yayılmışdır.

Eyni zamanda sünni-hənəfi və sünnü-sələfilər də vardır. Əhalinin 15-20%-i şiə məzhəbli müsəlman, 6 %-i isə xristiandır.

## Qabon

Qabon (fransızca: Ga'bõ), rəsmi adı Qabon Respublikası (fransızca: République Gabonaise) – mərkəzi Afrikada dövlətdir. Keçmiş Fransa müstəmləkəsidir. 1960-cı ildə müstəqil olmuşdur. Konqo, Kamerun və Ekvatorial Qvineya ilə həmsərhəddir. Qvineya körfəzinə çıxışı var.

2015-ci ilin statistikasına görə, əhalisi 1,7 milyon nəfər, ərazisi 267667 km²-dir. Əhalisinin sayına görə dünyada 151-ci, sahəsinə görə 76-cı yeri tutur. Paytaxtı Livrebil şəhərində 710 min nəfər yaşayır.

Əhalisinin 84%-i şəhərlərdə yaşayır. Afrika dövlətləri arasında ən varlı və ən sabit ölkələrdən biri sayılır. 1960-cı ildən bəri hakimiyyətdə cəmi dörd prezident olmuşdur. 2012-ci ildə daxili məhsuldan gələn gəlir 24,5 milyard dollara çatmışdır (dünyada 114-cü yer). 2011-ci ildə ölkədə orta yaş həddi 62 il təşkil etmişdir.

Rəsmi dili fransız dilidir. Əhalinin çox hissəsi bantu qrupu dillərində (fanq, myene, byanbi və s.) danışır. Yerli dillərdən bəzilərinin əlifbası var. Ölkə əhalisinin əksəriyyəti xristian və müsəlmanlardır. Burada xeyli piqmey və yerli inanclara inanan bəzi tayfalar da yaşayır.

## Qambiya

Qambiya (ingiliscə: The Gambia) və ya tam adı Qambiya İslam Respublikası (İslamic Republic of the Gambia) –

Qərbi Afrikada yarıanklav dövlətdir. Qərbi Afrikada ən kiçik dövlətdir. Şimalda, şərqdə və cənubda Seneqalla həmsərhəddir. Atlantik okeanına çıxışı var. Ərazisi 11300 km², əhalisi 2 milyon nəfərdir. Paytaxtı Banjul, ən iri şəhəri Serekundadır.

Keçmiş Britaniya müstəmləkəsidir. 18 fevral 1965-ci ildə müstəqil olmuş, 1970-ci il aprelin 23-də keçirilən referendumla respublika elan edilmişdir. 1982-ci ilin fevralında Qambiya Seneqal ilə birlikdə Seneqambiya Konfederasiyası yaratmışdır. Sonralar ərazisi və əhalisi kiçik olan Qambiya konfederasiyanın idarə edilməsində rolunun artırılmasını tələb etmişdir. Fikir ayrılıqlarına görə konfederasiya 1989-cu ildə ləğv edilmişdir.

Ölkənin prezidenti Yəhya Camme 12 dekabr 2015-ci ildə Qambiyanı İslam Respublikası elan etmişdir. Bununla da Qambiya İran, Pakistan, Əfqanıstan və Mavritaniyadan sonra dünyada beşinci İslam Respublikası olmuşdur.

Orta yaş həddi kişilərdə 52,3 il, qadınlarda 56 ildir. Kişilər arasında savadlılıq 47,4%, qadınlar arasında 33,1% təşkil edir. Dövlət dili ingilis dilidir. Qambiyada əhalinin 90%-i islam dininin sünnü məzhəbinə, 9%-i xristian dininə etiqad edir. Yerli inanclara inananlar da var (1%).

## Qayana

Qayana və ya rəsmi adı ilə Qayana Kooperativ Respublikası (ingiliscə: Co-operative Republic of Guyana) − Cənubi Amerikada ölkə. Qitənin şimalında yerləşən ölkə qərbdən Venesuela, şərqdən Surinam, cənubdan Braziliya ilə həmsərhəddir; şimalından Karib dənizinə sahili vardır. Ərazisi 214970 km²-dir. 2015-ci ilin statistikasına görə, əhalisi 750 min nəfərdir. Əhalisinin sayına görə dünyada 166-cı, ərazi-

sinin ölçüsünə görə isə 85-ci yerdədir. Ölkənin ən böyük şəhəri və eyni zamanda da paytaxtı Corctaundur. Ölkə əhalisinin dörddə biri burada yaşayır.

1814-cü ildə Böyük Britaniya Vyana Sülh Müqaviləsinə əsasən bu torpaqlara sahib olmuş, 1831-ci ildə isə Britaniya Qvianası adı ilə öz ərazisinə birləşdirmişdir. 26 may 1966-cı ildən müstəqil dövlətdir. 23 fevral 1970-ci ildən isə Qayana Kooperativ Respublikası adlanır və bu tarixdən etibarən Birləşmiş Millətlər Təşkilatının üzvüdür.

Qayana sahil, meşə və çayırlıqlar olmaqla üç bölgəyə ayrılmışdır. Bol yağıntı alan meşəliklər ölkə ərazisinin 85%-ni təşkil edir. Əhali arasında savadlılıq 85%-dir və məktəbyaşlı uşaqların 62%-i oxuyur. Burada 1000 adama 24 müəllim düşür.

Ölkə əhalisi yerlilər, ingilis əsillilər, zəncilər və hind əsillilərdən ibarətdir. Hind əsillilər əhalinin 43,5%-ni, qaradərili afrikalılar 30,2%-ni, qarışıq xalqlar 17%-ni, Qayana qızıldərililəri isə 9,1%-ni təkil edir. Qayanada rəsmi dil ingilis dilidir. Portuqal, ispan və yerli dillər də istifadə olunur.

Avropalılarla bərabər gələn xristianlıq bu gün 52%-lə ölkədə ən geniş yayılmış dindir, qalan əhalinin 29%-ni industlar, 4,3%-ni ateistlər, 9%-ni isə müsəlmanlar təşkil edir. Bu gün ölkədə islam dini zənci, hind və ingilis əsillilər arasında böyük sürətlə yayılmaqdadır.

## Qazaxıstan

Qazaxıstan – Mərkəzi Asiyada sahəsinə görə ən böyük dövlət. Qazaxıstan şimalda, şimal-şərqdə və şimal-qərbdə Rusiya, şərqdə Çin, cənubda Türkmənistan, Özbəkistan və Qırğızıstanla həmsərhəddir. Qərbdə Xəzər dənizi ilə hüdudlanır. Avrasiya İqtisadi Birliyinin üzvüdür. Əhalisi 2016-cı

ilin statistikasına görə, 17,8 milyon nəfərdir. Ərazisi 2717300 $km^2$-dir. Ərazisinə görə dünyada 9-cu yeri, əhalisinə görə 64-cü yeri tutur. Paytaxtı 1997-ci ildən Astana şəhəridir.

1917-ci ildə Rusiyada çarlığın devrilməsi nəticəsində Mərkəzi Asiya bir müddət müstəqil olmuşdur. 1917-1920-ci illər arasında qazaxlar “Alaş Orda dövləti”ni qurmuşlar. Bu dövlət üç il yaşamışdır. 1920-ci ildən sonra bolşevizm dövrü başlanmışdır.

Qazaxıstanda 1933-cü ildə süni aclıq yaradılmış, 1937-1938-ci illərdə soyqırım gerçəkləşdirilmiş, milyonlarla qazax ölkədən qovulmuşdur. Bu və başqa haqsızlıqlar 1986-cı ildə məşhur “Celtoksan” hadisəsi ilə nəticələnmiş, xalq üsyan etmişdir. SSRİ-nin süqutundan sonra 1991-ci ildə müstəqil dövlət kimi dünya arenasında öz yerini tapmışdır.

Qazaxıstan bölgənin ən zəngin dövlətlərindən biridir. Əhalinin 70%-i müsəlman, 26%-i xristian, qalanı yəhudi, ateist və buddistdir.

**Qətər**

Qətər, ya da rəsmi adı ilə Qətər Əmirliyi (ərəbcə: دولة قطر) – Ərəbistan yarımadasının şimal-şərqində, İran körfəzinin sahilində eyniadlı yarımadada yerləşir. Yarımadanın şimaldan cənuba ərazisi 145 km, qərbdən şərqə 85 km, sahil xəttinin uzunluğu isə 410 km-dir. Ətrafdakı məskun və qeyri-məskun bəzi adalar (Aneybar, Xəlul, əl-Mərakkat, əl-Cəzirət-əl-Əliyə, əl-Cəzirət-əs-Sufliya, İbruk və b.) Qətər əmirliyinin tərkibinə daxildir. Yalnız Səudiyyə Ərəbistanı və Birləşmiş Ərəb Əmirlikləri ilə quru sərhədlərə malikdir. Qətərin quru sərhədlərinin ümumi uzunluğu 80 km-dir. Qətər təbii qaz ehtiyatlarına görə Rusiya, ABŞ və İrandan sonra dünyada

dördüncü yeri tutur və adambaşına düşən gəlirə görə dünyanın ən zəngin ölkəsidir.

Ərazisi 11437 km$^2$, əhalisi 2015-ci ilin statistikasına görə, 1,7 milyon nəfərdir. Bunların təxminən 1,5 milyonu xarici ölkələrdən gəlmiş işçilərdir. Filippin, Nepal, Hindistan kimi ölkələrdən buraya tikinti, səhiyyə, xidmət, enerji sektorlarında işləməyə gəlirlər.

Paytaxtı Doha şəhəridir. Əhalinin hamısı şəhərlərdə yaşayır. Qətərdə hər 100 qadına 309,8 kişi var ki, bu, dünyada kişilərin lehinə olan ən yüksək nisbətdir. Orta yaş həddi 73 il, kişilərdə 70, qadınlarda 75 ildir.

Ərəb dili dövlət dilidir. Burada onlarca fərqli millətdən insanların yaşaması ingilis dilini əsas ünsiyyət dili halına gətirmişdir. 2004-cü ilin rəsmi hesablamalarına görə, ölkə əhalisinin 77,5%-i müsəlman, 8,5%-i xristian, 14%-i digər dinlərin nümayəndələridir.

## Qırğızıstan

Qırğızıstan Respublikası Mərkəzi Asiyada, okeanlardan uzaq, materik daxilində yüksək dağlıq regionda – Tyan-Şan, Talas, Qırğız, Türküstan dağlarında yerləşir. Ən uca zirvələri Qələbə piki (7439 m) və Xan-Tenqridir (6995 m). Dağlar arasında geniş İssıkkul, Narın, Talas vadiləri və Fərqanə çökəkliyinin Qırğızıstana aid olan sahələri yerləşir. Ərazinin 95%-i 1000 m-dən yüksəkdədir. Torpaqları şərqdən qərbə doğru 900 km, şimaldan cənuba 410 km məsafədə uzanır.

Ölkədə əlvan metallar – mis, molibden, dəmir filizi, qızıl, civə, qurğuşun yataqları, dağarası çökəkliklərdə isə neft və kömür ehtiyatları mövcuddur.

Ərazisi 199900 $km^2$, əhalisi 6 milyon nəfərdir. Əhalinin 80%-indən çoxu dağətəyi düzənliklərdə və çay vadilərində cəmləşmişdir. Təbii artım yüksəkdir, hər 1000 nəfərdə 16 nəfərdir. Orta sıxlıq 1 $km^2$-də 27 nəfərdir. Əhalisi ən sıx olan ərazilər Çu, Fərqanə və Talas vadiləridir.

Paytaxtı Bişkek şəhəridir. 1878-ci ildə qurulan şəhərdə indi 1 milyona yaxın adam yaşayır. 1926-1991-ci illər arasında Frunze adlandırılmışdır. Qırğızıstan 31 avqust 1991-ci ildə özünü müstəqil respublika elan etmişdir. Qırğızlar dünyada ən çox ət və süd məhsulları istehlak edən xalqlardan biridir. Ənənəvi içki − yaşıl çay və kumısdır.

Qapalı hövzə gölü olan İssık-Kul okean səviyyəsindən 1600 m hündürlükdə yerləşməsinə baxmayaraq, donmur. Dövlət dili qırğız dilidir. Əhalinin 76%-ni müsəlman, 18%-ni xristian, 2%-ni buddist, 4%-ni ateistlər təşkil edir.

## Qvineya

Qvineya Respublikası – Qərbi Afrikada dövlət. Şimaldan Seneqal, şimal-şərqdən Mali, şərqdən Kot-d'İvuar, cənubdan Liberiya, cənub-qərbdən Syerra-Leona, şimal-qərbdən isə Qvineya-Bisau dövlətləri ilə həmsərhəddir. Qərbdə Qvineya sahillərini Atlantik okeanının suları yuyur.

Uzun müddət Fransanın müstəmləkəsi olmuşdur. 1958-ci ildə keçirilən referendumda Qvineya xalqı müstəqilliyə səs vermiş, oktyabrın 2-də müstəqillik elan edilmişdir. Paytaxtı Konakri şəhəridir, burada 2,2 milyon adam yaşayır. 2008-ci ilin statistikasına görə, əhalinin 34 %-i şəhərlərdə yaşayır. Ərazisi 245836 $km^2$-dir. Ərazisinə görə dünyada 77-ci yerdədir. 2015-ci il statistikasına görə, əhalisi 11 milyon nəfərdir. Dünyada 75-ci yeri tutur. İllik artım 2,6%-dir. Orta yaş

həddi kişilər arasında 56 il, qadınlar arasında 59 ildir. 2003-cü ilin statistikasına görə, savadlılıq kişilər arasında 42%, qadınlar arasında isə 18%-dir.

Qvineyanın dövlət dili fransız dilidir, yerli xalqların dilləri də geniş şəkildə istifadə olunur. Ölkənin etnik tərkibi müxtəlifdir, Afrika tayfaları − fulbelər 40%, mandinkalar 30%, susular 20%, digərləri 10% təşkil edir. Əhalinin 85%-i islam dininin sünni məzhəbinə, 8%-ə yaxını xristian (əksəriyyəti katolikdir) dininə inanır, 7%-ə qədəri isə aborigen ayinlərini icra edir, yevangelistlər də vardır.

## Qvineya-Bisau

Qvineya-Bisau – Afrikanın qərbində, Atlantik okeanı sahilində dövlət. Portuqaliyanın müstəmləkəsi olmuş, 1973-cü ildə müstəqilliyini elan etmişdir. Boloma adası və Bijaqoş arxipelaqı da Qvineya-Bisauya məxsusdur. Şimalda Seneqal ilə, cənub-şərqdə Qvineya ilə həmsərhəddir. Ötən əsrin 70-ci illərindən başlayaraq Qvineya-Bisauda siyasi-ideoloji zəmində çoxlu dövlət çevrilişi, hökumət böhranı, silahlı münaqişələr, xaos baş vermiş, ölkənin iqtisadiyyatı və xalqı bundan əziyyət çəkmişdir.

Ərazisi 36125 $km^2$-dir. 2015-ci ilin məlumatlarına görə, əhalisi təqribən 1,8 milyon nəfərdir. Əhalinin sayına görə dünyada 133-cü yeri tutur. Paytaxtı Bisau şəhəridir. 2014-cü ilin məlumatlarına görə, şəhərin 473 min sakini var.

Orta yaş həddi 48 ildir, bu da dünya üzrə 216-cı yerdir. 15 yaşdan yuxarı əhalinin 42%-i savadlıdır. Şəhər əhalisi 30% təşkil edir. Ölkənin etnik tərkibi mürəkkəbdir, 99%-i afrikalılardan ibarətdir. Onlardan balante 30%, fulbe 20%, mandyak 14%, mandinka 13%, papel 7%, digər Afrika tayfaları 15%, ağlar və mulatlar 1% təşkil edirlər.

Qvineya-Bisaunun rəsmi dili portuqal dilidir. Kreol dili və yerli dillər də işlədilir. Ölkə əhalisinin təqribən 50%-i müsəlmanlardır. Yerli inanclara etiqad edənlər əhalinin 40%-ni təşkil edir, xristianların sayı 10%-dir.

## Livan

Livan (ərəbcə: لبنان), rəsmi adı Livan Respublikası (ərəbcə: الجمهورية اللبنانية) – Yaxın Şərqdə, Aralıq dənizinin dağlıq şərq sahilində kiçik dövlət. Şərqdə və şimalda Suriya ilə, cənubda İsraillə həmsərhəddir.

Livan 1943-cü ildə müstəqillik əldə edib. 1958-ci ildə müsəlmanlarla xristian icmaları arasında vətəndaş müharibəsi başlanmışdır. 1975-ci ildə ölkədə 15 il davam edən ikinci vətəndaş müharibəsi alovlanmış, nəticədə 150 min adam ölmüşdür. Ölkə dəfələrlə Suriyanın və İsrailin işğalına məruz qalmış, iqtisadiyyatı və xalqı bundan çox zərər görmüşdür.

Ərazisi 10452 km², 2015-ci ilin məlumatlarına görə, əhalisi 6 milyon nəfərdir. Bütün dini konfessiyaların hakimiyyətdə bərabər təmsil edilməsi üçün belə bir mexanizm işlənib hazırlanmışdır: prezident maronitlərdən (xristian), baş nazir sünnülərdən, parlamentin sədri şiələrdən seçilir. Hökumətdə müsəlman və xristian nazirlərin sayı bərabər olur. Livan parlament respublikasıdır. Parlament 128 deputatdan ibarətdir, tərkibi belədir: 64-ü müsəlman (27 sünnü, 27 şiə, 8 druz, 2 ələvi), 64-ü xristian (32 maronit, 20 erməni, 2 erməni katolik, 7 yunan pravoslav, 1 yunan katolik, 1 protestant). Parlament prezidenti seçir, hökumətin tərkibini təsdiq edir, qanunları qəbul edir. Prezident 6 ildən bir, parlament 4 ildən bir seçilir.

Dövlət dili ərəb dilidir. Hər livanlı üç dil bilir. Əhalinin 60%-i müsəlman (sünnü, şiə, druz, ələvi), 40%-i müxtəlif məzhəblərdən olan xristianlardır.

## Liviya

Liviya (ərəbcə: ليبيا,), tam rəsmi adı Liviya dövləti (ərəbcə: دولة ليبيا) – Şimali Afrikanın Məğrib hissəsində yerləşən dövlət. Şimaldan Aralıq dənizi, şərqdən Misir, cənub-şərqdən Sudan, cənubdan Çad və Niger, qərbdən Əlcəzair və Tunislə həmsərhəddir.

Ərazisi 1759541 km$^2$-dir, 90%-i səhradır. Sahəsinə görə Afrikada 4-cü, dünyada 16-cı yeri tutur. Əhalisi 6,5 milyon nəfərdir. Ölkədə orta ömür qadınlarda 80 il, kişilərdə 75 ildir. Savadlılıq kişilər arasında 96,9%, qadınlarda 94%-dir. Paytaxtı Tripolidir, 1,7 milyon sakini var. Ölkə ənənəvi olaraq üç hissədən ibarətdir: Tripolitaniya (qərb), Kirenaika (şərq) və Fəzzan (cənub).

Liviya 1951-ci ildə kral İdris dövründə müstəqillik qazanmışdır. 1969-cu ildə Müəmmər Qəzzafi onu devirmiş və 42 il ölkəyə rəhbərlik etmişdir. O, 1969-cu ildə ölkəni Liviya Ərəb Respublikası, 1977-ci ildə Liviya Sosialist Xalq Ərəb Cəmahiriyyəsi adlandırmışdır. 2011-ci ildə "ərəb baharı" çərçivəsində ölkə xaosa sürüklənmiş, vətəndaş müharibəsi alovlanmış, İngiltərə, Fransa və başqa Qərb dövlətləri üsyançıları dəstəkləmiş, 20 oktyabr 2011-ci ildə Qəzzafi öldürülmüşdür. 2014-cü ildən bəri islami qruplaşmalarla hökumət qüvvələri arasında toqquşmalar davam edir.

Dövlət dili ərəb dilidir. Əhalinin 93%-i sünnü, 4%-i şiə, 3%-i xristiandır.

## Mavritaniya

Mavritaniya (ərəbcə: موريتانيا), tam adı Mavritaniya İslam Respublikası (ərəbcə: الموريتانية الإ سلامية ال جمهورية) – Qərbi Afrikada dövlət. Qərbdə Atlantik okeanına çıxışı var. Şimal-qərbdə Qərbi Səhra ilə, cənub-qərbdə Seneqalla, şimal-şərqdə Əlcəzairlə, cənubda və şərqdə Mali ilə həmsərhəddir.

28 noyabr 1960-cı ildə ölkə Fransa əsarətindən qurtulmuş, Mavritaniya İslam Respublikası elan edilmişdir. 1961-ci ildə BMT-yə daxil olmuşdur. 1960-ci illərdən 2009-cu ilədək ölkədə saysız-hesabsız dövlət çevrilişi baş vermiş, demokratiya bərqərar olmamışdır. Paytaxtı Nuakşot şəhəridir, 750 min sakini var.

Ərazisi 1030700 $km^2$-dir, dünyada 28-ci yeri tutur. Əhalinin sayı 3,6 milyon nəfərdir. 2010-cu ilin statistikasına görə, illik artım 2,4 %-dir. Orta yaş həddi kişilərdə 58, qadınlarda 63 ildir. Savadlılıq kişilər arasında 59%, qadınlarda 43%-dir.

Əhalinin etnik-irqi tərkibinin 30%-ni “ağ bərbərlər” (tarixən quldar olmuşlar, indi də qulları var), 40%-ni “qara bərbərlər” (tarixən qul olmuşlar, hazırda onların üçdə biri yenə də kölədir), 30%-ni zəncilər (heç vaxt kölə olmamışlar) təşkil edir. Köləlik ilk dəfə 1980-ci ildə və ikinci dəfə isə 2007-ci ildə rəsmən qadağan edilmişdir.

Rəsmi dil ərəb dilidir, tukuler, soninke, volof və başqa zənci dilləri də işlədilir. Əhalinin təxminən 100%-i İslam dininə etiqad edir. Kiçik bir xristian icması da var.

## Malayziya

Malayziya (ingiliscə: Malaysia) – Cənub-Şərqi Asiyada dövlət. 1957-ci ildə müstəqillik qazanmış, 1963-cü ildə isə

Sinqapur, Saravak və Sabahla (keçmiş Şimali Borneo) birləşmişdir, lakin 1965-ci ildə Sinqapur Federasiyadan ayrılmışdır. Şimalda Tayland və Sinqapur, cənubda İndoneziya ilə qonşudur. Bundan əlavə, qərbdən Andaman dənizi, şərqdən Cənubi Çin dənizinə çıxışı var.

Ölkə coğrafi baxımdan Qərbi və Şərqi Malayziya olmaqla 2 bölgəyə, bu bölgələr isə 13 əyalətə və 2 federal əraziyə (Kuala-Lumpur və Labuan adası) ayrılır. Əyalətlərdən 9-u sultanlıq adlanır. 4 əyalətə baş nazir, federal ərazilərə isə mərkəzi hökumət vali təyin edir. Hər 5 ildən bir növbə ilə sultanlardan birini ölkənin kralı seçirlər.

Malayziyanın ərazisi 329845 $km^2$-dir, dünyada 65-ci yeri tutur. 2015-ci ilin statistikasına görə, əhalisi 31 milyona yaxındır, bu da dünya üzrə 44-cü yerdir. İllik artım 2,4%-dir. Şəhər əhalisi 70% təşkil edir.

Dövlət dili malay dilidir. Malaylar ölkə əhalisinin 50,1%-ni təşkil edirlər. Əhalinin 61,3%-ni müsəlmanlar, 19,8%-ni buddistlər, 9,2%-ni xristianlar, 9%-ni industlar, qalanını yerli inanclara inananlar təşkil edir. Müsəlmanların əsas hissəsi malaylar və İndoneziyadan gələnlər, ərəblər, əfqanlar, çin-malay metisləri, islam ölkələrindən gələn mühacir işçilər və çinlilərin bir qrupudur.

## Maldiv adaları

Maldiv adaları, rəsmi adı Maldiv Respublikası – Cənubi Asiyada dövlət, Hindistanın cənubunda, Hind okeanındakı mərcan adalarında yerləşir.

Əvvəllər buddizmə itaət edən Maldiv sakinləri ərəb taciri Əbul Bərəkət əl-Barbarinin təbliğatı ilə islamı qəbul etmişlər. XII əsrdən etibarən müstəqil sultanlıq, 1887-1965-ci illər ərzin-

də isə Böyük Britaniyanın müstəmləkəsi olmuş Maldiv 1965-ci ilin iyulunda müstəqilliyini elan etmiş, 1968-ci ildən isə respublikadır. İqlim dəyişikliklərinin təsiri ilə 100 il sonra Maldiv adalarının suda batması gözlənildiyindən 15 noyabr 2005-ci ildə bu dövlətə Avstraliyaya sığınma haqqı verilmişdir.

Maldiv Respublikası 1192 orta və kiçik adanı birləşdirən 20 mərcan adasından ibarətdir. Adaların 281-də əhali məskunlaşmışdır. Bunun 195-də maldivlilər yaşayır, 86-sı isə otel-ada kimi istifadə olunur. 2015-ci ilin statistikasına görə, əhalisi 395 min nəfərdir. Adalar okean səviyyəsindən bir qədər yüksəkdədir, arxipelaqın ən hündür nöqtəsi cənubda Addu adalarında 2,4 m-dir. Turizm və balıqçılıq ölkə iqtisadiyyatının əsasıdır. Burada hər il yarım milyondan çox turistə xidmət göstərilir.

Adaların ümumi sahəsi 90000 km$^2$, quru ərazi 298 km$^2$-dir. Paytaxtı Male şəhəridir, arxipelaqın yeganə şəhəri və portudur, eyni adlı mərcan adasında yerləşir. 2014-cü ilin statistikasına görə, burada 150 min əhali yaşayır.

Maldiv xalqının 97%-i islam dininə etiqad edir.

## Mali

Mali (fransızca: Mali), rəsmən – Mali Respublikası (fransızca: République du Mali) – Qərbi Afrikada dənizə çıxışı olmayan dövlət. Qərbdən Seneqalla, şimaldan Mavritaniya və Əlcəzairlə, şərqdən Nigerlə, cənub-şərqdən Burkina-Faso ilə, cənubdan Kot-d'İvuar və Qvineya ilə həmsərhəddir. Ölkənin adı bu coğrafiyada XIII-XV əsrlərdə mövcud olmuş Mali imperiyasının adı ilə bağlıdır.

Malinin şimal-şərq hissəsi "əl-Qaidə" ilə əlaqələri olan islami "Ənsarəddin" qruplaşmasının əlindədir. Onlar burada

müstəqil Azavad dövləti elan etmişlər. Mərkəzi hökumət bu bölgəyə muxtariyyət vədi ilə məsələni həll etmək istəyir.

Fransa Mali, Sudan və Seneqalı bir federasiyada birləşdirmiş, 1960-cı ildə bunlar öz müstəqilliklərini elan etmişlər. Ölkədə 2015-ci ilin hesablamalarına görə, 17 milyon adam yaşayır ki, bu da dünya üzrə 66-ci yer deməkdir. İllik artım sürəti 2,6%-dir. Orta yaş həddi 52 ildir ki, bu da dünya ölkələri arasında 209-cu yerdir. Dünyada ən yüksək uşaq ölümü burada müşahidə olunur.

Dövlət dili fransız dilidir. Əhalinin 90%-i sünnü müsəlmandır. Xristianlar 5%, yerli ənənəvi Afrika inancları 5% təşkil edir.

## Mərakeş

Mərakeş (ərəbcə: المغرب), rəsmi adı Mərakeş Krallığı (ərəbcə: المغربية الممـلكة) – Şimali Afrikada dövlət. Bərbərcə "Tanrının ərazisi" deməkdir.

Mərakeş Afrika İttifaqının üzvü olmayan yeganə Afrika ölkəsidir (bu təşkilatdan 1984-cü ildə çıxmışdır). Bununla birlikdə Ərəb Ölkələri Liqasının, Ərəb Məğribi İttifaqının, İslam Əməkdaşlıq Təşkilatının, Aralıq Dənizi Dialoqunun, 77-lər qrupunun fəal üzvüdür. 25 mart 1956-cı ildən müstəqil dövlətdir.

Ərazisi 710850 km²-dir. Bu, dünya üzrə 57-ci yerdir. Ölkənin paytaxtı Rabat şəhəridir. Təqribən 1,7 milyon nəfər əhalisi var. 2011-ci ilin statistikasına görə, əhalisi 35 milyon nəfərdir. Misir və Sudandan sonra 3-cü böyük ərəb ölkəsidir. Əhalinin 60%-i ərəb, 40%-i bərbərdir, 60 min avropalı, 3 min yəhudi yaşayır. 2009-cu ilin statistikasına görə, əhalinin illik artımı 1,5%-dir. Orta yaş həddi kişilərdə 69 il, qadınlarda 74 ildir. Savadlılıq kişilərdə 66%, qadınlarda 40%-dir.

Ərəb və bərbər dilləri rəsmi dildir. Fransız və ispan dilləri də geniş şəkildə yayılmışdır. Bərbərcə danışanların sayı 12 milyon nəfərdir, bu da əhalinin 40%-ni təşkil edir. Bu dilin 3 dialekti var. Əhalinin əksəriyyəti müsəlmandır, xristianlar da var.

## Misir

Misir (ərəbcə: مصر), rəsmi adı Misir Ərəb Respublikası (ərəbcə: جمهورية مصر العربية) – Afrikanın şimal-şərqində, Asiyanın cənub-qərbində, iki qitədə yerləşən dövlət. Şərqdən İsrail, cənubdan Sudan, qərbdən Liviya dövlətləri ilə həmsərhəddir. Şimaldan Aralıq dənizinə, şərqdən Qırmızı dənizə çıxır. Əsas yaşayış məntəqələri Nil çayı boyunca yerləşir.

Misir bəşər mədəniyyətinin ən qədim məskənlərindən biridir. Dünyanın yeddi möcüzəsindən biri olan ehramlar Misirdədir. Dünyadakı ən iri süni su yolu olan Süveyş kanalı Misirə məxsusdur. Bu kanal Aralıq dənizi ilə Qırmızı dənizi birləşdirir, Atlantik okeanından Hind okeanına ən qısa yolu açır.

Sahəsi 1010408 km$^2$-dir. Ərazisinə görə dünyada 30-cu yeri tutur. 2017-ci ildə Misirin əhalisi xaricdə yaşayan 7 milyon nəfərlə birlikdə 93 milyon nəfərə çatmışdır. Misir Avropada Almaniyanı, Orta Şərqdə İran və Türkiyəni geridə qoyaraq dünyanın ən çox əhaliyə malik 14-cü ölkəsi ol-muşdur. 2008-ci ilin statistikasına görə, şəhər əhalisi 43%-dir. Paytaxtı Qahirə şəhəridir və 8 milyon sakini var. Orta yaş həddi kişilərdə 69,8 yaş, qadınlarda 75,1 yaşdır. 2005-ci ilin statistikasına görə, kişilərin 83, qadınların 59%-i savadlıdır. Dövlət dili ərəb dilidir.

Əhalinin böyük əksəriyyətini ərəblər təşkil edir. Burada koptlar, nubiyalılar, beclər, bərbərlər və başqa millətlərin nümayəndələri də yaşayırlar. Müsəlmanlar (əsasən sünnülər)

əhalinin 90%-ni, xristian koptlar 9%-ni, digər xristianlar 1%-ni təşkil edirlər.

## Mozambik

Mozambik Respublikası (portuqalca: República de Moçambique) – cənub-şərqi Afrikada dövlət. Şərqdə Hind okeanı ilə əhatə olunur, şimalda Tanzaniya ilə, şimal-qərbdə Malavi və Zambiya ilə, qərbdə Zimbabve ilə, cənubda isə Svaziland və Cənubi Afrika Respublikası ilə həmsərhəddir.

Mozambik keçmiş Portuqaliya müstəmləkəsidir. 25 iyun 1975-ci ildən müstəqil dövlətdir. SSRİ-nin və Çinin hərbi, siyasi, ideoloji dəstəyi ilə fəaliyyət göstərən marksist siyasi təşkilatlar ölkəni demokratik inkişaf yoluna çıxara bilməmiş, uzun sürən vətəndaş müharibəsi Mozambikə böyük zərər vurmuşdur. Ölkə əhalisinin 70%-i rəsmi yoxsulluq səviyyəsində yaşayır.

Ölkənin bayrağında Kalaşnikov avtomatının təsviri vardır. Bu, onun kommunist keçmişindən yadigardır.

Mozambikin paytaxtı Maputu şəhəridir, 1,2 milyon nəfər sakini var. Ərazisi 799380 km$^2$-dir. Bu, dünya üzrə 35-ci yerdir. 2015-ci il statistikasına görə, əhalisi 25,7 milyon nəfərdir. Bu göstəriciyə görə dünyada 50-ci yerdədir. İllik artım 2,45%-dir. Orta yaş həddi 52 ildir; kişilərdə 51, qadınlarda 53 yaş. Savadlılıq 50,6%-dir. 2009-cu ildəki məlumatlara görə, bu nisbət kişilər arasında 67,4%, qadınlar arasında 36,5%-dir. Şəhər əhalisinin xüsusi çəkisi 31,8%-dir.

Dövlət dili portuqal dilidir. Onu əhalinin 50%-i bilir. Əhalinin etnik tərkibi belədir: yerli xalqlar (maxuva, tsonqo, sona, yao, makonde, lombe və b.) 99,66%, mulatlar 0,2%, hindlilər 0,08%, avropalılar 0,06%. Ölkədə 2007-ci ilin statistikasına görə katoliklər 28,4%, müsəlmanlar 17,9%, xris-

tian sionistlər 15,5%, protestantlar 12,2%, digər dinlər 6,7%, ateistlər 18,7% təşkil edir.

## Niger

Niger (fransızca: Niger), rəsmi adı Niger Respublikası (fransızca: République du Niger) – qərbi Afrikada dövlət. Ərazisindən axan çaya görə belə adlanır. Niger tuareqlərin dilində "Böyük çay", yaxud "Çaylar çayı" deməkdir. Əlcəzair, Liviya, Çad, Nigeriya, Benin, Burkina-Faso və Mali ilə həmsərhəddir. Dənizə çıxışı yoxdur. Ölkənin torpaqları şimaldan cənuba doğru 1300 km, qərbdən şərqə doğru 2000 km məsafədə uzanır. Ərazisi 1267000 km²-dir. Sahəsinə görə Afrikada Əlcəzair, Konqo Demokratik Respublikası, Çad, Sudan və Liviyadan sonra 6-cı yeri, dünyada 21-ci yeri tutur. Ölkə ərazisinin 80%-i səhrada, qalanı yarımsəhra sahildə yerləşir. Daim quraqlıq və səhralaşma təhlükəsi altındadır.

Ölkənin müstəqil olduğu 1960-cı ildən 2012-ci ilə qədər dəfələrlə dövlət çevrilişi baş vermiş, 7 dəfə respublika elan olunmuş və Niger daim siyasi, maddi, mənəvi təcavüzlərə məruz qalaraq yaxşı inkişaf edə bilməmişdir. Son illərdə vəziyyət yaxşılığa doğru dəyişir. Paytaxtı Niamey şəhəridir, 2006-cı ildəki məlumatlara görə, 775 min sakini var.

Əhalisi 20 milyon nəfərdir, bu da dünya üzrə 63-cü yerdir. İllik artım dünyada 1-ci yerlə 3,7%-dir. Orta yaş həddi kişilərdə 52 il, qadınlarda 54 ildir. Savadlılıq 2005-ci ildəki məlumatlara görə, kişilər arasında 43%, qadınlarda 15%-dir. Şəhər əhalisi 2008-ci ildəki məlumatlara görə, 16%-dir. Ən kasıb ölkələrdən biridir. İnsan potensialının inkişaf indeksinə görə, dünyada axırıncı yerdədir. Neqroid irqinə mənsub xausalar 54%, sonqaylar 21%, tuareqlər 10%, fulbelər 9% təşkil edirlər.

Əhalinin 80%-i sünnü müsəlmanlardan, qalanları xristianlardan, yerli inanclara inananlardan və s. ibarətdir.

## Nigeriya

Nigeriya Federativ Respublikası (qısaca: Nigeriya) – Qərbi Afrikada, Qvineya körfəzi sahilində yerləşən, qərbdə Benin, şimalda Niger, şimal-şərqdə Çad, şərqdə Kamerunla həmsərhəd olan ölkə. Cənubundan Qana körfəzi vasitəsi ilə Atlantik okeanına çıxışı var. Paytaxtı Abuca, ən iri şəhəri Laqosdur.

1 oktyabr 1960-cı ildə müstəqil olmuş, 3 il sonra respublika elan edilmişdir. Ölkənin ən yaxın tarixində dəfələrlə dövlət çevrilişi, müsəlmanlarla xristianlar arasında qarşıdurma, toqquşma və vətəndaş müharibəsi baş vermişdir. Son illərdə meydana çıxan "Boko haram" islami terrorçu qruplaşması da ölkəni vahimə və xaos içində saxlayır.

Ərazisi 923768 km$^2$-dir, bu da dünya üzrə 32-ci yerdir. 2015-ci ilin statistikasına əsasən, Nigeriya 194 milyonluq əhalisi ilə Afrika qitəsində 1-ci, dünyada 7-ci yeri tutur. İllik artım sürəti 2,21%-dir. Kişilərin orta yaş həddi 46 il, qadınlarınkı 48 ildir. Dünyada 220-ci yeri tutur. Orta savadlılıq dərəcəsi 68%-dir.

Nigeriyanın rəsmi dili ingilis dilidir. Ölkədə 527 dil var. Onlardan 512-si işlədilir, 4-nün daşıyıcısı yoxdur, 11-i isə ölü dildir. Yerli xalqlardan yorubalar əhalinin 20%-ni, hausalar 16%-ni, ibolar 15%-ni, pöllər 11%-ni, digər Afrika qəbilələri 38%-ni təşkil edirlər.

Ölkə üzrə əhalinin 50%-i islam, 40%-i xristian dininə, qalanları yerli inanclara etiqad edir. Müsəlmanların əksəriyyəti maliki və hənəfi məzhəbinə mənsubdur. Ən az müsəlman

Laqosdadır. Xristianların beşdə üçü protestant, beşdə ikisi katolikdir. Nigeriyada az sayda yəhudi də yaşayır.

## Oman

Oman (ərəbcə: عُمان) və ya rəsmi adı Omman Sultanlığı (سلطنة عمان) – Asiyada dövlət. Oman Ərəbistan yarımadasının cənub-şərqində yerləşir. Cənub-qərbdə Yəmən, qərbdə Səudiyyə Ərəbistanı Krallığı, şimal-qərbdə isə Birləşmiş Ərəb Əmirlikləri ilə həmsərhəddir. Şimalda Oman Körfəzi, şərqdə və cənubda isə Ərəb dənizi ilə əhatə olunur. Sahəsi 309500 $km^2$, əhalisi təxminən 4,6 milyon nəfərdir. 2016-cı ilin məlumatlarına görə, onun təxminən 1 milyonu xaricilərdir. İllik əhali artımı 2%-dir. Əhalinin 80%-ni ərəblər təşkil edir. Onlar iki qrupa bölünürlər: ərəb-ariba (təmizqanlı ərəblər) və musta-ariba (qarışmış ərəblər). Birinci qrupa qədim dövrlərdə Yəməndən köçmüş ərəblər, ikinci qrupa ölkəyə sonradan gəlmiş ərəblər daxildir.

Paytaxtı Məsqət şəhəridir. Oman 7 oktyabr 1971-ci ildən BMT-nin, 1972-ci ildən İslam Əməkdaşlıq Təşkilatının, habelə Bloklara Qoşulmayan ölkələr, Ümumdünya Ticarət Təşkilatı kimi qurumların üzvüdür. Məsqətdə 50-dən artıq xarici səfirlik və konsulluq fəaliyyət göstərir.

Omanda, demək olar ki, bütün əhali müsəlmandır. Onların əksəriyyəti islamın ibadiyyə təriqətinə mənsubdur. Əhalinin dörddə bir hissəsindən çoxu sünnülərdir. Şəhərlərdə farslar, bəzi ərəblər və pakistanlılar arasında şiəlik yayılmışdır. Ölkədə yaşayan portuqaliyalılar və ingilislər xristiandırlar.

Dövlət dili ərəb dilidir. Dövlət dini islam dinidir (ibadizm). Oman sultanı müsəlmanların həm də ruhani rəhbəri sayılır.

## Özbəkistan

Özbəkistan (özbəkcə: O'zbekiston), rəsmi adı Özbəkistan Respublikası (O'zbekiston Respublikasi) – Orta Asiyanın mərkəzində yerləşən dövlət. Şərqdən Qırğızıstanla, şimal-şərqdən və şimal-qərbdən Qazaxıstanla, cənub-qərbdən və cənubdan Türkmənistanla, cənubdan Əfqanıstanla, cənub-şərqdən Tacikistanla həmsərhəddir. Aral gölünə çıxışı var. 2016-cı ildə MDB-nin ən xoşbəxt ölkəsi elan edilmişdir. Özbəkistan qədim mədəniyyət beşiyidir. Səmərqənd e.ə. 742-ci ildə, Buxara e.ə. IV əsrdə, Xivə e.ə. IV əsrdə, Daşkənd e.ə. II əsrdə salınmışdır.

31 avqust 1991-ci ildə Özbəkistanın dövlət müstəqilliyi elan edilmişdir. 2 mart 1992-ci ildə BMT-nin üzvü olmuşdur.

Ölkənin ərazisi 448978 $km^2$-dir, dünyada 56-cı yeri tutur. 2016-cı ilin hesablamalarına görə, əhalisi 32 milyon nəfər olmuşdur ki, bu da dünya üzrə 41-ci yerdir. İllik artım 2,2%-dir. Əhalinin sayına görə MDB-də Rusiya və Ukraynadan sonra 3-cü yerdədir. Orta yaş həddi 72,9 ildir, bu rəqəm kişilərdə 70,6 il, qadınlarda 75,1 ildir. Şəhər əhalisi 51%, kənd əhalisi 49%-dir. Əhalinin milli tərkibinin 82%-ni özbəklər, 4,8%-ni taciklər, 2,6%-ni ruslar, 1,4%-ni qırğızlar, 0,7%-ni tatarlar, 0,6%-ni koreyalılar, 7,9%-ni isə başqaları təşkil edir. Paytaxt Daşkənddə 2,5 milyona yaxın adam yaşayır.

Özbəkistanın dövlət dili özbək dilidir. Məktəblərdə rus və ingilis dilləri xarici dil kimi tədris olunur. Əhalinin 93%-i müsəlman, 7%-i xristiandır.

## Pakistan

Pakistan (urduca: پاکِستان] – pak insanlar ölkəsi, tam adı Pakistan İslam Respublikası (urduca: پاکِستان جمہوریہ اسلامی)

– cənubi Asiyada dövlət. Ərəbistan dənizinə çıxışı var, cənub-qərbdə İranla, şimal-qərbdə və şimalda Əfqanıstanla, şimal-şərqdə Çinlə, şərqdə Hindistanla həmsərhəddir. Müstəqil dövlət kimi 1947-ci ildə Britaniya Hindistanının bölünməsi nəticəsində yaranmışdır. Ölkə BMT-nin, Şanxay Əməkdaşlıq Təşkilatının, Ümumdünya Ticarət Təşkilatının, İslam Əməkdaşlıq Təşkilatının, 77-lər qrupunun və digər beynəlxalq qurumların üzvüdür.

Ərazisi 881913 $km^2$-dir, dünyada 34-cü yerdədir. Pakistan əhalisinin sayına görə dünyada 6-cı, islam aləmində İndoneziyadan sonra 2-ci yeri tutur. 2016-cı ilin hesablamalarına görə, əhalisi 202 milyon nəfərdir. Etnik tərkibinin 44,7%-ni pəncablar, 15,4%-ni puştular, 14,1%-ni siqhlər, 8,4%-ni saryaqlar, 7,6%-ni mühacirlər, 3,6%-ni bəluclar və başqa xalqlar (6,3%) təşkil edir. 2005-ci ilin hesablamalarına görə, əhalinin 50%-i − kişilərin 63%-i, qadınların 37%-i savadlıdır. Şəhər əhalisi 36% təşkil edir.

Əhalinin 96%-ni müsəlmanlar, 1,85%-ni industlar, 1,6%-ni xristianlar, 0,22%-ni əhmədiyyələr, qalanlarını isə parslar, buddistlər, iudeylər, bəhailər, animistlər və s. təşkil edir. Dövlət dili urdu dilidir.

## Seneqal

Seneqal, rəsmi adı Seneqal Respublikası – qərbi Afrikada Seneqal çayından cənubda yerləşən dövlət. Adını bu çaydan alır. Atlantik okeanına çıxışı var. Şimalda Mavritaniya, şərqdə Mali, cənubda Qvineya və Qvineya Bisau ilə həmsərhəddir.

1950-1970-ci illərdə Afrika sosializmi ideyası çox yayılmışdı. Kapital və müstəmləkə əleyhinə olan hər şey afrikalılara xoş gəlirdi. 20 avqust 1960-cı ildə Fransadan ayrılaraq müs-

təqil olanda Seneqal da bu ideyalara qapılmış, əvvəlcə Mali ilə (1960), sonra 1982-ci ildə Qambiya ilə federasiyaya girmiş (Seneqambiya), 1989-cu ildə federasiyanı tərk etmişdir.

Seneqalın ərazisi 196190 km$^2$-dir, dünyada 87-ci yerdədir. Əhalisi dünyada 72-ci yerlə 14,1 milyon nəfərdir. 2008-ci ilin statistikasına görə, şəhər əhalisi 42%-dir. İllik artım sürəti 2,7%-dir. Orta yaş həddi 59 ildir. Bu, kişilər arasında 57, qadınlar arasında 61 ildir. 2002-ci ilin statistikasına görə, savadlılıq kişilərdə 51, qadınlarda 29 %-dir.

Seneqalın paytaxtı Dakar şəhəridir, 2,5 milyon sakini var. Bakı ilə qardaşlaşmış şəhərdir. Bakıda Dakar meydanı var.

Ölkədə 20 etnik qrup var: voloflar əhalinin 43%-ni, fublelər 24%-ni, sererlər 15%-ni, ağlar 1%-ni təşkil edirlər. Rəsmi dil fransız dilidir, yerli dillər də işlədilir. Xalqın 94%-i islama, 5%-i xristianlığa, 1%-i yerli inanclara etiqad edir.

## Səudiyyə Ərəbistanı

Səudiyyə Ərəbistanı (ərəbcə: ال سعودية ال عرب ية ال مم لكة) – Asiya qitəsində bir dövlət. Səudiyyə Ərəbistanı Ərəbistan yarımadasında yerləşir. Avropa, Asiya və Afrikaya gedən yolların burada qovuşması, okeana birbaşa çıxışının olması, ərazisində zəngin neft yataqlarının (ehtiyatlarına görə dünyada 1-ci) tapılması ölkənin iqtisadi-coğrafi mövqeyini olduqca əlverişli edir. Şimaldan Küveyt, İraq, İordaniya, cənubdan Yəmən, Oman, cənub-şərqdən BƏƏ, qərbdən Misir ilə həmsərhəddir. Sərhədlərin ümumi uzunluğu 431 km-dir. Sahəsi 2218000 km$^2$-dir. Qərbində yerləşən Qırmızı dəniz vasitəsilə Cibuti, Sudan, Eritreyaya, şərqindəki İran körfəzi vasitəsilə İran və Bəhreynə çıxışı var.

Ölkə neft ehtiyatı, hasilatı və satışı üzrə dünyada ilk yeri tutur, əla emal sənayesinə sahibdir. Nəhayət, həcc zamanı hər il 4-5 milyon zəvvar müqəddəs yerləri ziyarətə gəlir.

Ərazisi 2218000 km$^2$-dir, dünyada 13-cü yerdədir. Əhalisi 29,6 milyon nəfərdir, dünya üzrə 43-cü yerdədir. 2003-cü ildəki hesablamalara görə, paytaxt ər-Riyadın əhalisi 4 milyon nəfərdir, bu da ölkə əhalisinin 14%-ni təşkil edir. Məkkədə 1,7 milyon, Mədinədə 1,3 milyon adam yaşayır. Şəhər əhalisi 88%-dir.

İslam dininin beşiyi olan ölkədə əhalinin 99%-i müsəlmanlardır. Onların onda doqquzu sünnüdür. Şiələr arasında iranlılar, yəmənlilər, pakistanlılar, hindistanlılar daha çoxdur. Qeyri-müsəlmanlar çox azdır – cəmi 13 min nəfər. Rəsmi dil ərəb dilidir.

## Somali

Somali (somalicə: Soomaaliya, ərəbcə: الصومال), rəsmi adı Somali Federativ Respublikası (somalicə: Jamhuuriyadda Federaalka Soomaaliya, ərəbcə: الـ ف يدرالـ ية الـ صومال جمهوريـ ة) – şərqi Afrikada dövlət. Şimal-şərqdə Cibuti, qərbdə Efiopiya, cənub-qərbdə Keniya ilə həmsərhəddir. Hind okeanına və Ədən körfəzinə çıxışı var.

1960-cı ildə Britaniya Somalisi və İtaliya Somalisi birləşərək müstəqil Somalini meydana gətirmiş, ölkə BMT-yə üzv qəbul edilmişdir. Sonra Keniya, Efiopiya və Cibutiyə qarşı ərazi iddiaları irəli sürmüş, bu ölkələrdə yaşayan soydaşlarının separatçılıq hərəkətlərini dəstəkləməyə başlamış, Keniya, Efiopiya və Cibuti bunu cavabsız qoymamışdır. Hərbi müdaxilələr, silahlı üsyanlar, çevrilişlər, klançılıq, separatizm, quldurluq və vətəndaş müharibəsi nəticəsində ölkə yeddi his-

səyə bölünmüşdür. Paytaxt Moqadişo dəfələrlə əldən-ələ keçmişdir. Siyasi qüvvələr arasında danışıqlar heç bir nəticə verməmiş, sülhməramlı qoşunlar sülhü bərpa edə bilməmişdir. Hazırda federal hökumət əyalətləri yenidən bir dövlət halında birləşdirməyə çalışır.

Somalinin ərazisi 637657 km$^2$-dir, dünyada 41-ci yeri tutur. Əhalisi 12 milyon nəfərdən artıqdır. Əhalinin 26%-i xaviye, 23%-i isaak, 21%-i darod, 21%-i rahvanveyn və digil, 7%-i digər tayfalardan ibarətdir. Kuşit dilləri qrupunda danışırlar. Cəmi 6%-i savadlıdır. 1973-cü ildə latın əlifbası əsasında somali əlifbası yaradılmışdır. Əhalisi bütünlüklə müsəlmandır.

## Sudan

Sudan (ərəbcə: السودان), tam adı Sudan Respublikası (ərəbcə: جمهورية السودان) – Şərqi Afrikada dövlət. Şimalda Misir, şimal-qərbdə Liviya, qərbdə Çad, cənub-qərbdə Mərkəzi Afrika Respublikası, cənubda Cənubi Sudan, cənub-şərqdə Eritreya və Efiopiya ilə həmsərhəddir. Qırmızı dənizə çıxışı var. Sudanın paytaxtı Xartum şəhəri Ağ Nil və Mavi Nil çaylarının qovuşduğu yerlərdə yerləşir. 1 yanvar 1956-cı ildə müstəqil dövlət elan edilmişdir.

Sudanın şimalında müsəlmanlar, cənubunda xristianlar yaşayır. Onların arasındakı anlaşılmazlıqlar sonda silahlı münaqişəyə çevrilmiş, 2011-ci ildə Cənubi Sudan öz müstəqilliyinə nail olmuşdur. Etnik qrupların yaşadığı Darfur bölgəsində də separatçılıq baş qaldırmış, vətəndaş müharibəsi baş vermişdir. Münaqişə hələ də öz həllini tapmamışdır. Daha sonra Misirlə Xalaiba bölgəsi, Cənubi Sudanla Qafiyə Kinqi və Abyey bölgələri üstündə mübahisələr başlamışdır.

1886068 $km^2$-lik ərazisi ilə dünyanın ən böyük 16-cı ölkəsidir. 38 milyonluq əhalisi ilə dünyada 40-cı yeri tutur. Sudan paytaxtı ilə ən böyük şəhərinin bir-birinə yaxın olduğu ölkədir. Xartumla (640 min sakin) Omdurmanın (2,8 milyon sakin) arası 150 m-dir. Bu iki şəhəri Nil çayı ayırır.

Orta yaş həddi kişilərdə 54,2 il, qadınlarda 56,7 ildir. Kişilərin 71%-i, qadınların 50%-i savadlıdır. Əhalinin 70%-i ərəblərdir. Rəsmi dil ərəb dilidir. Əhalinin 95%-i müsəlman, 1%-i xristian, 4%-i yerli inanclara inananlardır.

## Surinam

Surinam (niderlandca: Suriname), rəsmi adı Surinam Respublikası (niderlandca: Republiek Suriname), qeyri-rəsmi olaraq əvvəllər Niderland Qvianası kimi tanınmışdır – Cənubi Amerikanın şimal-şərqində dövlət. Qərbdən Qayana, şərqdən Fransa Qvianası, cənubdan Brazilya ilə həmsərhəddir. Şimal-dan Atlantik okeanının suları ilə yuyulur.

25 noyabr 1975-ci ildə Surinam müstəqil dövlət olmuş-dur. Paytaxtı Paramarobo şəhəridir, 250 min sakini var. Ərazisi 163270 $km^2$-dir, dünyada 90-cı yeri tutur. 2013-cü ilin statistikasına görə, əhalinin sayı 567 min nəfərdir. İllik artım sürəti 1,15%-dir. Orta yaş həddi kişilərdə 69 il, qadınlarda 74 ildir. Savadlılıq kişilər arasında 92%, qadınlar arasında 87,4%-dir. Şəhər əhalisi 69%-dir.

Əhalinin etnik-irqi tərkibinin 37%-ni hindlilər, 31%-ni kreollar (mulatlar), 15%-ni yavalılar, 10%-ni maronlar (meşə zəncilərі), 7%-ni digərləri təşkil edir. Rəsmi dil niderland dilidir. Sranan-tonqo dili ən geniş yayılmış dillərdən biridir. Çin, hind, yava dilləri də işlənir. Ölkənin 48%-ni xristianlar,

27%-ni induistlər, 19,6%-ni müsəlmanlar, 5%-ni digər dinlərin nümayəndələri təşkil edir.

## Suriya

Suriya Ərəb Respublikası (ərəbcə: الجمهوريّة العربيّة السّوريّة) – Orta Şərqdə dövlət. Suriya şimaldan Türkiyə, şərqdən İraq, cənub-şərqdən İordaniya, cənub-qərbdən İsrail və Livanla həmsərhəddir, qərbdə Aralıq dənizi ilə əhatə olunmuşdur. Ən böyük şəhərləri Hələb, Dəməşq, Hims, Həma, ər-Rəqqə, Qamışlı, Deyr- əz-Zor və əl-Həsəkədir.

Paytaxtı Dəməşq şəhəridir. Suriyanın ərazisi 185180 $km^2$-dir. Bu, dünya üzrə 88-ci yerdir. Suriya Mərkəzi Statistika Bürosunun 2011-ci ilə olan rəsmi məlumatına əsasən, ölkənin daimi əhalisinin sayı 21,3 milyon nəfərdir. Dünyada 55-ci yeri tutur.

Rəsmi dil ərəb dilidir. Ölkənin şimal-qərbində kürd və türk dillərindən istifadə olunur. Suriyada əhalinin əksər hissəsini (90%-dən çoxunu) müsəlmanlar təşkil edir, onların 74%-i sünnüdür. Xristianlar (7%), nusayritlər (12%), druzlar (3%) da var. Xristianlar arasında pravoslavlar (300 min nəfər) və katoliklər (205 min nəfər, yunan-katoliklər, erməni-katoliklər, maronitlər, xaldo-katoliklər, latın ənənəli katoliklər) var. Bunlardan başqa, erməni-qriqoryanlar (150 min nəfər), yakobistlər (125 min nəfər), nestorianlar (20 min nəfər), protestantlar (20 min nəfər), yeddinci günün adventistləri və s. də yaşayırlar. Digər dinlərin ardıcıllarından yezidlər (10 min nəfər, kürdlərin bir hissəsi) və iudaitlər (4,5 min nəfər) vardır.

Qeyd edək ki, bütün istifadə olunan rəqəmlər 2012-ciilədək olan statistik məlumatlardır.

## Syerra-Leone

Syerra Leone − Afrika qitəsinin qərbində, Atlantik okeanı sahillərində yerləşən dövlət. Qvineya və Liberiya ilə həmsərhəddir. Syerra Leone 1961-ci ildə ingilis müstəmləkə əsarətindən çıxaraq müstəqilliyini elan etmiş, 10 il sonra krallıq idarə sistemindən imtina edərək respublikaya çevrilmişdir. 1990-cı illərdən başlayaraq ölkədə vətəndaş müharibələri fasiləsiz olaraq davam edir. Ölkə ərazisində BMT sülhməramlıları fəaliyyət göstərir.

Syerra Leonenin iqtisadiyyatı çox zəifdir. Əsas ixracat məhsulları almaz, pivə, siqaret, ayaqqabı və gön dəridir. Paytaxtı Fritaun şəhəridir. Ətrafı ilə birlikdə 1,5 milyon nəfər əhalisi var. Sahəsi 71740 km$^2$-dir, bu da dünyada 117-ci yerdir. Əhalisi 7 milyondan artıqdır, dünya üzrə 122-ci yerdədir. İllik artım sürəti 2,2%-dir. Orta yaş həddi kişilərdə 53 il, qadınlarda 58 ildir. Savadlılıq kişilər arasında 46%, qadınlarda 24%-dir.

20-yə yaxın aborigen tayfa əhalinin 90%-ni təşkil edir. Əhalinin etnik tərkibinin 30%-ni temne, 30%-ni mende, təqribən 10%-ni kreol, 30%-ni başqaları, az bir hissəsini də ağdərililər və ərəblər təşkil edir.

Ölkənin rəsmi dili ingilis dilidir, ancaq əhali mende dili (cənubda yayılmışdır), temne dili (şimalda yayılmışdır), kreol dilində (millətlərarası ünsiyyət dili, onu əhalinin 95%-i bilir) də danışır. Müsəlmanlar ölkə əhalisinin 60%-ni, aborigen inanclar 30%-ni, xristianlar 10%-ni (metodistlər, adventistlər, katoliklər və s.) təşkil edir.

## Tacikistan

Tacikistan (tacikcə: Тоҷикистон), rəsmi adı Tacikistan Respublikası (tacikcə: Ҷумҳурии Тоҷикистон) – Orta Asiyada dənizə çıxışı olmayan dövlət. Qonşuları cənubdan Əfqanıstan, qərbdən Özbəkistan, şimaldan Qırğızıstan, şərqdən Çindir.

Tacikistan keçmiş sovet respublikalarından biridir. 9 sentyabr 1991-ci ildə dövlət müstəqilliyini elan etmişdir. 5 may 1992-ci ildən 27 iyun 1997-ci ilə qədər ölkədə qanlı vətəndaş müharibəsi davam etmişdir. 1 milyon vətəndaş qaçqın və məcburi köçkün vəziyyətinə düşmüş, Tacikistan iqtisadiyyatına 10 milyard ABŞ dolları həcmində zərər dəymişdir.

Tacikistan 143100 km$^2$-lik ərazisi ilə dünya üzrə 92-ci yerdədir. Tacikistan Respublikasının Statistika Agentliyinin təqdim etdiyi rəsmi məlumata görə, öklənin əhalisi 1 yanvar 2015-ci ildə 8,3 milyon nəfər olmuşdur. Bu, dünya üzrə 96-cı yer deməkdir. Əhalinin 2 milyon 215,5 min nəfəri şəhərdə, 6 milyon 136,5 min nəfəri kənddə yaşayır. Paytaxtı Düşənbə şəhəridir. 750 min nəfər sakini var.

Tacikistan dövlətinin etnik tərkibi əsasən taciklərdən ibarətdir. Taciklərdən başqa, burada irandilli farslar, kürdlər, osetinlər, tatlar, əfqanlar, türkdilli özbəklər, qırğızlar, uyğurlar, azərbaycanlılar; ruslar və başqaları yaşayırlar. Taciklər ölkə əhalisinin 80%-ni, özbəklər 15%-ni, ruslar 1%-ni, qırğızlar 1%-ni təşkil edirlər. Ruslardan başqa, bütün əhali islam dininə etiqad edir.

## Toqo

Toqo (fransızca: République Togolaise) – Qərbi Afrikada dövlət. Ölkə qərbdən Qana, Şərqdən Benin, şimaldan Burkina-

Faso ilə həmsərhəddir. Cənubdan Qvineya körfəzinə çıxışı var. Paytaxtı Lome şəhəridir. Burada 1 milyona yaxın əhali yaşayır. Ölkənin ən iri siyasi, mədəni və iqtisadi mərkəzidir.

Toqoya əvvəlcə Portuqaliya, sonra Almaniya, daha sonra İngiltərə və Fransa yiyələnmişdir. Axırda ölkə Fransaya verilmişdir. 27 aprel 1960-cı ildə Toqonun müstəqilliyi elan edilmişdir. Dövlət şəklində təşəkkül etməyə macal tapmamış 1963-cü ildə, sonra isə 1967-ci ildə hərbi çevriliş baş vermiş, 1969-cu ildə Qnassingbe Eyadema hakimiyyəti ələ keçirmiş və 2005-ci ilə qədər prezident olmuşdur. Özündən sonra oğlu iş başına gəlmişdir.

Ölkənin adı yerli eve dilində “to” (su) və “qo” (liman) sözlərindən meydana gəlmişdir, su limanı deməkdir. Ərazisi 56785 km$^2$-dir. Dünyada 125-ci yeri tutur. Əhalisi 7,5 milyon nəfərdir. Dünyada 103-cü yerdədir. İllik artım sürəti 2,7 %-dir. Orta yaş həddi kişilərdə 58, qadınlarda 62 ildir. Savadlılıq müvafiq olaraq 75% və 47%-dir. Əhalinin 40%-i şəhərlərdə yaşayır.

Ölkənin etnik tərkibi mürəkkəbdir: Toqoda 45 tayfa var, onlardan ən böyükləri eve (40%) və temba (23%) tayfalarıdır. Dövlət dili fransız dilidir. Yerli dillər də işlədilir. Əhalinin 51%-i yerli inanclara etiqad edir, 29%-i xristian, 20%-i isə müsəlmandır. Xristianlar arasında katoliklər, metodistlər, adventistlər və başqaları var.

## Tunis

Tunis (ərəbcə: تونس), rəsmi adı Tunis Respublikası (ərəbcə: الجمهورية التونسية) – Şimali Afrikada dövlətdir.

Paytaxtı Tunis şəhəridir. Burada 1.200 min, şəhər ətrafı ilə birlikdə 4 milyon adam yaşayır. Tunis Məğribin ən kiçik ölkəsidir. Ərazisi 163610 km$^2$ təşkil edir ki, bu da dünyada

91-ci yer deməkdir. 2015-ci ilin statistikasına görə, ölkədə 11,1 milyon nəfər yaşayır, bu, dünya üzrə 79-cu yerdir. Son illərdə əhali artımı xeyli azalmışdır. 2010-cu ildə bu, bir qadına 1,71 uşaq təşkil etmişdir. Bu, ərəb ölkələri arasında ən aşağı göstəricidir.

Tunisin əhalisinin 97%-i ərəblərdir. Bərbərlər əhalinin 1%-ni təşkil edirlər. Onlar əsasən Cerba adasında, Matmata və Tatavin bölgələrində yaşayırlar. Ölkə əhalisinin 1,5%-i isə çərkəzlərdən ibarətdir. Onlar Misir məmlüklərinin törəmələri, bir qismi isə Şeyx Şamilin məğlubiyyətindən sonra Qafqazdan Osmanlı torpaqlarına köçmüş adamlardır. Dövlət dili ərəb dilidir. Əhalinin təxminən hamısı müsəlmandır.

## Türkmənistan

Türkmənistan – Orta Asiyada dövlət. Cənubda Əfqanıstan və İranla, şimalda Qazaxıstan və Özbəkistanla həmsərhəddir. Qərbdən Xəzər dənizi ilə əhatə olunur. Okeana çıxışı yoxdur.

Keçmiş sovet respublikalarından biri olan Türkmənistan 27 oktyabr 1991-ci ildə müstəqilliyini əldə etmişdir. 16 dekabr 1995-ci ildə isə bütün dünyaya daimi neytrallığını elan etmişdir. Bu münasibətlə BMT Baş Məclisi 50/80 nömrəli qətnamə qəbul etmişdir. Bu, BMT tarixində ilk belə qətnamədir. BMT-nin 185 üzvü onun qəbul edilməsinə səs vermişdir.

Türkmənistan üçün ən xarakterik heyvan atdır. Axaltəkə vadisində eyniadlı at cinsinin yetişdirilməsinin tarixi 4 min ildən çoxdur. O, saf qanlı ərəb atının və ingilis atının əcdadıdır. Alabay köpək növü isə bütün köpəklərin əcdadıdır. Türkmənistana xas olan başqa özəlliklər burada yetişən incə lifli pam-

bıq, nadir qaragül qoyunu və məşhur çərco yemişidir. Ölkədə onun 200 növü becərilir. Avqust ayında “yemiş günü” keçirilir.

Türkmənistanda əhalinin sosial müdafiəsi dövlətin ən mühüm siyasətidir. 1993-cü ildən əhaliyə elektrik enerjisi, təbii qaz, xörək duzu pulsuzdur. Aztəminatlı ailələrə maddi kömək edilir.

Türkmənistanın ərazisi 488100 km², əhalisi 5,3 milyon nəfərdir. Paytaxtı Aşqabadda 745 min adam yaşayır. Türkmənistanda kənd əhalisi 55%-lə üstünlük təşkil edir. 2012-ci ilin statistikasına görə, əhalinin 85,6%-ni türkmənlər, 5,8%-ni özbəklər, 5,1%-ni ruslar təşkil etmişlər. Ruslardan başqa, bütün əhali müsəlmandır.

**Türkiyə**

Türkiyə (türkcə: Türkiye), yaxud Türkiyə Respublikası (Türkiye Cumhuriyeti) − əsasən Cənub-qərbi Asiyada, qismən də Cənub-şərqi Asiyada (3% ərazisi, 20% əhalisi) yerləşən dövlət. Ərazisi 783562 km²-dir. 2016-cı ilin hesablamalarına görə, əhalisi 79,8 milyon nəfərdir. Türkiyə əhali sayına görə dünyada 18-ci, ərazisinə görə 37-ci yeri tutur. Şərqdən Gürcüstan, Ermənistan və Azərbaycanla, cənubdan İraq və Suriya ilə, qərbdən Yunanıstan və Bolqarıstanla həmsərhəddir. Mərmərə dənizi daxili dənizidir, Egey, Aralıq və Qara dənizə çıxışı var. Bosfor və Dardanel boğazlarına da nəzarət edən Türkiyənin paytaxtı Ankara şəhəridir.

29 oktyabr 1923-cü ildə respublika elan edilmişdir. Bir çox beynəlxalq qurumlara üzv olan Türkiyə, eyni zamanda İslam Əməkdaşlıq Təşkilatı, Türk Şurası, TürkSOY, TürkPA, İqtisadi Əməkdaşlıq Təşkilatı kimi qurumların da üzvüdür.

İqtisadi və hərbi qüdrəti ilə regional güc olaraq qəbul edilir. Türk ordusu NATO sistemində ikinci böyük qüvvədir.

Türkiyədə əhalinin 96,6%-i islam dininə etiqad edir. Qeyri-müsəlmanların sayı 2,5%-dir. Bunlar əsasən yunanlar, yəhudilər, ermənilər və başqa etnik qruplardır.

## Uqanda

Uqanda Respublikası (ingiliscə: Republic of Uganda, suaxili dilində: Jamhuri ya Uganda) – Şərqi Afrikada dövlət. Şimaldan Cənubi Sudan, qərbdən Konqo Demokratik Respublikası, cənubdan Tanzaniya və Ruanda, şərqdən Keniya ilə həmsərhəddir. Cənub-şərqində Viktoriya gölü yerləşir.

Ərazisi 236040 $km^2$-dir. Dünyada 81-ci yeri tutur. 2008-ci ilin hesablamalarına görə, əhalinin sayı 35 milyon nəfərlə dünyada 36-cı yerdədir. İllik artım sürəti 3,6%-la dünyada 2-ci yerdədir. Doğum statistikası hər qadında 6,73 uşaqla dünyada 2-ci yerdədir. Orta yaş həddi kişilərdə 52, qadınlarda 54 ildir. Savadlılıq dərəcəsi kişilərdə 76%, qadınlarda 57%-dir. Şəhər əhalisi 13%-dir. Əhalinin etnik tərkibinin 70%-ni bantu xalqları, 30%-ni isə nilot xalqları təşkil edir.

Uqandanın rəsmi dil ingilis dilidir. Uqanda və suaxili dilləri də geniş şəkildə işlədilir. 2002-ci ilin hesablamalarına görə, katoliklər əhalinin 42%-ni, protestantlar 42%-ni, müsəlmanlar 12%-ni, digər dinlər 5%-ni, ateistlər 1%-ni təşkil edirlər.

## Yəmən

Yəmən (ərəbcə: اليمن), rəsmi adı Yəmən Respublikası (ərəbcə: الجمهوريّة اليمنية) – Cənub-qərbi Asiyada dövlət.

Ərəbistan yarımadasının cənubunda yerləşir. Qırmızı dənizə və Ərəbistan dənizinə çıxışı var. Səudiyyə Ərəbistanı və Omanla həmsərhəddir.

2013-cü ilin rəqəmlərinə görə, ölkədə 27 milyon nəfərdən artıq əhali yaşayır. Ərazisi 527970 km$^2$-dir. Həm əhalisinə, həm də ərazisinə görə dünyada 49-cu yeri tutur. Yəmənin paytaxtı Səna şəhəridir, 2,6 milyon əhalisi var. Orta yaş həddi kişilərdə 61, qadınlarda 65 ildir. Savadlılıq isə müvafiq olaraq 70% və 30%-dir. 2008-ci ilin məlumatlarına görə, şəhər əhalisi 31%-dir.

Ötən əsrin 60-cı illərində monarxistlərlə respublikaçılar arasında, 1990-cı illərdə isə Şimali Yəmənlə Cənubi Yəmən arasında iki dəfə vətəndaş müharibəsi, 2011-ci ildə "ərəb baharı" çərçivəsində inqilab baş vermişdir. Böyük dağıntılar meydana gəlmiş, xalqa və iqtisadiyyata külli miqdarda zərər dəymişdir.

Yəməndə dövlət dili ərəb dilidir. Əhalinin 99%-i müsəlman, 1%-i xristiandır.

## Müşahidəçilər

### Bosniya və Hersoqovina

İslam Əməkdaşlıq Təşkilatının üzvləri ilə yanaşı, onun müşahidəçiləri də vardır. Bunlar əhalisinin bir qismi müsəlman olan, qonşu müsəlman dövlətləri və xalqları ilə yaxın mədəni, siyasi, iqtisadi əlaqələr quran dövlətlərdir. Belə dövlətlərdən biri olan Bosniya və Hersoqovina 1994-cü ildən İslam Əməkdaşlıq Təşkilatında müşahidəçi statusuna sahibdir.

### Mərkəzi Afrika Respublikası

Vətəndaşları arasında islam dininə etiqad edənlərin çox olduğu dövlətlərdən biri də Mərkəzi Afrika Respublikasıdır. Bu ölkə də İslam Əməkdaşlıq Təşkilatı ilə sıx əlaqələr qurmuş və 1996-cı ildə müşahidəçi statusu almışdır. Mərkəzi Afrika Respublikası İslam Əməkdaşlıq Təşkilatının bir çox tədbirlərinə dəstək vermişdir.

### Tayland

İslam Əməkdaşlıq Təşkilatı nəzdində müşahidəçi olan başqa bir dövlət Taylanddır. Bilindiyi kimi, bu ölkədə iri bir müsəlman icması vardır, lakin son dövrlərdə müsəlmanların öz dini adət-ənənələrini sərbəst şəkildə icra etmələri sahəsində bəzi çətinliklər yaranmışdır. Müşahidəçi statusu bu kimi

problemlərin həllində müsbət rol oynayır. Tailand 1998-ci ildən bəri İslam Əməkdaşlıq Təşkilatında müşahidəçidir.

## Rusiya

Rusiya Federasiyası 2005-ci ildən İslam Əməkdaşlıq Təşkilatında müşahidəçi kimi fəaliyyət göstərir. Qeyd edək ki, Rusiya Federasiyasında yaşayan müsəlmanların sayı bəzi islam ölkələrinin əhalisindən xeyli çoxdur. Hazırda bu ölkədə 25 milyon müsəlman yaşayır. Rusiya müsəlman xalqlarının milli və dini ənənələrinə böyük hörmətlə yanaşır.

## Şimali Kipr Türk Respublikası

Əhalisi bütünlüklə müsəlman olan Şimali Kipr Türk Respublikasının İslam Əməkdaşlıq Təşkilatına üzv deyil, müşahidəçi olması sırf siyasi səbəblərlə bağlıdır. Hələlik, əməkdaşlığın bu forması hər iki tərəf üçün məqbuldur. Gələcəkdə müvafiq şərait yarandıqda münasibətlərin başqa keyfiyyət qazanması nəzərdən keçirilə bilər.

# İslam coğrafiyasında oyunlar

İslam coğrafiyası dedikdə onlarla ölkə və vilayət nəzərdə tutulur. Çoxrəngli, çoxmillətli, çoxirqli bu coğrafiya inanc və mədəniyyətləri ilə bir-birinə sıx bağlıdır. Əsasən Şimali Afrika, Mərkəzi Asiya, Şərqi Avropa islam coğrafiyasının xəritəsini əhatə edir. Dini dövlətlərlə yanaşı, dünyəvi dövlət quruluşuna sahibdir, ancaq əhalisinin əksəriyyətinin müsəlman olduğu ölkələr də islam coğrafiyasında təmsil olunur.

Bu gün 58 müsəlman ölkəsini (əhalisinin bir qismi müsəlman olan ölkələr də daxil olmaqla) birləşdirən ən nüfuzlu beynəlxalq təşkilat 1969-cu ildə yaradılmış İslam Əməkdaşlıq Təşkilatıdır (İƏT). Təşkilat 2011-ci ilə qədər İslam Konfransı Təşkilatı adlanmışdır. İslam Əməkdaşlıq Təşkilatına üzv olan ölkələrdən idmançıların iştirak etdiyi İslam Həmrəyliyi Oyunları dörd ildən bir keçirilən beynəlxalq idman tədbiridir.

Oyun sözü “vaxt keçirməyə yarayan, özünəməxsus qaydaları olan əyləncə; təəccüb oyandıran hünər; musiqinin müşayiəti ilə edilən hərəkətlərin tamamı; təmsil, pyes; fiziki gücü və zəkanı inkişaf etdirmək mədsədi ilə aparılan yarışma; fırıldaq” kimi mənaları ifadə edir. Ərəb dilində “ləab və laib” oyun sözünə yaxın məna daşıyır. Oyun sözünü “insanı məşğul edən, ona başqa işləri unutduran məşğuliyyət” mənasındakı “ləhv zə ləab” əvəzində istifadə edilməklə yanaşı, daha geniş mənaları da vardır. Qurani-Kərimdə iyirmi ayədə “ləab” və ondan yaranmış sözlər keçir.

Musiqinin müşayiəti ilə oyun (rəqs) qədim ənənədir. Ərəb mədəniyyətində simli və nəfəsli çalğılar məlum olmuş və eyni zamanda dəf daha geniş istifadə edilmişdir. Ərəblər

toy və bayramlarda dəf çalıb oynayardılar. Musiqinin müşayiəti ilə oynanan rəqslərdən başqa, onların qılınc, qalxan və mizraqla ifa etdikləri ritmik hərəkətlərdən ibarət "qals" və ya "dirqalə" dedikləri milli oyunları vardır.

Rəvayətə görə, həbəşistanlı, ya da sudanlı bir qrup bayram günü Mədinə məscidinin torpaq döşəməsində qalxan və qısa mizraqlarla oyun oynamış, Həzrəti Məhəmməd və Həzrəti Ayişə onları seyr etmişdir. Yenə bəzi rəvayətlərdən ərəb cəmiyyətində şənlik, toy və bayramlarda oynayan və bunu özünə peşə seçən insanların olduğunu başa düşürük. Məsələn, oğlanlarının sünnət şənliyinə İbn Abbasın iştirakçıları əyləndirmək üçün oyunçular dəvət etdiyi və onlara pul ödədiyi rəvayət edilir.

Həzrəti Ömər xəlifəliyi dövründə Suriyaya səfər edərkən onu oyunlu səhnələrlə qarşılamışdılar. İslam coğrafiyasının bir çox yerində bayramlarda, toylarda, mühüm qonaqları qarşılayarkən oynanılan bu oyunların bir müddət sonra ciddi maraq doğurduğu məlum olur.

Zamanın süzgəcindən keçmiş və hər xalqın öz milli-estetik duyğularından qidalanmış xalq oyunları cilalanaraq yaşamaq hüququ qazanmışdır. İslam Həmrəyliyi Oyunları ərəfəsində biz də islam coğrafiyası boyunca xalq həyatının bütün sahələrini əhatə edən milli oyunlar haqqında araşdırmalar apardıq. Çox zəngin, rəngarəng mədəniyyətləri özündə birləşdirən islam coğrafiyasından topladığımız oyunları iki hissəyə bölərək tədqiqata cəlb etdik:

- Xalq oyunları
- Ənənəvi idman oyunları

Xalq oyunlarının tərkibində islam coğrafiyasında oynanılmış və bəzilərinin hələ də oynanıldığı ənənəvi meydan tamaşaları, xalq teatrı, mərasim tamaşaları təqdim olunmuşdur.

## Xalq oyunları

Xalq tamaşaları, xalq teatrı ənənələri çox qədim tarixə malikdir. Hər tamaşa da öz yarandığı dövrün və eyni zamanda onu yaradan xalqın səciyyəvi xüsusiyyətlərini əks etdirir. İslam ölkələrində ənənəvi meydan tamaşaları və ya başqa adı ilə küçə oyunları üç müxtəlif qrup tərəfindən oynanılırdı:

- Məzhəkəçilər
- Məddahlar
- Kukla-kölgə oyunçuları

Çox geniş tamaşaçı kütləsi olan bu oyunlarda insan və heyvan təqlidləri əsas mövzulardan biri idi. Oyunlar müəyyən bir xarakter ətrafında cərəyan edir, tamaşaçılar bu obrazları standart geyim və hərəkətlərindən, nəğmə və rəqslərindən tanıyardılar. Əslində hazır oyun yox idi, sadəcə, hadisələrin və hərəkətlərin tənzimləndiyi bəsit ssenarilər var idi. Məzhəkəçi, məddah və kukla oyunçuları bir çoxu qafiyəli sözlərdən ibarət müəyyən misralar əzbərləyirdi. Öz dövrlərindəki gündəlik həyatın və dilin rəngarəng ifadələri ilə bu mətnləri zənginləşdirirdilər. Bu oyunlar üçün xüsusi yer ayrılmırdı. Səhnələr milli və dini bayramlar zamanı meydanlarda, festival yerlərində, karvansara həyətlərində qurulurdu.

**Məzhəkəçilər** – Meydan tamaşalarında məzhəkəli oyunların xüsusi yeri vardır. Milli və dini bayramları, şənlikləri həmçinin küçə oyunlarını məzhəkələrdən ayrı təsəvvür etmək mümkün deyildi. Məzhəkə sözünün mənası ərəbcə gülməli oyun, söhbət, əhvalat, lətifə deməkdir. Yəni məzhəkələrdə hadisələr gülməcə şəklində gülməli obrazlarla oynanılır. Gülən və güldürən, yəni tamaşaçı və oyunçu, bədahətən de-

yilmiş ifadələr, replikalarla bir-birinə qarışır. Xalq oyun ənənələrinin dərin qatlarını qoruyub saxlayan məzhəkə, gülüş zaman keçdikcə məişətdə olan nöqsanlara qarşı müxtəlif tamaşalarda da özünü göstərmişdir.

**Məddahlar** – Məddahlıq haqqında tək aktyorlu teatr da deyə bilərik. Məddah teatrın bütün üzvlərini varlığında birləşdirən bir oyunçudur.

Ərəb, fars və türkdilli ölkələrdə qədimdən bəri məddahlar (nağılçılar) xalqı əyləndirən sənətkarlar idilər. Bu usta sənətkarlar hər hansı bir rəvayəti danışdıqları zaman rola girir, təqlid və üz ifadələri ilə söhbətlərini daha da anlaşılan edirdilər. Bəzən bu nəql olunan rəvayətlər o qədər həqiqətə uyğun və təbii səslənirdi ki, dinləyicilər arasında böyük əks-səda doğururdu.

Müsəlman coğrafiyasına səpələnmiş məddahlar repertuarına görə bir çox qrupa ayrılır. Bunlar populyar eşq hekayələri, milli dastanlar, tarixi hadisələr, tamamilə uydurma əhvalatlar, dini rəvayətlər və s. danışa bilirdilər.

İranda məddahlar ixtisaslaşmışdı, məsələn, "Şahnamə"-ni oxuyanlara naqqal deyilirdi. Rövzəxana məddahları isə Hüseynin Kərbəladakı şəhadətini danışırdı.

Tunisdə məddahlara fidaivi deyilirdi. Burada rəvayət olunan hadisələri bəzən musiqi müşayiət edirdi.

Səmərqənddə iki növ nağılçı var idi. Biri ayaq üstə komik və didaktik rəvayətlər nəql edən məddah, o biri isə oturduğu yerdə iki telli udla mənzum hekayələr nəql edən risaləçi.

Misirdə üç növ nağılçı var idi. Şüəra, yəni şairlər: bunlar musiqi aləti (uda bənzər qədim simli alət) ifa edirdilər. İkinci qrup nağılçı mənası verən mühəddisinlər "Zahirin həyatı" əsərini nəql edirdi, üçüncü qrup isə "Əntərə" dastanı üzrə nağılçılar idi.

Türklərdə bu məddahlarla yanaşı, aşıq-ozanlar da meydanlarda, bayramlarda səhnə alaraq qədim dastanları rəvayət edir, şeir mətnlərini sazın müşayiəti ilə oxuyurdular. Anadoluda hələ də fəaliyyətlərini davam etdirən aşıq-ozanlar türk dünyasında eyni funksiyanı yerinə yetirsələr də, fərqli adlarla tanınırlar. Məsələn, qırğızlarda "Manas" dastanı üzərində ixtisaslaşmış sənətkarlara manasçı və ya jomukçu deyilir. Bu sənətkarlar Qırğızıstanda yırçı, Qazaxıstanda akın, Özbəkistanda baxşı və s. adlanır.

**Kukla-kölgə oyunçuları** – Dünyada kölgə oyunlarının İndoneziyada yarandığını və ya Hindistan mənşəli, yaxud da Çindən çıxmış olduğunu irəli sürürlər. Bu oyunun Qərbə Asiyadan gəldiyi fikri də hakimdir. Kukla-kölgə oyununun XIII əsrdə yarandığı, bəzən də bu oyunların tarixinin daha qədim olduğu və X əsrdən əvvələ gedib çıxdığı bildirilir.

Kukla-kölgə oyunu səhnəyə belə qoyulurdu: şəhər meydanında və yaxud saraya yaxın olan ərazidə, çox da hündür olmayan yerdə səhnə qurulurdu. Bu səhnə ağ parçadan ibarət idi. Səhnənin arxasında güclü çıraq yandırılırdı. Pərdə ilə çıraq arasında kuklalar hərəkət edirdi. Tamaşaçılar isə bu səhnədə kuklaların kölgələrini izləyirdilər.

İslam coğrafiyasında kukla-kölgə oyunu geniş yayılmışdı, hər bir islam ölkəsində isə bu oyun özünəməxsus şəkildə icra olunurdu. Məsələn, Misir kölgə teatr oyunları üçün ən əlverişli ölkələr arasında idi. Burada sabit süjet xətti ilə oynanılan kukla-kölgə oyununun çox sayda tamaşaçısı olurdu.

Ən məşhur kukla-kölgə oyunları "Köhnə dəniz fənəri" və "Şeyx Talehin oyunu"dur ki, bunlar da islam coğrafiyasında geniş yayılmışdır.

**Köhnə dəniz fənəri oyunu** – Bu oyunda müharibə səhnələri vardır, oyunçular arasındakı dialoqlarda da döyüşdən

bəhs edilir. Bütün oyun iki qəhrəman – əl-Haziq və ər-Rəhim arasında gedən qafiyəli dialoqdan ibarətdir. Əl-Haziq qorxaqdır, ər-Rəhim isə onu razı salaraq müharibəyə sürükləyir. Oyunda savaş gəmiləri, qılınclarla müharibələr təsvir olunur. Müharibələrdə ən mühüm əlamət İskəndəriyyə mayakıdır.

**Şeyx Talehin oyunu** – Bu oyun Şeyx Taleh və onun qulu olan qıza sui-qəsd ilə başlanır. O, hakimlərin başçısını aldatmaq üçün ona yaxınlaşır və hakim təyin olunur. Daha sonra Şeyx Taleh eyni hiyləni bir neçə yerdə edir, hiyləsi üzə çıxdıqdan sonra hər dəfə qaçır və yerini dəyişir. Oyunun sonunda sui-qəsd ifşa edilir və o, tövbə edərək əfv olunması üçün Məkkəyə gedir.

Ümumiyyətlə, Misirdə kukla-kölgə oyunlarının iki qəhrəmanı əl-Haziq və ər-Rəhim komik və dramatik rolların baş qəhrəmanıdırlar.

XIII və XV əsrlərdə Suriyada kölgə teatr əlamətləri olmasına baxmayaraq, Dəməşq, Hələb və sahil boyunca Türk Qaragöz teatrının təsiri nəticəsində bu sənətin əsas tərəqqi dövrü XIX əsrdə olmuşdur. Bu, əsasən tipik Qaragöz və Hacivat obrazıdır. Qaragöz insanların içində olan yaxşı və pis xarakterləri ilə təmsil olunur. O, tacir, fəhlə, bəzən də axmaqdır. Halbuki Hacivat pis niyyətlidir və o, zarafatı sevir.

Suriyalılar türk obrazları olan Qaragöz və Hacivatı və onların bəzi mövzularını mənimsəmişlər, lakin Levantda kölgə teatrının bir çox mövzuları gündəlik həyat problemlərindən götürülmüşdür. Suriya kölgə teatrının xüsusiyyətləri türk həmkarlarından fərqli olaraq, Suriya ənənələrini özündə əks etdirir. Camaatı özünə cəlb etmək üçün marionetlər bu ənənələri öz kölgə oyununda əks etdirirdilər, çünki bu dövrdə insanlar onlara daha çox inanırdılar. Bir çox kölgə oyunları

qəhrəmanları, xüsusən Qaragöz və müharibə fəsilləri Dəməşqin Azəm muzeyində saxlanılır.

Liviya və Fələstində kölgə teatrı coğrafi bağlılıq və sosial-siyasi birlik səbəbindən Suriya ənənələri ilə bağlı olmuşdur. Kölgə teatrı Beyrut, Saida və Tripolidə qəhvə dükanlarında göstərilirdi.

Əlcəzairdə oynanılan kölgə oyununu xüsusilə qeyd etmək lazımdır, çünki burada fransız işğalına etiraz kimi əsas qəhrəman Qaragöz göstərilmişdir. Qeyd edək ki, Əlcəzairdə də kölgə oyununun baş qəhrəmanı Qaragözdür.

Tunisə kölgə teatrı Türkiyədən sonra gəlmişdir. Qeyd edək ki, Tunis və Əlcəzair oyunları arasında oxşarlıq vardır. Burada eyni mövzunun müxtəlif versiyaları mövcuddur. Bütün Tunis oyunlarında Qaragöz, Hacı və Haciviz ayrılmaz kuklalardır. Bu kuklalar türk, Misir, Suriya və hətta Əlcəzairlə müqayisədə primitivdir.

Ümumiyyətlə, kukla-kölgə oyununun orta əsrlər ərəb şəhərinin inkişafında mühüm rolu vardır. Bu tamaşalar ərəb ölkələrində və Osmanlı istilasından sonra "Qaragöz" kimi türk dünyasında məşhurlaşmışdır.

Yaxın Şərq ölkələrində kukla teatrı çox inkişaf etməmişdir, çünki islam dini təsviri sənətlərə yaxşı baxmırdı. Şəkilli təmsillər, xüsusilə də üç ölçülü şəkillər qadağan edilmişdir. Baxmayaraq ki, Qurani-Kərimdə bu qadağanı dəstəkləyən heç bir ayə mövcud deyil, amma əsrlərlə bu, qüvvədə qalmışdır. İnsan surəti yaratmaq Allaha şərik qoşmaq kimi dəyərləndirilmişdir, ancaq Orta Asiyadakı islam coğrafiyasında islamiyyətdən əvvəl mövcud olmuş kukla teatrı öz ənənələrini davam etdirmişdir.

Burada bir çox kuklanın oynadıldığı 3 növ xalq teatrı mövcud idi. Eyni anda 2 kuklanın səhnə aldığı çadırda əl kuk-

ları, çadırsız əl kuklası. Bu tamaşalara çadır-camal, əlcək kimi ələ geyinilərək oynanılan kukla tamaşasına isə qol-qugürcək deyilirdi. Çadır səhnəni, camal isə gözəl üzü təmsil edirdi.

**Çadır-xəyal** – Çadır xəyal kuklaların iplərlə oynanıldığı ənənəvi özbək kukla oyununun adıdır. Çadır, dediyimiz kimi, səhnə mənasındadır. Xəyalın mənası isə daha genişdir. Burada fantaziya, təxəyyülün gücü və ya hiylə mənaları ilə yanaşı, eyni zamanda göstərilən tamaşanın mövzularına da işarə vurulur.

Əl kuklasının başqa bir növü olan zoçai dəsti daha çox Buxarada məşhur idi. Kukla oynadan uzun bir taxtın üzərinə uzanır, üzəri parça ilə örtülür, örtüyün altından əllərini çıxarıb əlcək kimi geyinilmiş kuklalarla səhnə nümayiş etdirirdi.

Kukla oyunu XII-XIV əsrlərdə Əfqanıstana Buxara və Səmərqənd məddahları tərəfindən gətirilmişdir. Bu oyunlar tərcüməsi kukla oyunu mənasına gələn butleybaz adlandırılırdı. Əfqanıstanda, xüsusilə Heratda parçadan hazırlanmış kuklalar bir ipə düzülür və ipin iki ucu iki masqara-təlxəyə verilirdi. Bu ipi oynatmaqla rahatca oyun idarə edilirdi. Bu zaman həmdəst/ oyunçu bir təbil və ya tütəyin müşayiəti ilə ipin ucunu anidən çəkir və oyun başlayırdı.

**Əlcək kuklalar** – Başqa bir kukla oyunu olan muqadi oyununda kukla ortası deşik bir taxta qaba qoyulur, bu deşikdən bir ip keçirilirdi. Kukla oynadanın barmaqlarını tamaşaçıdan gizlətmək üçün bu üsuldan istifadə edilirdi.

Heratın muqadları da əlcək kuklalarla oynanan bir səhnəcikdir. Əfqanıstanın kukla teatrı haqqında olan azsaylı rəvayətlərdən biri də burada yaxın zamanlara qədər butbazi deyə bir oyunun olduğunu göstərir. Qırğızıstan və Özbəkistanda da tak-təkə adlı bir oyunda personaj olan kukla təkə/keçidən istifadə olunurdu.

Bir başqa növ əlcək-kukla oyununa keçəl pəhləvan deyilir. Oyun adını əsas obraz olan keçəldən alır. İranda kukla oynadanlara verilən ümumi ad hibatbazdır. Oyunda iştirak edən kuklaların hamısını bu kukla oynadanlar hazırlayır və obraza görə geyindirirlər.

Orta Asiya kuklalarının bir bənzərini İranda görürük. Oyuna xəyal-şəbbazi kukla oyunu deyilir. Bu oyun Orta Asiyadakı çadır-xəyala bənzəyir. Səhnə zəmin səviyyəsindədir, oyunda 60 və ya 80 kukla istifadə olunur.

İranda humbazi və arusək deyilən daha kiçik kukla növlərinin iştirak etdiyi oyunlar da vardır. Burada dini oyun olan lazivə oyununda istifadə olunmaq üçün nəhəng kuklalar da hazırlanır.

XVIII əsrdə Qahirədə kukla oyunları çox geniş yayılmışdı və şəhərin bütün küçələrində oyun çadırlarına rast gəlmək mümkün idi. Kukla oynadan çadırın içində yerdən oturur və barmaqları ilə kuklaları oynadırdı. Beləliklə, onların yalnız beldən yuxarı hissəsi görünürdü.

Tunisdə kuklaların çubuq və ya iplə oynadılan bir növü vardır. Tədqiqatçılar bu oyunun mənşəyinin Sicilyadan gəldiyini ehtmal edirlər.

Kukla oyunlarının, islam coğrafiyasında XVIII əsr Qərb mədəniyyətinin təsirinə qədər xalq teatrlarının mühüm bir hissəsini təşkil etdiyini söyləyə bilərik. Kukla-kölgə oyununun Misirdən Türkiyəyə XVI əsrdə – 1517-ci ildə Osmanlı istilasından sonra gəldiyi bildirilir. İki ölçülü şəkillərin – kölgələrin pərdəyə düşməsindən ibarət olan kölgə oyunu Türkiyədə və eyni zamanda Osmanlı İmperiyasının hər yerində böyük şöhrətə malik idi. Kölgə oyunu ilə paralel kukla oyunu da böyük maraqla izlənilirdi. Türkiyədə, demək olar ki, kukla oyununun bütün növləri səhnələşdirilmişdir.

**Qaragöz oyunu** – Qaragöz oyunu xalq mədəniyyətinin ortaq məhsuludur. Bu oyunlardakı müxtəlif məzmunlu mətnlərin kimin tərəfindən yazıldığı məlum deyildir, lakin bu mətnlər sabit olmamış, sözləri hər sənətkar oyun əsnasında şəraitə uyğun olaraq dəyişdirmişdir. Qaragöz oyunlarının mətnləri XIX əsrdən etibarən yazıya alınmağa başlanılmışdır.

Meydan tamaşaları və ya xalq teatrı uzun əsrlər boyunca islam dünyasında xalqın əyləncə həyatında böyük rol oynamış, onların dünyaya estetik baxışlarını zənginləşdirmişdir.

**Qızıqcılıq** – Özbəkistanda xalq teatrı qızıqcılıq adı ilə bilinirdi. Bədahətən söz qoşan oyunçular çox məşhur idi. Müxtəlif sosial təbəqələrin şənliklərinə dəvət edilirdilər. Axşamlar çayxanalarda əskiyyə adlanan oyunlar oynanılırdı. Eşq, ölüm, cənazə, ehtimallar və s. kimi mövzuları əhatə edirdi.

**Sapsata** – Bir başqa komik oyun da gülüşünü söz və ifadə oyunbazlığından alan və dialoqları təlxəklərin tərzində olan sapsata adlı xalq oyunu idi. Bu oyun da iki qrupa bölünürdü: müqəllid və tənqid. Sadə quruluşda və improvizə olmasına baxmayaraq, oyunlarda ciddi xarakterlər işlənilirdi.

İranda oynanılan bədahətən deyilmiş ssenarisiz xalq tamaşaları yaxın dövrlərə qədər öz aktuallığını qorumuş və müxtəlif cür adlanmışdır: ruhavdi, taxtı-havdi, siyahbazi və s. İlk ikisi uzun taxtalarla hovuz, gölməçə üzərində oynanılır ki, daha sonra bu səhnə, teatr vəzifəsini ifa edir. Bundan başqa, qara maska taxmış oyunçuların oynadığı tamaşalar siyahbazi adlanmışdır. Bu tamaşa musiqi, rəqs, təqlid və dialoqlardan ibarətdir. Bu oyunda bir zənci uşaq, zəncinin sahibi hacı/tacir, arvadı və oğlu ilə yanaşı, kral da rol alırdı.

**Moqoladi** – Əfqanıstanda mübaliğəli, ənənəvi əyləncə olan moqoladi açıq havada oynanılan oyun növüdür. Ərəbcə mukalid sözündən gələn moqoladi "təqlid edən" deməkdir.

Bu oyunda dörd qrup ayrılır və hər qrupda fərqli rollar oynayan dörd oyunçu müəyyənləşirdi. Cərgənin önündə oyunun lideri təlxək gəlirdi. İkinci oyunçu həmdəst atmaca və dialoqlarda təlxəyə kömək edirdi. Üçüncü xarakter qadın obrazında çıxış edir və cərgələr arasında rəqs edirdi. Dördüncü oyunçu fahla isə müxtəlif rollar ifa edirdi.

**Masqarabaz** – Tacikistanda masqarabaz çoxcəhətli bir sənətkar idi. O, rəqs edir, musiqi alətlərində ifa edir, mahnı oxuyur, parodiya və təqlidlər edirdi. Masqarabazın oyunu 3-4 müstəqil bölümdən ibarət olardı, musiqili hissələrdə bəzən akrobatik hərəkətlər də nümayiş etdirilirdi. Qadın və kişi masqarabazlar mövcud idi. Onlar aktual mövzuları, sosial məsələləri, gündəlik hadisələri həcvlə və xüsusi bir üslubla nəql etməkdə mahir idilər.

**Xəyal (müxəyyilun)** – Orta əsrlər islam Ərəbistanında müasir teatr tamaşalarına çox bənzəyən tamaşalar və müasir aktyorlara bənzəyən tamaşaçı önündə rolunu ifa edərək çıxış edən sənətkarlar var idi. Səhnədə gəzişərək təqlid və təlxəklik etdiyi bu oyunlar xəyal (müxəyyilun) adlanırdı. Hekayə adlanan, oyunçunun üz ifadələri və əl-qol hərəkətləri ilə çıxışı müasir pantomimoya çox bənzəyirdi. Bu oyuna bəzən xəyal, ya da ləabə (səhnə və ya oyun) deyilirdi. Misirlilər muxəbbəzin deyilən komik və sadə satirik səhnələri bol olan tamaşaları çox sevirdilər.

**Mərgi-tamaşa** – Bu oyun Türkiyədə daha çox məşhur idi. Oyun tamaşaçılarla əhatələnmiş dəyirmi səhnədə oynanılır. Açıq bir sahədə oynanıldığı üçün oyuna mərgi-tamaşa (tamaşa çayırı) deyilir. Səhnənin yerləşdiyi 22 metrdən 15 metrə qədər olan sahə iplər və payalarla tamaşaçılardan ayrılırdı.

Mərgi-tamaşa sənətkarlarının hamısının başqa işləri də vardı. Onlar daha çox yay mövsümündə açıq havada oynayır, qış aylarında müxtəlif peşələrdə çalışırdılar.

Meydanlarda oynanılan başqa mövsümi mərasim tamaşaları da vardır. Mərasim tamaşaları meydan tamaşalarının tərkib hissəsidir. Onların əsas xüsusiyyəti təqvimin müəyyən günlərində olmasıdır. Buna əsasən milli və dini bayramları, ümumxalq matəm və faciə günlərini misal göstərmək olar. Bəzən isə tamaşa göstərmək üçün ənənəvi hal almış özəl günləri gözləyirlər. Bütün bunlar mərasim tamaşalarını daha da maraqlı edirdi.

**Folklorun milli festivalları** – İslamın təşəkkül tapdığı qədim mədəniyyət beşiyi olan Mərakeşdə nəinki ənənəvi oyunlar, hətta mənəvi mədəniyyət də çox zəngindir. Qədimdən bəri mövcud olmuş, lakin 1960-cı ildən başlayaraq rəsmən qeyd olunan milli folklor festivalları hər il may ayında Əl-Badi sarayında keçirilir. Bu nağılvari tamaşalar sarayın qədim divarları arasında açıq səma altında keçirilir. Ölkənin cənubundan "Göy insanlar" (paltarların ev üsulu ilə indiqoya boyadığına görə onların dərisi göyə çalırdı) sirli "qedra" rəqsini nümayiş etdirirlər, Orta Atlasın sakinləri "xandus" kimi yallı rəqsi ilə çıxış edir, Yuxarı Atlasının bərbərləri "avaş" mahnısını ifa edirlər.

Mərakeşin həyatında bayramların müstəsna rolu vardır. Ay təqvimi üzrə qeyd olunan müsəlman bayramları – Uraza (qurban bayramı), məhərrəm ayının birinci günü (ərəblərin yeni ili), Məhəmməd peyğəmbərin ad günü, ramazan ayının bitməsi böyük əhəmiyyət kəsb edir. Mərakeşlilər arasında meydan tamaşaları xüsusi yerə sahibdir. Bayramlar zamanı mahnı oxuyan qadınların müşayiəti ilə ağ paltarlar geyinmiş süvarilər at oynadaraq qiymətli daş-qaşla bəzədilmiş qədim

tüfənglərdən – muqqalardan atəş açırdılar. Mərakeşlilər öz milli musiqilərini ifa edir, tez-tez rəqslər dualarla əvəz olunur.

**Şəbeh tamaşaları –** Şiə müsəlmanlar tərəfindən hazırlanmış şəbehin vətəni İran hesab olunur. Buna baxmayaraq, şiələrin yaşadığı Hindistan, İndoneziya, Azərbaycan, İraq, Liviya və Türkiyədə də şəbeh tamaşalarına rast gəlinir. Şəbehin tarixi islam dininin tarixi ilə başlayır desək, səhv etmərik. İslam peyğəmbəri Həzrəti Məhəmmədin qızı Fatimə ilə evlənmiş peyğəmbərin əmisi oğlu Əli ibn Əbutalibi yeganə qanuni varis kimi xəlifə hesab edən şiələr həzrəti Əlinin qətlindən sonra onun Həsən və Hüseyn adlı övladlarının varislik iddialarını müdafiə etmişlər. Bu zaman həzrəti Əlinin böyük oğlu Həsən xəlifə elan edilsə də, qısa müddət sonra o bundan imtina etmiş və zəhərlənərək öldürülmüşdür.

Xilafətin paytaxtı Kufə şəhərinin çoxsaylı şiə sakinləri dəfələrlə İmam Hüseyni bu şəhərə dəvət etmiş və nəhayət, imam əhli-beyti daxil olmaqla 200 nəfər qohum-əqrəbasından ibarət dəstə ilə Mədinə şəhərini tərk edərək xəlifəliyi qəbul etmək üçün Kufəyə üz tutmuşdur. İmamın dəstəsi Kərbəla yaxınlığındakı səhrada Yəzid xəlifənin 4000 süvari ordusu tərəfindən mühasirəyə alınmışdır. Doqquz gün susuz, yeməksiz mühasirədə qaldıqdan sonra onuncu gün döyüşə girən 58 yaşlı İmam Hüseyn qeyri-bərabər savaşda 72 məsləkdaşı ilə birlikdə qətlə yetirilmişdir. Əsir alınmış qadınlar və uşaqlar Dəməşqə, Yezid xəlifənin hüzuruna gətirilmiş, lakin bir müddətdən sonra azad edilmişlər.

Bu faciə 680-ci ildə hicri təqvimi ilə məhərrəmin 10-cu günü baş vermişdir. Bütün şəbeh tamaşalarının əsası və məzmununu İmam Hüseynin bu tarixi faciə ilə bağlı aqibəti təşkil etmişdir. Bu tamaşalarda şiələr Kərbəlada baş vermiş faciələri

səhnələşdirərək, ağı deyərək taziyəni yad edirlər. Bu mərasimlərdə oxunan mətnə şəbehnamə və ya taziyənamə deyilir.

**Şir şəbehi** – Təbrizin qədim bazarı dünyanın gözəl, ənənəvi bazarlarından biridir. Bu bazar UNESCO tərəfindən universal tarixi abidə kimi tanınıb. Təbriz caamatı bütün il boyu öz dini ayinlərini bu bazarda keçirir. Şir şəbehi aşura günü nahardan sonra Təbriz bazarının mərkəzində Müzəffəriyyə timçəsi Dəvəçi məhəlləsində 300 il xidməti olmuş ərəb adlanan heyəti tərəfindən ifa olunur. Bu ayinin nahardan sonra ifa olunma səbəbi ona görədir ki, hadisənin düz zamanı ilə üst-üstə düşsün. Tarixi faktlara görə, İmam Hüseyn aşura günü nahar çağı şəhadətə çatmışdır.

Şir şəbehi tamaşası müqəddimə ilə başlayır. Öncə İmam Hüseynin səhabəsindən olan Hürr ibn Yəzidi Riyahi cildinə salınmış bir kişi xalqın çiynində kəcavə ilə gəlir və onun əhvalatına dair şeirlər və növhələr oxunur. Bu müqəddimədə xalq iki qrupa bölünür: bir hissə ağ və yaşıl paltarlarla İmam və onun dostlarını təmsil edir, digər qrup isə qırmızı rəngli paltarlarla Ömər Yəzid ibn Müaviyyənin qoşununu təmsil edir.

Kəcavəni ələ keçirmək üçün bu iki dəstənin arasında mübarizə gedir, sonra isə Şir şəbehi məşhur növhə oxumaqla başlayır. Şirin kəcavəsi gəldikdə xalqın hüznlü mərsiyəsi başlayır. Kəcavədə gələn şir özü də xalq ilə birlikdə ağlayır və növhə söyləyir. Şir əllərini matəm nişanəsi olaraq başına çırpır, xalqın başına saman sovurur. Şirin kəcavəsi xalqın arasından keçib Müzəffəriyyə cərgəsindən ötüb bayıra çıxır. Bu şəbeh İranın bir çox şəhərlərində də oynanılır, ancaq onun forması və hekayəsi Təbrizdəki "Şir şəbehi"ndən fərqlidir.

**Dorvoz (darvaz)** – Dorvoz yüksək kəndir üzərində pərsənglə çıxış edən kəndirbazdır. Kəndirbazların çıxışlarının tarixi kökləri çox qədim zamanlara gedib çıxır. O dövrlərdə

ən yaxşı kəndirbazlar çıxışları ilə öz xalqının incəsənətini nümayiş etdirən uzaq ölkələrə hərbi yürüşlərdə iştirak edən döyüşçülər idilər. Öz vətənlərində isə kəndirbazlar adətən yaz bayramı Quli-surx və dini bayram Ramazanda çıxış edirdilər. Meydan tamaşaları arasında hər zaman ən çox işləyici toplayan məhz dorvozdur. Kəndirbaz-akrobatlar nəinki pərsənglə tarazlıqlarını nümayiş etdirirdilər, hətta dəqiq hesab və mükəmməl fiziki hazırlıq tələb edən çoxqatlı tullanışları da yüksək kəndirdə yerinə yetirirdilər.

Kəndirbazların çıxışları Buxarada daha geniş vüsət almışdı. Bayramlarda idmanın bu növünün xeyli sayda həvəskarları meydanlara toplanırdı. Adətən belə çıxışlar dini dünyagörüşləri də nəzərə alınaraq ayrı-ayrı tacirlər tərəfindən təşkil olunurdu.

Özbək xalqının fiziki hazırlığının milli növü kimi kəndirbazlıq oyunu müasir dövrə qədər qorunub saxlanılmışdır. İndi kəndirbazların çıxışları əsasən Özbəkistanın mədəniyyət və istirahət parklarında və eləcə də dövlət sirklərində təşkil olunur.

## Ənənəvi idman oyunları

Bu yarımfəsildə islam coğrafiyasına səpələnmiş fərqli mədəniyyətə sahib xalqların ənənəvi idman növlərindən nümunələrə yer verilmişdir. Bu idman növləri hər xalqın özünəməxsus həyat tərzinin, məşğuliyyətinin məhsulu olmaqla bərabər, həm də onların yaşadığı iqlim şəraiti ilə də sıx bağlı idi. Xalqların fiziki və əqli inkişafına xidmət edən ənənəvi idman növləri onların həyatda qalması və mübarizə məqsədi daşıyırdı. Əhilləşdirilmiş heyvanlarla, xüsusilə atla olan ənənəvi idman növləri bu coğrafiyada əhəmiyyətli dərəcədə vacib idi.

İnsanlar yerinə yetirdikləri fiziki hərəkətləri və əmək vərdişləri üzrə sınaqlarını, döyüş və mübarizə növlərini, məsələn, güləş, qaçış, tullanma, ağırlıqqaldırma, üzgüçülük, avarçəkmə, oxatma, qılıncoynatma, nizə atmaq və sairəni ilk yaranan idman növləri kimi qəbul etmək olar.

Oyunlar milli olduğu qədər də ümumbəşəridir. Şifahi ənənəyə əsaslanan, həmin ənənə əsasında yaranan, yaşayan və nəsildən-nəsilə ötürülən oyunların ayrı-ayrı xalqlara məxsus özəllikləri olduğu kimi, ortaq dəyərləri də vardır. Hər xalq öz ibtidai mifoloji görüşlərinin məhsulu olaraq oyunlarını yaratmışdır.

Ərəb dilində idman sözünün qarşılığı olaraq istifadə edilən riyazə (riyazət) sözünün kökündə at, eşşək, dəvə və s. heyvanların balalarını təlim etmək, nəfsi tərbiyə etmək kimi mənalar mövcuddur. Heyvanları minmək, yarış və ya səfərə hazırlıq məqsədi ilə böyüdüb hazırlamaq; yeyib-içməyi azaldaraq orqanizmin canlı, güclü və sağlam olması üçün ardıcıl olaraq hərəkətlər icra etmək mənasına gələn riyazət idman sözünə görə daha geniş əhatəlidir.

Orta əsrlərdə islam coğrafiyasında Əxi təşkilatlarının nəzdində qurulan bəzi idman oyunları keçirilən təkkələrdə idman əxlaqı da tədris olunurdu. İdmanda hiylə və saxtakarlığa yol vermək qeyri-əxlaqi hesab olunur və xoş qarşılanmırdı. Ədalətli, dürüst oyunçu olmaq, sadəcə, əzələləri inkişaf etdirməklə deyil, nəzakət qaydalarına əməl etmək, qrup oyunlarında, yarışlarda rəqibə bilərək zərər yetirməmək, hakimi aldatmamaq da müsəlman idmançının əxlaq dəyərləri arasında idi. Oyun intizamı insana səbrli, fədakar olmağı, özünə nəzarət etməyi və bitərəfliliyi öyrədirdi.

Qurani-Kərimdə və hədislərdə bir çox idman növü ilə yanaşı, qaçış idmanı haqqında məlumatlar vardır. Bir hədisdə həzrəti peyğəmbərin həzrəti Ayişə ilə iki dəfə yarışdığı, birincidə həzrəti Ayişənin, ikincidə peyğəmbərin qalib gəldiyi qeyd olunur. Səhabələr də öz aralarında yarışardılar. Qurani-Kərimdə ata and içildiyi üçün atçılıq idmanı islam tarixində xüsusi yerə sahib olub və bu haqda çoxlu kitablar yazılmışdır. Peyğəmbərimiz şəxsən at yarışları təşkil etmiş və dəvə, at yarışları, eləcə də oxatma idmanı vaxtı qalib gələnləri mükafatlandırmışdır. Oxatma və atçılıq islam aləmində ən çox önəm verilən oyunlardan olmuşdur.

Hədis rəvayətlərində adı keçən digər idman sahəsi də güləşdir. Qaynaqlara görə, Məhəmməd peyğəmbər Rükanə bin Əbdü-Yezid ilə güləşmişdir. O dövrdə yenə ağırlıqqaldırma yarışlarının keçirildiyi də tarixi qaynaqlarda qeyd edilmişdir.

Ənənəvi olaraq qeyd olunan, 1960-cı ildən isə rəsmən hər ilin may ayında Mərakeşdə keçirilən folklorun milli festivallarında ən çox aşağıdakı idman oyunları nümayiş olunur:

- **Qaçış** – səyahətlər, cihad, qida axtarışı üçün məşqetmə forması idi. Dolayısı ilə qaçış xeyir işlər görməyə tə-

ləsmək kimi də nəzərdə tutulurdu, yəni qaçış həm mənəvi, həm də fiziki cəhətdən təkmilləşməyə yardım edirdi.

- **At çapma** – ərəblər at çapma sənəti ilə məşhurdurlar. Onlar uşaqlarına 8 yaşından ata minməyi öyrədirlər.
- **Oxatma** – bu oyun müsəlmanlığın ilk illərindən əhali arasında məşhur idi.
- **Daş atmaq** – bu oyunun qaydaları ərəb mənbələrində təsvir olunur.
- **Qılıncoynatma**
- **Döyüş, mübarizə** – döyüş hazırlığı taktikası öyrənmək məqsədi güdür.
- **Ağır atletika**
- **Hündürlüyə tullanma**
- **Üzgüçülük**

Adlarını çəkdiyimiz ənənəvi idman oyunları ərəb coğrafiyasında çox qədim dövrlərdən təkmilləşərək haqqında danışdığımız folklor festivalına qədər yol gəlmiş və burada yarışlarla qeyd olunmağa başlanmışdır.

İslam coğrafiyasının hər yerində olduğu kimi, Misirdə də ənənəvi idman oyunları həmişə rəvacda olmuşdur. Xüsusilə, orta əsrlərdə bu ölkədə idman oyunları çox inkişaf etmişdir. Bunun əsas səbəbi hakim və əmirlərin idman fəaliyyətinə maraq və qayğı göstərmələri idi. Buna görə də top oyunu, çovqan, kötük üstündə güləş (Misir milli güləşi), güləş, üzgüçülük və s. kimi müxtəlif idman oyunlarının geniş rəvac tapması heç də təəccüblü deyil.

Dövlət orqanları tərəfindən milli idman sahəsində inzibati və texniki nizamlama həyata keçirilirdi. Bu da dövlətin idmana daha çox qayğı göstərməsi, tələb olunan ləvazimatların gətirilməsi, bəzi idman növləri üçün meydançaların hazırlanması, məşqlərinin keçirilməsi vaxtının təyin edilməsi və s. digər təd-

birlərlə nəticələnirdi. Bundan əlavə, idmanın ayrı-ayrı növləri üzrə yarışlarda oyunçular arasında ruh yüksəkliyi yaratmaq məqsədilə qaliblər üçün mükafatlar və kuboklar hazırlanırdı.

Tarixi mənbələr bizə Misirdə idman yarışları haqqında dəyərli məlumatlar təqdim edir. Həmin dövrdə daha geniş yayılmış idman növləri bunlar idi:

- Top oyunu və çovqan;
- Güləş;
- Üzgüçülük.

Müsəlmanların müharibə və düşmən hücumunun qarşısını almağa hazırlaşmaları səbəbindən atçılıq idmanı islam cəmiyyətində, xüsusilə də Misirdə yüksək mövqe tutmuşdu. Bu oyunlar müharibə dövründən başqa, sülh zamanı da böyük rol əhəmiyyətə malik idi. İslam coğrafiyasının bir çox böyük şəhərlərində tez-tez atçılıq yarışları keçirilirdi. Sultanlardan tutmuş aşağı təbəqənin nümayəndələri belə bu yarışları izləmək üçün meydanlara gəlirdi.

Atçılıq yarışlarına aşağıdakı idman növləri daxil idi:

- At yarışları (cıdır),
- Oxatma yarışları,
- Qılıncoynatma yarışları,
- Nizəatma yarışları.

Çoxmillətli islam aləminin bir hissəsini təşkil edən türklərin tarixində də idman böyük əhəmiyyət daşımışdır. Türklərin Orta Asiyadan dünyanın müxtəlif yerlərinə yurd qurmaq üçün yayılması, daim müharibələr etməsi onlardan güclü və at çapmaqda məharətli olmağı tələb edirdi. Onlar rəqiblərinə qalib gəlmək üçün qüvvətli, cəld, sürətli olmaq məcburiyyətində idilər. Bu səbəblərə görə də qədim türklər daim idmanla məşğul olmuşlar. Ənənəvi idman növləri üzrə həmişə yarışlar təşkil olunmuş və bu idman oyunları böyük inkişaf yolu keç-

mişdir. Güləş, minicilik, qılıncoynatma, oxatma, piyada qaçışları, uzunluğa tullanma, ağırlıq qaldırma, gürz və əmud istifadə etmək, cıdır, cirit, çöğən, gökbörü, təpük, toxmaq, xizək, matraq və s. kimi idmanlar türklərin məşğul olduğu qədim idman növləridir.

Ərəb coğrafiyası müsəlmanları arasında əyləncəli, eyni zamanda aktiv oyunlar da ənənəvi idman oyunları hesab edilir. Bunlara hadi-badi, xuzruf, kum kum bamiyə, mütaşəqə və s. oyunlarını misal göstərmək olar. Bu oyunlar məişət şəraitində gənclər və qadınlar arasında daha çox oynanılır.

İslam coğrafiyasında qədim dövrlərdən mövcud olmuş, islamın yayılmasından sonra da mənimsənilmiş və oynanılmış, bəzilərinin hələ də xalq arasında oynanıldığı, yarışlarının keçirildiyi bəzi milli idman oyunları haqqında qısa məlumat veririk:

**Ağ-qara** – Bu oyun Misirdə Nil vadisində oynanılır. Oyunçular iki komandadan ibarət olaraq mübarizə aparırlar. İlk qrup "ağlar", ikinci qrup "qaralar" adlandırılır. İki cərgə olaraq düzülmüş oyunçuların arasına bir üzü qara, digər üzü ağ olan taxta bir lövhə qoyulur. Hər iki komandadan bir oyunçu o lövhənin başında qarşı-qarşıya dayanır. Sonra lövhə yuxarı qaldırılaraq yerə atılır. Taxta lövhə yerə hansı üzü üstə düşərsə, o rənglə adlanan komanda rəqib komandanın oyunçusunu əli ilə ona toxunana qədər qovmalıdır. Oyun komandanın üzvləri arasında cüt-cüt davam edir. Hər əllə toxunuş qovalayan komanda üçün bir xal sayılır. Oyun müəyyən müddət ərzində oynanılır və xalların hesablanması nəticəsində qalib komanda müəyyənləşdirilir.

**Aştapad** – İranda dama xarakterli stolüstü oyundur. Artıq VI-VII əsrlərdə qədim dünyanın zərlə əlaqədar oyunlarının əksəriyyəti unudulmuş, Şərq ölkələrində ancaq ikisi – şahma-

tın zərlə oynanılan növü və zəratma oyunları qalmışdır. Şahmat İranda geniş yayıldığından iranlılar həmin oyun ləvazimatı əsasında yeni oyun yaratmağı düşündülər. Beləliklə, aştapad ixtira edildi.

**Atçılıq və at yarışları** – Atı ilk əhlilləşdirən və ona təlim verən xalqlardan biri də türklərdir. Atçılıq idman növündən çox türklərin həyat tərzidir. At təlimi və at minmək türklər üçün bir sənətdir. Bu gün tətbiq olunan at təlimi fəndlərinin bir çoxu qədim türklərdən qalmışdır. Türklər at ilə bütünləşə bilən, atın bir parçası ola bilən və atı yormadan minə biləcək qədər usta minicilər idi. Onlar yəhərsiz ata minməkdə də çox mahir idilər.

Türklərin hər şəhərində at yarışı üçün bir sahə olurdu və hər cümə günü təşkil olunmuş yarışlarda onlar güclərini sınayırdılar. Türklərdə at yarışlarından həyat yoldaşı seçimində də istifadə olunmuşdur. Atlı qızlar bir qrup halında yarışa başlar və arxalarından atlarını qrup halında çapan oğlanlar içlərindən birini tutub atlarının tərkinə alardılar. Daha sonra seçdikləri bu qızlarla evlənərdilər. Əgər bir qızın istəyəni çox olardısa, qız yarışa tək olaraq başlayar, daha sonra arxasından oğlanlardan ibarət qrup atlarını çapardı. Qrupdan kim qızı tuta bilsə, o, qızla evlənmək haqqını əldə edərdi.

Ərəblər at yarışlarını hələ cahiliyyə dövründən keçirirdilər. Onlar bu yarışlarda mərc üçün pul qoyurdular. İslam dövründə ilk at yarışı hicrətin 6-cı ilində keçirilmişdi. Sonralar at yarışları xəlifələr üçün yalnız yarış xüsusiyyətindən çıxaraq, həm də əyləncəli oyunlara çevrildi. Əməvi xəlifələrinin sahib olduğu atların sayı dörd mindən çox idi.

At yarışları elə bir səviyyəyə çatmışdı ki, yarış keçirilən gün bayram kimi qeyd olunurdu. Bu yarışlarda mükafat və hədiyyələr paylanırdı. Yarış üçün seçilən atların əlamətləri

olmalı idi. Bu əlamətlərdən bəzisi bunlar: atın burnu nazik olmalı idi ki, suyu küpədən içə bilsin. Yanağında ət olmamalı, gözləri və badamcıq vəziləri böyük, bədəni enli, qulaqları, quyruğu və boynu uzun olmalı idi.

Yarış vaxtı startda kəndir bağlanılırdı və onun yanında bir nəfər dayanıb, işarə ilə yarışın başlanmasını bildirirdi. Atların qaçdığı məsafə müəyyən edilir və qaçış zolağı kərpiclə xətlənirdi. Xətlənmiş zolağa səkkizdən artıq at yerləşmirdi. Zolaqların sonunda yerə oxlar basdırılırdı. Bu oxlardan ardıcıllıqla yeddi qalib üçün mükafatlar asılırdı.

Belə yarışlarda aşağıdakı qaydalar var idi:

- Atla dəvənin eyni yarışda iştirak etməsi qadağan idi. Heyvanların dırnaqları startda bir xətt üzrə olmalı idi.
- Atlar eyni cinsdən olmalı idi.
- Yarışda müəyyən bir məsafə olmalı idi.
- At yarışında qələbə atın boynu ilə, dəvə yarışlarında isə qabaq ayağın dırnağı ilə müəyyən edilirdi. Əgər iki atın boynu finiş xəttini eyni vaxtda keçirdisə, qələbə heyvanın başı ilə ölçülürdü. Burada da eyni vəziyyət alınsa idi, mükafatın qiyməti iki qalib arasında bölünürdü.

Orta əsrlərdə Misirdə at yarışları ən əsas yarışlardan biri hesab edilirdi. İdmanın bu növü üçün xüsusi meydançalar salınırdı. Bəzən geniş meydançalarda atla sürətli dəvələr arasında da yarış keçirilirdi.

**Atlı oxçuluq** – Türklərdə oxatma və xüsusilə də atlı oxatmanın əhəmiyyəti çox böyükdür. Qədimdən bəri Altay və Tanrı dağları ətrafında ortaya çıxan, sonra da Mərkəzi Asiyaya yayılaraq daha da şöhrətlənən atlı oxatmaya böyük dəyər verilmişdir. Atlı oxatma dördnala çaparkən yəhər üstündə dönüb arxaya ox ataraq hədəfə dəqiq vurmaq ustalığının nümayişidir. Orta Asiyada dolanışıq və hərbi təlim məqsədi ilə edi-

lən ovçuluq atlı oxatmanın inkişafına yardım etmişdir. Döyüş, ov, idman kimi sahələrdən kənarda, sosial həyatda da oxatma əhəmiyyət kəsb etmişdir. Atlı oxçular at üzərində irəli, geri və yanlara ox atmaqda da mahir idilər.

Bu oyun, ümumiyyətlə, bütün islam ölkələrində yayılmışdı. Şam ölkələrində bu oyun əyləncə xarakteri daşıyırdı. Misirdə bu oyun, xüsusilə Məmlüklər dövründə məşhur idi. Oyunda halqa 20 metrlik bir sütunun yuxarısında yerləşdirilirdi. Süvarilər atların belində bu sütunun qarşısından müəyyən olunmuş məsafədən sürətlə keçərək oxu atırdılar. Ox halqanın ortasından keçib torpağa sancılmalı idi. Bəzi hallarda halqa top şəklində olurdu, onun üstü nazik qızıl saplarla tikilirdi. Topun içərisinə göyərçin qoyulurdu. Ox atan topu elə nişan almalı idi ki, göyərçin oradan sağ uçsun. Bu oyunda qalib gələn qızıl sapla tikilmiş topa sahib çıxırdı.

Oyunda aşağıdakı şərtlər var idi:

- Atı sürətlə çapma bacarığı;
- At belində sürətlə gedərkən ox atmaq bacarığı;
- Oyun keçirilən meydan atların dırnaqlarına uyğun olmalı idi, yəni atların dırnaqları torpağa batmasın deyə yumşaq olmamalı idi. Həmçinin meydan sürüşkən olmamalı idi.
- Yarışdan öncə oyunçu sütunun yanından atla keçməyi dəfələrlə məşq etməli idi.

Meydana gəldikdə, o, üç hissəyə bölünürdü. İlk iki hissə ilə üçüncü hissə arasında bir əlamət qoyulurdu.

Bundan başqa, atlı oxçuluğun daha bir növü orta əsrlər islam coğrafiyasında məşhur idi. Bu, xüsusi boru və ya lülədən oxatma idi. Ərəblər bu oyunu farslardan mənimsəmişdilər. Burada lülənin içərisinə ox yerləşdirilirdi və bu lüləni güclü üfürməklə atılırdı. Xəlifə Osman bin Əfvan zamanında bu silahdan atan bir dəstə təşkil olunmuşdu. Xəlifənin keçir-

diyi məclislərdə bunların iştirak etməsi adət olmuşdu. Onlar məclis zamanı səs salan qarğaları oxla vururdular.

Abbasilər dövründə atıcılar ərəblərdən olurdu. Onlar şəhərdən kənara çıxıb quş vurmaqla yarışırdılar. İslam dövründə bu oyun Şamda, İraqda, Misirdə və s. çox məşhur olmuşdu. Bu yarış bəzən piyada halda, bəzən də at belində həyata keçirilirdi. Müharibələrdə istifadə olunduğu üçün idmanın bu növünə böyük maraq var idi.

**Bəygə (babiqa)** – Bu oyun ilk dəfə qırğızlar tərəfindən oynanılmışdır. Gənc bir qızın çox istəyəni olduğu və qız tərəfinin qərarsız qaldığı zaman qıza seçmə şansının verilməsini təmin edən bir oyundur. Ata minən gənc qızı evlənmək istəyən oğlanlar müəyyən olunmuş məsafədən nişan qoyulmuş yerə doğru qovmağa başlayırlar. Məqsəd qızı atlarına mindirə bilməkdir. Əlində qamçı olan qız istəmədiyi oğlanı qamçısı ilə vuraraq yaxınlaşmağa qoymur və könlünün olduğu oğlanın atına minərək kimlə evlənmək istədiyini də ailəsinə bildirmiş olur. Gəlini atına mindirən oğlan da kürəkən kimi qəbul edilirdi.

**Bouzkaçi** – Əfqanıstanda oynanılan oyunlardan biri də Bouzkaçi oyunudur. Bu oyun da at üstündə oynanılan oyundur. 100-ə qədər atlı oyunçunun iştirakı ilə keçirilən bouzkaçi adı “bouz”, yəni “buzov”, “kaçi” sözü isə “qaçırtmaq” məfhumunu ifadə edir. Əfqanıstanın milli idman oyunu olan bouzkaçi xüsusilə Orta Asiyada bir çox bölgədə qədim dövrdən bəri oynanılır. Bouzkaçi oyunçularına yerli dildə çapandaz adı verilir.

Bu oyunda məqsəd oyunçunun, başı kəsilmiş və daxili orqanları boşaldılaraq tikilmiş bir oğlaq və ya buzovu, at üstündə daşıyaraq müəyyən bir məsafəni başa vurmasıdır. Bu oyun zamanı düzün ortasındakı bayrağın ətrafında əvvəlcədən təyin olunan sayda dairə çəkilir və hədəflənən nöqtəyə gətirilmiş buzov təhvil verilməklə qalib müəyyən edilir.

**Budhipal** – Bu oyun zər atılmaqla oynanılan stolüstü oyundur, lakin burada zərlər oyuna əvvəlcə kimin başlayacağını müəyyən etmək üçün atılır, oyunun özü isə zərsiz davam edirdi. İslam aləmində orta əsrlərdə çox məşhur olan oyun sonralar məlum olmayan səbəblərdən unudulmuşdur.

**Bukaçəkmə** − Bukaçəkmə qırğızlar arasında oynanılan qədim güc oyunudur. Oyunun qaydaları örkənçəkmə oyununda olduğu kimidir, onun başqa bir variantıdır da, deyə bilərik. Oyun iki oyunçu arasında oynanılır. Ortada çəkilmiş xəttin iki tərəfində oyunçular üzbəüz dayanır. Onlar örkəni boyunlarının arxası və qolların altından keçirərək özlərinə tərəf çəkirlər. Daha güclü rəqib örkəni çəkərək o biri oyunçunu xəttə tərəf dartır. Xətti ilk ayaqlayan oyunçu məğlub olur. Bu oyun adətən toylarda, şənliklərdə oynanılır.

**Cəbbinq** − Bu oyun ekstrimi sevənlərin ürəyincə olan müasir idman növüdür. Fiziki hazırlıq və cəldlik tələb edilən oyun gənclər arasında çox məşhurdur. Burada sürahidən sürüşmək üçün xüsusi oymaqlı idman ayaqqabılarından istifadə olunur.

**Cirit** − Türklərin ən qədim atlı oyunlarından biri də ciritdir. Burada 2 komanda qarşı-qarşıya gəlir. Komandalar 70 - 120 m-lik bir sahədə kənarlara beş, altı və ya yeddi oyunçu olaraq düzülürlər. Sağ əllərinə atacaqları ilk süngünü (cirit), digər əllərinə də ehtiyat süngülər və qamçı alırlar. Oyun bir oyunçunun rəqib atlılardan birinin qarşısına süngüsünü atmaqla başlayır. Süngü atılan oyunçu yerdən onu alır və atan oyunçu müəyyən məsafəyə çatmadan süngüsü ilə onun kürəyinə, çiyinlərinə, ya da atının sağrısına vurmağa cəhd edir. Bu alınmazsa, kənara düzülmüş rəqib oyunçulardan birinə sağ əlindəki süngünü atır, sonra geri dönür, atını öz cərgəsinə tərəf mahmızlayır. Rəqib komandanın oyunçusu sürətlə onu tə-

qib edir, əlindəki süngünü ona tərəf atır. Bu dəfə ilk oyunçunun çıxdığı cərgədən digər biri onu qarşılayır. İkinci cərgədən çıxan oyunçu öz yerini almaq üçün sürətlə geri qayıtmağa çalışır. Bu dəfə rəqibi onu qovur və süngüsünü atır.

**Cop** – Ənənəvi türk idman oyunudur. Cop budaqsız ağacdan düzəlmiş, təxminən 80 sm uzunluğunda iki ucu küt bir dəyənəkdir. 50-60 m məsafədən gələn atlı 3-4 m ara ilə basdırılmış iki dirəyə bağlanan gərilmiş ipin üstündən tullanmalı və oyunçu copu yerdən sürüşdürərək aşırtmlıdır. Copu ilk aşırdan qrup qalib gəlir.

**Çana (xizəksürmə)** – Orta Asiyadan Ural dağları və Xəzər dənizinin şimalından Avropaya keçən türklər xizəyi ilk icad və istifadə edənlərdən biridir. Öküz sümüklərindən hazırladıqları xizəklərlə qar və buz üstündə sürüşürdülər. Daha sonra taxtalardan hazırlanmış 15 sm enində və 160 sm uzunluğunda xizəklərlə qarda ova çıxırdılar. Bu da xizək idmanının tarixdəki ilk nümunələrindən hesab olunur.

**Çaturanqa** – Çaturanqa stolüstü oyundur. Bu oyunda zərdən istifadə edilirdi. Burada hər fiqurun nömrəsi var idi. Zərlərin verdiyi xalların sayına müvafiq gələn fiqur da hərəkət etdirilirdi. Orta Asiya və İran ərazilərində çaturanqada zər atmaq qaydası ləğv edilərək o, sırf zehni oyuna – müasir şahmatın təkamülündə ən mühüm mərhələ sayılan şətrənc oyununa çevrildi. Bununla belə, şətrənci bəzən əvvəlki kimi zərlə də oynayırlar.

**Çöğən (çukanyon-bandal)** – Ənənəvi türk atlı idman oyunudur. Dar bir sahədə at üstündə yer alan oyunçuların ucu əyilmiş və çöğən deyilən dəyənək ilə giy adlanan topu rəqib qapısına atmaq məqsədi daşıyan bir oyundur. Rəqibin atı ilə toqquşmamaq, onu vurmamaq və qarşısını kəsməmək oyunun qaydalarındandır. Qapıya atılan hər top bir xal qazandırır.

Müəyyən olunmuş vaxt ərzində oyun heç-heçə olarsa, öcəşmə deyilən üçüncü bir oyun oynanılır. Bu oyun bugünkü polo oyununun əcdadıdır.

**Daivapal** – Daivapal zərlə əlaqədar olan stolüstü oyundur. Şərqdə stolüstü zəka oyunları çox məşhur idi. Bunlardan ən qədimi daivapal adlı hind oyunudur. Zamanla bütün Şərqə yayılmış oyunu 64 xanalı lövhə üzərində hərəsinin səkkiz fiquru olan dörd nəfər zər atmaqla oynayırdı. Xalların sayına uyğun nömrələnmiş fiqur da hərəkət etdirilirdi.

**Dambə** – Nigeriyanın qədim döyüşü olan dambə oyununu hər kəsin oynamaq ixtiyarı yox idi. Bu kikboksa bənzər oyun növü ilə yalnız qəssablar məşğul ola bilərdilər, çünki o dövrdə heyvanları öldürməyə və dərisini soymağa yalnız onların ixtiyarı var idi. İlin müəyyən vaxtlarında qəssablar mal-qara toplamaq üçün qrup şəklində kəndlərə səyahət edir, heyvanları tutmaq məqsədi ilə yerli pəhləvanları da meydana çağıraraq müxtəlif əyləncəli oyunlar təşkil edirdilər. Oyunda icra olunan döyüşdən sonra cəngavərlər üzərlərindəki yaraqları çıxararaq tamaşaçılara minnətdarlıq əlaməti olaraq yemək hazırlamaq məqsədilə mal-heyvanı kəsirdilər.

Dambə oyununun məşqləri döyüşçülər və ovçular üçün sağ qalmaq uğrunda mübarizə məktəbi idi. Bu gün bu oyun Çad, Sudan, Nigeriya və Misirdə oynanılır. Oyunun tarixi köklərinin qədim Misirə gedib çıxdığı ehtimal edilir. Qədimdə bu oyunda döyüşdən əvvəl rəqiblər yumruqlarına parça sarıyır, onun üzərindən kəndirlə bağlayırdılar.

**Dəmir top** – Oyun Əlcəzairə məxsusdur. Əsasən ramazan gecələrində fərdi və ya qrup şəklində oynanılır. Oyunçular kiçik dəmir top (kürə) götürür və qarşıda qoyulmuş hədəflərə vururlar. Vurulan hər hədəf bir xal sayılır.

**Dəvə döyüşü** – İslam coğrafiyasında məşhur olan bu oyun növü kifayət qədər qəddar oyun növlərindən biridir. Xüsusi bəslənilmiş iki dəvə qarşı-qarşıya gətirilərək döyüşdürülür. Burada oyunun sonunda mütləq heyvanlardan biri ölməlidir. Türkiyədə oynanılan dəvə döyüşlərində isə dəvələrdən biri qaçanda və yaxud yıxılanda oyun sona çatır. Burada heyvanlara heç bir zərər dəymir. Oyunlar bəzən buğa ilə də keçirilir.

**Dəvə üzərindən tullanmaq** – Bu, Yəmən ərazisində yaşayan Zaranik tayfasının məşğul olduğu bir idman növüdür və bu gün də islam coğrafiyasında məşhur idman oyunlarından biridir. Oyunun iştirakçıları bacardıqları qədər çox sayda dəvənin üstündən tullanmalıdırlar.

**Doqquz korqol** – Doqquz korqol yaxud qırğızların dediyi kimi, "toquz korqool" dünyada mankala adı ilə tanınan oyunlar silsiləsinə daxildir. Mankala türk sözü olub min kala (min qala) sözündən meydana gəlmişdir. Monqolustanda eson korqool, Qazaxıstanda doqquz qumalaq adı ilə, Türkiyənin müxtəlif bölgələrində qala, altı ev, mənəli daş, evcik və s. adlandırılan doqquz korqol çobanların oynadığı çox qədim türk zəka oyunudur. "Korqool" keçi qığı deməkdir. Çobanlar daş əvəzinə bəzən qığdan istifadə etmişlər.

Oyun yerə qazılan və ya ağaca oyulan quyulardakı daşların bir-biri ilə yerdəyişməsi ilə oynanılır. İki cərgədə doqquz quyu və iki oyunçunun iki əsas xəzinəsi ilə cəmi 20 xəzinədən ibarət oyun taxtasında hər oyun quyusundakı doqquz daşın müəyyən bir strategiyaya bağlı olaraq saat istiqamətində quyulara qoyulması ilə davam edir. Nəticə olaraq hansı oyunçu daha çox korqol almışdırsa, o, qalib gəlir. Oyunda riyazi hesablamalar mühüm amildir.

**Döymə** – Zərlə oynanılan bu oyunun adı döymədir. Döymədə başlanğıc vəziyyətdə daşlar nərdtaxtanın səkkiz ye-

rində düzülür, oyunda daşlar bir-birini sıxışdırır, döyür, "öldürür". İmkan olduqda döyülən ("ölən") daş "dirilib" yenidən oyuna daxil olur. Oyunda ("döyüşdə") asan və çətin vəziyyətlər də olur ki, bunlar da döyüşün "dağlarda" və "düzənliklərdə" getməsi kimi göstərilmişdir. Bügünkü nərddə də döymə oyunu oynanılır.

**Əba güləşi** – Güləşçilərin əyinlərinə əba geyinib, bellərinə qurşaq bağlayaraq güləşdikləri idman növüdür. Hazırda bu güləş növünə yalnız Türkiyənin cənub vilayəti olan Hatay və Qaziantep bölgələrində rast gəlinir. Ancaq bu iki bölgənin əba güləşi qaydaları arasında fərq var. Birində güləş meydanının zəmini 30x30 metr ölçüsündə çayır (çəmən) və ya yumşaq dəniz qumu olmalıdır. Digəri isə gecə və əsasən bağlı salonlarda keçirilir. Əba güləşinin oyun müddəti 7 dəqiqədir. Güləş yerdə 2 dəqiqədən artıq davam edə bilməz. Oyunlar musiqinin müşayiəti ilə keçirilir.

**Ər güləşi** – Qədim qırğız döyüşü olan ər güləşi iki məşhur tayfa arasında həyata keçirilir. Bu tayfalar güləş üçün gətirdikləri igidlərin atlarını, geyimləri, zirehlərini hazırlayırlar. Taxtadan hazırlanmış mizraqlardan silah kimi istifadə olunur. İgidlərin döyüş vaxtı mizrağı rəqibin üz və boyun hissəsinə batırması qadağandır. Hər döyüşçünün yanında kömək üçün iki adam meydana çıxır. İgidlərin yanında bu tayfaların ağsaqqalları da ortaya çıxaraq döyüşü başladır. İgidlər bir-birlərinə doğru uzaq məsafədən atlarını çaparaq gəlir. Bir neçə mizraq qırılır, sonda biri mizrağını rəqibinə batıraraq onu atdan salır. Qalib gələn igidi sevinc hayqırışları ilə meydana gətirirlər, bəzən məğlub olanın döyüşdə öldüyü hallar da olur. İgidlərin mükafatı bir dəvə, doqquz atdır.

**Güləş** – Bu oyunda iki nəfər bir-birini tutaraq yerə yıxılanadək əlbəyaxa olurlar. Güləş Misirdə sultanların, əmir-

lərin və sadə camaatın sevimli idman növlərindən biri hesab edilirdi və idman oyunları arasında xüsusi yer tuturdu. Güləşi idmanla bərabər, bədən tərbiyəsi də adlandırmaq olar, çünki bu və eyni zamanda boks, ağırlıqqaldırma, qaçma kimi idman növlərində bədənin xeyli güc sərf etməsi tələb olunur. Güləş yalnız döşək üzərində olmurdu, həmçinin at belində olan güləş növü mövcud idi.

İslam ölkələrində insanlar əsrlər boyu güləşlə məşğul olmuşlar, ancaq X əsr güləşin qızıl əsri hesab olunur. Bu dövrdə güləşlə Bağdad və Qahirə şəhərlərində daha çox məşğul olurdular. Bu idman növü ordu başçıları və tamaşaçılar tərəfindən çox sevilirdi. O vaxtlar güləş yarışları aşağıdakı kimi keçirilirdi: meydanda halqa düzəlirdi, halqaların ətrafına quru ağaclar düzülürdü, ağaclara bahalı ipək paltarlar asılırdı. Ağacların altına dirhəm dolu kisələr qoyulurdu. Meydana müğənni və musiqiçilər yığılırdı. Meydanın qapısında təbil və zurna ilə insanlar dayanırdı. Sonra camaat meydana buraxılırdı. Ağacların üstündə olan paltar və altında olan kisələr yarışda qalib gələnə verilirdi.

İraqda güləş idmanı xüsusi yer tuturdu. Bağdadın hər yerində güləş üçün arenalar salınırdı. Qeyd olunmalıdır ki, o dövrdə güləş çox sərt idman növü idi. Onda heç bir qayda-qanun yox idi. Misirdə isə güləş, necə gəldi, qayda-qanunsuz, hakimlərsiz keçirilirdi. Bəlkə də, bu, iki səbəbdən irəli gəlirdi. Birincisi, bu dövrdə müsəlmanlar bütün qüvvələrini İslam dövlətinin qorunması üçün səfərbər etmişdilər, ikincisi, Misir camaatı idmanın bu növünü yunan və romalılarda görmüşdülər, orada olan zədə və sınıqlar haqqında eşidib-bilirdilər, buna görə də ona maraq göstərmirdilər.

**Xasət** – Bu oyun əsasən İran körfəzi (ərəb mənbələrində bu körfəz "Ərəb körfəzi" adlandırılır) ölkələrində oynanılır.

Oyunçular iki qrupa bölünürlər. Bir qrupun oyunçularından biri yerə uzanır və üstünü parça ilə örtərək gözlərini bağlayır. Yanında hakim və qrupun digər oyunçuları oturur. Rəqib komandanın üzvləri bir-bir sıra ilə uzanan oyunçunun yanından keçirlər. Yerdə uzanmış oyunçu əl atıb onlardan birinin ayağından yapışır və onu öz komandasının içərisinə çəkir. O, gözü bağlı halda əli ilə tutulmuş oyunçunun əzalarını yoxlayaraq kim olduğunu tapmağa çalışır. Əgər oyunçu rəqibin kim olduğunu taparsa, hakimin təsdiqindın sonra həmin oyunçu onun yerini alır. Əgər onun kim olduğunu düzgün təyin edə bilməzsə, onda hakim "xasət" (məğlubdur) deyə qışqırır. Bu vaxt qalib komanda məğlub komandaya dəyənəklərlə hücuma keçir və yoldaşlarını onların əlindən alır. Oyun komandalar arasında bu şəkildə davam edir.

**İcu oyunu** – İcu oyunu Əlcəzairdə oynanılan oyundur. Əsasən, gənc oğlanlar, bəzən də qızlar arasında oynanılır. Gecə ay işığında bir ağacın altında toplaşır və aralarından birini ilk oyunçu olaraq seçirlər. Seçilən oyunçu gözlərini yumaraq müəyyən rəqəmə qədər saymalıdır. Say bitəndə gizlənmiş oyunçuları axtarmağa başlayır. O, oyunçuları tək-tək tapdıqca onlara toxunduqdan sonra geri qaçıb ağaca da toxunmalıdır. Oyun bu şəkildə oyunçuların hamısı ilk oyunçu kimi oynayana qədər davam edir. Gənclər bu oyunu boş vaxtlarını dəyərləndirmək, əylənmək məqsədi ilə oynayırlar.

**Kərabi** – Bu oyun körfəz ölkələrində oynanılmışdır. Kişilər arasında oynanılan fərdi oyundur. Oyunçular açıq ərazidə toplaşırlar. Oyuna başlamaq üçün iştirakçıların say məhdudiyyəti yoxdur, iki oyunçunun olmağı kifayət edir. İki oyunçu qarşı-qarşıya gəlir, onlar bir ayağını havada saxlayır. Tək ayaq üstündə mübarizə apararaq bir-birini yıxmağa çalışırlar. Xallar fərdi hesablanır.

**Kokböri (yaşıl qurd) –** Ənənəvi türk idman oyunudur. Gəlinlə bəy arasında toy gecəsindən bir gün əvvəl gündüz vaxtı oynanılır. Qucağında oğlaq olan gəlin atı ilə qaçır və bəy at üstündə dostlarının köməyi ilə onu tutmağa çalışır.

**Kopkar ulaq –** Yerli ləhcədə ulaq qoyuna deyilir. Orta Asiya xalqlarının əslər boyunca oynadığı və bu gün də böyük rəğbətlə qarşılanan kopkar ulaq oyunu onlarla atlının toplaşaraq ortaya qoyulmuş başı kəsik qoyun, ya da keçini qaçırtmaq üçün yarışdığı oyuna deyilir. Xüsusi günlərdə, bayramlarda oynanılan kopkar ulaq oyununu son dövrlərdə texnologiyadan da istifadə edilərək əlində mikrofonu olan atlı hakim idarə edir.

Kopkar ulaq qaydaları az olan bir oyundur. Oyunda atların sayından asılı olaraq yardımçı hakimlər də iştirak edir. Onların vəzifəsi oyun vaxtı mərkəz hakiminin görə bilmədiyi qayda pozuntularında oyuna müdaxilə etməkdir. Kopkar ulaq oyununda istənilən qədər at iştirak edə bilər. Yerə və vəziyyətə görə oyun bəzən 100, bəzən 400 atlı ilə oynanılır.

Oyunun digər xüsusiyyəti isə ortaya qoyulan mükafatın getdikcə artırılmasıdır. Oyun ortaya qoyulan məbləğin büyüklüyünə görə daha da qızışır və həyəcanlı hala gəlir. Sonunda ulağı alan atlı atların arasından çətinliklə keçərək oradan uzaqlaşır. Oyun vaxtı rəqibləri arasında ulağı alaraq müəyyən bir məsafədə uzaqlaşan atlı oyunçu hakimin "halal" deməsi ilə ulağı yerə qoyur. Oyun ulağın bıraxıldığı yerdən təkrar başlayır. Atlı oyunçunun ulağı, sadəcə, yerindən alması ilə məsələ bitmir, onu oradan uzaqlaşdırması lazımdır. Ulağın yerdən götürülüb başqa bir yerə qoyulması yeni bir oyunun başlaması deməkdir.

**Kökbörü –** Kökbörü oyunu qırğızların milli oyunudur. Nəsildən-nəsilə miras verilmiş bu oyunu qırğızlarla yanaşı, başda qazaxlar və özbəklər olmaqla Asiyadakı bütün türk boyları oynamaqdadır. Kökbörü oyununun qaydaları əsasən

hər yerdə eynidir, amma bəzi bölgələrdə bir az fərqlənir. Cənubi Qırğızıstanda oğlaq çəkmə ilə yanaşı, bir yaşındakı buzov da çəkilir. Oyunda istifadə olunan buzovun ağırlığı 50-80 kq, oğlaq 15-30 kq, təkə 25-30 kq arasındadır. İssıq göl və Tenqri dağlarında isə dörd qış yaşamış olan təkə kəsilir. Qarnı yarılıb ayağı çıxarıldıqdan sonra təkrar tikilir və gecə ərzində soyuq suda saxlanılır. Sabah tezdən sudan çıxarılıb asılır. Günortaya qədər quruyan heyvan oyun vaxtı parçalara ayrılmaz və ayaqları qopmaz.

Çüy və Talas bölgəsində isə oyunda başı və ayaqları kəsilmiş və iki qış yaşamış təkədən istifadə olunur. Oğlaq əyilib qoyulmuş yerdən alınır və müəyyən bir məsafə getdikdən sonra yerə buraxılır. Atlı oyunçular dar sahədə üz- üzə atları üstündə dururlar. Sahənin mərkəzinə içi boşaldılmış oğlağın hakimin işarəsi ilə ayaqlarının arasında qaçırılması və müəyyən edilmiş sahəyə daşınması qaydasına əsaslanan bir oyundur.

Qırğızıstanın şimalında bu oyunu komanda şəklində oynamaq daha çox yayılmışdır. Oyunun məqsədi at üzərindəki məharətlərin inkişaf etdirilməsi və döyüşə hazırlıqdır.

**Kuşti** – Oyun Hindistan və Pakistanda ənənəvi güləş növüdür. Bu, sadəcə, idman deyil, eyni zamanda ruhu təmizləmə hərəkətidir. Hind güləşçiləri "guru" adlanan bir usta tərəfindən təlimləndirilir. Hətta onların qidalanması da xüsusi olur. Əsasən özlərinin hazırladığı çörək növü olan "çapatti" ilə birlikdə, süd, badam, yumurta və heyvan mənşəli yağlar ilə qidalanırlar.

Bu güləşçilərə siqaret çəkmək, spirtli içkilər içmək, cinsi əlaqə və s. qadağandır. Güləşçilər subay yaşayır, eyni zamanda dini təhsil alaraq məşqlərini davam etdirirlər.

İrandan Hindistana gəlmiş qədim güləş növü olan kuşti çoxəsrlik tarixə malikdir. Qeyd edək ki, Hindistanda icra edi-

lən kuştidə İran təsiri, ənənəsi də özünü göstərir. İranda güləşin müxtəlif növləri vardır ki, bunlardan da biri məhz kuştidir. Mazandaran əyalətinin 33 kəndində Luço kuşti adlandırılan güləş üzrə illik turnirlər təşkil edilir.

**Qaraqucaq güləşi** – Türklərin ən qədim milli güləşidir. Orta Asiyadan yayılmış bu güləş növündə görünüş və qaydalarda çox az dəyişiklik olmuşdur. On əsrdir əsas qaydaları, demək olar ki, olduğu kimi qalan qaraqucaq güləşi çəmənlikdə, xırman yerlərində torpaq üzərində oynanılır. Oyunçunun bədəninin üst hissəsi çılpaq və ayaqları yalın olmalıdır. Güləşçi aşağı hissəyə isə "pırpıt" deyilən qalın parçadan tikilmiş şalvar geyinməlidir. Bu güləşdə rəqibləri bir-birlərinə uyğun olaraq yaş, güc və ustalıqlarına görə təyin edirlər. Tarixdə bu güləşin daha çox hərbi təlim məqsədi ilə oynanıldığı bilinir.

**Qasinq (fırfıra)** – Əsasən küncləri dairəvi konus şəklində, iti ucu üzərində və şaquli bir ox ətrafında dönən oyuncaqla oynanılan oyundur. İş prinsipi və fiziki xüsusiyyətləri hiroskopa bənzəyir. Fırlanan fırfıraya yüngülcə vurularsa, maili şəkildə dairələr çəkməyə başlayır. Bir fırfıra maili halda fırladılırsa, qısa müddət sonra dik vəziyyətə gəlir və sürtünmə səbəbindən dayanana qədər fırlanır. Bəzi fırfıraları bir ip (qamçı) vasitəsilə çevirirlər. Qamçılı fırfıraların fırlanma müddəti qamçılamaqla uzadılır.

Bu oyun əsasən Malazya və İndoneziyada oynanılır. Malazyada olduğu kimi, İndoneziyada da hətta kəndlər arasında belə qasinq festivalı keçirilir.

**Qəfazə** – Daha çox ərəblər arasında məşhur olan bu oyun hündürlüyə tullanmadır. Burada oyunçular müəyyən hündürlükdə saxlanılan çubuğun üzərindən xüsusi qaydalara riayət edərək tullanırlar. Oyun komandalara bölünərək və ya fərdi şəkildə oynanıla bilər.

**Qılıncoynatma** – Qılınc süvari türklərin hamısının üstündə daşıdığı silahdır. Türklər hücum və müdafiə aləti olaraq istifadə etdikləri qılıncı müqəddəs hesab edir və ona and içirlər. Qılınc tamaşaları da oyun və mərasimlərin vazkeçilməz yarış və tamaşa növlərindən biridir. Uşaqlara kiçik yaşlarda taxta qılınclar ilə təlim etdirilir və onlar böyüdükcə ağırlaşan qılınclarla məşq edərək yarışırlar. Bu şəmşirbazlıq adlanan bir idman növünün, yəni bugünkü qılıncoynatmanın yaranmasına səbəb olmuşdur.

Türklərin gürzləri də məşhur idi. Bunlar kəndir və ya zəncir saplı olurdu. İdman üçün isə taxta və ya mərmər gürz istifadə olunurdu. Gürz sağ və sol əldə, müxtəlif istiqamətlərdə, müəyyən qaydalarla fırladılaraq, qaldırılıb-endirilərək istifadə olunurdu.

**Qız quu** – Qız quu (qız qualar) oyunu atla oynanılan qazax milli oyunudur. Bu oyun növü VII-VIII əsrlərdən bəri, demək olar ki, heç bir dəyişikliyə uğramadan eyni qaydalarla oynanılır. Yalnız qədimdə bu oyun yeni evlənən gənc ər-arvad tərəfindən icra olunurdu. Sonralar oyunçular dəyişdi, indi bu oyun evlənmək istəyən qızla oğlan arasında oynanılır.

**Qız quumay** – Köçəri həyat yaşayan qırğızlar ənənəvi oyunlara daha çox əhəmiyyət vermişdir. Qız quumay oyununda qızla oğlan at çapırdılar. Əgər oğlan qızı tutarsa, onunla həyatını birləşdirər. Milli ənənəyə görə, qədimdən bəri qız quumay oynayarkən oğlan qıza çatarsa, onunla evlənmək hüququ qazanardı.

Oyunun qaydalarına görə, qız minəcəyi atı özü seçir və oyuna 10-20 m irəlidən başlayar. Oğlan isə qızın ardından qovur. Oyun ən azı 1 km genişliyində bir sahədə keçirilir. Bu məsafə içində oğlan qızı qovub tutarsa, onu öpər. Oyunun məqsədi qızın ələ keçməməsidir, oğlan isə var gücü ilə onu

tutmağa can atır. Qızın zəfəri ilə nəticələnən oyunda evliliyi qəbul edib-etməməsi qızın razılığına bağlı olmuşdur.

**Qur'a və təxmin** – Qur'a və təxmin ümumən bilik yarışmalarına verilən addır. Uzun ramazan gecələrində məclislərdə toplaşan əhali ağsaqqalların verdiyi suallara cavab verirdi. Cavabı bilən şəxsə ağsaqqalın təyin etdiyi adam xələt verməli idi. Buna görə də məclisdəkilərin, demək olar ki, hamısı özü ilə hədiyyə gətirirdi. Beləliklə, bu məclislərdə həm bilik, həm də hədiyyə qazanılırdı. Elə bu da oyunun əsas məqsədi idi.

**Qurşaq güləşi** – Krım ləhcəsində "kürəş" deyilən bu güləş yarışları milli bayramlarda və toylarda keçirilir. Rumıniya və Türkiyədəki Krım tatarları arasında milli bayram olan Təprəş mərasimlərində ənənəyə uyğun olaraq nağara-zurnanın müşayiəti ilə yumşaq torpaq və ya yaşıl düzənlikdə qurşaq güləşləri həyata keçirilir. Yaşlarına və çəkilərinə görə üç boya ayrılan güləşçilər belə sarılan iki metr uzunluğundakı özəl toxunma qurşaqlardan tutaraq rəqibin iki çiynini yerə gətirmək üçün mübarizə aparırlar.

Kazan tatarları arasında da məşhur olan bu güləş yumşaq ayaqqabı və gündəlik geyimlə keçirilir. Adətən geyimlər kənarlarından tuta bilinəcək şəkildə qurşaqla bağlanır. Qurşağın qarın nahiyəsindən tutmaq qadağandır. Oyunçu qələbə qazanmaq üçün rəqibi kürəyi üstə yerə yıxmalı və özü də yıxılmalıdır. Bəzən qurşaq əvəzinə əl dəsmalından istifadə edirlər. Oyunçu dəsmalın hər iki ucundan tutur, rəqibi özünə tərəf çəkərək sıxır. Oyun 15 dəqiqə davam edir.

**Ləcdir** – Bu oyun şimal-şərqi Afrikada oynanılır. Güc tələb edən bu oyunda iki komanda arasında mübarizə aparılır. Oyun kiçik topla oynanılır. Səhrada qum üzərində əllə yeddi oyuq (kunə) açılır. Ortadakı oyuq bir qədər daha böyük olur və "ləcdir" adlanır. Komandalar topu bu oyuğa atmağa çalı-

şırlar. Növbə ilə top atılır, əgər top böyük oyuğa düşərsə, iki, kiçik oyuqlara düşərsə, bir xal qazanılır. Oyunda komandalar arasında xal hesabına görə qalib müəyyənləşdirilir.

**Mankala** – Mankala dünyada 225 adla bilinən və oynanılan stolüstü oyundur. Oyun texnikasına və istifadə olunan daşlara görə bir-birindən fərqlənir. Mankala və yaxud manqala müxtəlif variantlarda oynanılan bu oyuna verilmiş ümumi addır. Türkcədə bu oyuna köçürmə də deyilir. Orta Şərqdə də məşhur olan bu oyun Avropa qitəsinə türklər vasitəsi ilə keçmişdir.

Adətən üzərində müxtəlif sayda çuxurlar olan taxta lövhədə diyircək və ya daşlarla oynanılır. Oyunun çoxvariantlılığı qaydalarına da təsir etmişdir. Mankala hər iki tərəfdə altı və qala adlanan çuxurlarla oynanılır.

Ən rahat oynanıla bilən variantında 12 oyun çuxuruna üç-üç daş qoyulur. İlk oyunçu öz tərəfindəki 6 çuxurdan birini seçir və içindəki daşları saat istiqamətinin tərsinə cərgədəki çuxurlara bir-bir qoyaraq irəliləyir. Rəqib qalaya daş qoyulmaz və oyunçu öz qalasına qoyduğu hər daşı qazanır. Əgər son daşını öz qalasına qoysa, yenidən oynamaq şansı əldə edir. Son daş öz tərəfində olan boş oyun çuxurlarından birinə gələrsə, bu çuxurla üzbəüz rəqib çuxurundakı bütün daşları qazanır və son qoyduğu daşla bərabər, öz qalasına keçirir. Bir tərəfdəki bütün çuxurlar boşaldığı vaxt oyun bitir. Ən çox daş toplayan qalib gəlir.

Oyun çoxvariantlı olduğu üçün dəqiq bir qayda haqqında danışmaq mümkün deyil, amma türk mankala oyunlarında müqəddəs rəqəmlər və türk fəlsəfi fikrinin izləri mövcuddur. Oyunda doqquz çuxur ilə yeddi və ya doqquz daş olur. İlk daş öz qalasına və ya çuxuruna qoyulur ki, bu, ata ocağını təmsil edir.

Bu oyun ətrafda nə tapılarsa, onlarla oynanıla bildiyindən dünyanın ən qədim oyunlarından biri hesab edilir. Afrikada bu oyunu yerdə açdıqları çuxurların içində çay daşları ilə, qumda çəkdikləri halqalarda balıqqulağı ilə, ya da oyduqları taxtaların içində toxumlarla oynayırlar. Türklər heyvandarlıqla məşğul olduqları vaxtlarda bu oyunu keçi, qoyun, yaxud dəvələrin qurumuş qığı ilə oynayardılar. Qazaxıstan və Qırğızıstanda bu gün də oyun bu adlarla tanınmaqdadır.

**Matraq** – Süngü ilə oynanılan qədim döyüş oyunudur. Matraq süngüləri xüsusi olaraq hazırlanır, ucu dəri ilə örtülür, çölünə dəri sarılırdı. Qədim türk idman növü olan matraq Osmanlı dövründə yenidən dəb olmuş və sultanlar, əsgərlər tərəfindən tez-tez yarışmalar təşkil olunmuşdur. Övliya Çələbi "Səyahətnamə"sində matraq oyununun təxminən 160 texniki fəndinin olduğunu yazmışdır.

**Mizraq (hərbə-qarğı)** – Ənənəvi türk idman oyunudur. Oyun uzunluğu 1,5-2 m olan və ucunda metaldan hazırlanmış iti hissəsi olan, mizraq deyilən bir döyüş aləti ilə oynanılır. Başlıca məqsədi döyüşə hazırlıq olan mizraq oyunun əsas şərti üz-üzə mübarizə aparmaq, hədəfi sərrast vurmaq və mizrağı uzağa atmaqdır.

**Nayzə-bazi** – Bu oyun daha çox Pakistanda yayılmışdır. Oyun komandalar şəklində, əsasən kişilər tərəfindən at üstündə oynanılır. Oyunun məqsədi yerdə olan taxta parçasını nizə ilə götürüb təyin edilmiş hədəf nöqtəsinə çatdırmaqdır. "Nayzən" sözü "nizə", "bazi" sözü isə "oyun" mənasını verir. Bu oyunlarda milli paltarlarda 80 nəfərdən ibarət atlı iştirak edir. Oyunçular komandalar halında bir-birləri ilə yarışır. Komandalar dörd atlıdan ibarət 20 komanda şəklində qurulur. Hər bir komandanın ayrı rəngdə və formada paltarları olur.

Başlarına doladıqları “pagri” deyilən başlıqlarla yarışan idmançılar taxtanı nizəyə keçirmək üçün iki dəfə cəhd edirlər. Bu cəhd uğursuz alınarsa idmançı uduzur. Təxminən 200 metr uzunluğundakı meydanda yarışan idmançılar atın üstündə əllərində tutduqları nizə ilə yerdəki taxta parçasını götürməyə çalışır.

**Nevarteşir** – İran şahının vəziri Büzürgmehr 24 xanalı lövhə, 15 ağ, 15 qara daş və bir cüt qardanaqla (zərlə) oynanılan bir oyun ixtira edir, onu Sasanilərin qüdrətli şahı Ərdəşirin adına layiq nevarteşir oyunu adlandırır. Nevarteşirdə oyun lövhəsinin quruluşu (4x6=24), yəni dörd yer altı xanadır. Bu oyunda daşlar nərdtaxtanın səkkiz yerində düzülür, “döyüş” gah “düzənlikdə”, gah da “dağlarda” davam edir, daşlar bir-birini “sıxışdırır”, onlar “ölüb-dirilir”, döyüş tərəflərdən birinin qələbəsi ilə başa çatır.

**Nərd** – Nərd oyunu qədim Misirdə mövcud idi. Doğrudur, Misirdə zərlə əlaqədar oyunlar olmuşdur, lakin bunlar nərd deyildir, onların oyun lövhələri nərdtaxtadan kəskin surətdə fərqlənir, zərləri isə aşıq formasında yastı idi. IX-X əsrlərdə ərəblər şahmatla birlikdə nərdi də özləri ilə aparıb İspaniya və Aralıq dənizi adalarına çıxartdılar, XII-XIII əsrlərdə buradan da hər iki oyun Qərbi Avropaya yayıldı.

Belə bir fərziyyə də var ki, nərd oyununu İranda hökmranlıq etmiş Sasanilər sülaləsinin banisi I Ərdəşir ixtira etmişdir. Başqa bir məlumata görə isə nərd şahmatdan da qədim oyundur və İran şahının vəziri Büzürgmehr ona iki zər də əlavə etmişdir. Buradan da belə görünür ki, orta əsrlərdə nərdi dörd zərlə də oynamışlar.

**Niqaf** – Ərəblər niqaf adlandırdıqları bu oyunu qılıncla oynayırdılar. Ərəb atlı oyunları içərisində ən əhəmiyyətli idman növü qılıncoynatma və nizə batırma idi. İdmanın bu

növləri həm hərbçilər, həm də mülki əhali arasında yüksək mövqeyə malik idi. Bundan əlavə, qılıncoynatma əyləncə növü də sayılırdı. Müxtəlif silah növləri ərəblərdə müdafiə üçün ən zəruri vasitələrdən hesab edilirdi, lakin onlar silahı yalnız müharibə və müdafiədə istifadə etmirdilər. Silah rəqs və idmanda da istifadə olunurdu. Qılıncla rəqs etmək ərəblərin ən sevimli oyunlarıdır. Qılıncoynatma məşqləri həm at belində, həm də piyada halında keçirilirdi.

**Nizəatma** – Qırğızlar arasında çox yayılmış oyun açıq sahədə oynanılır. Əvvəlcə oyunçular oyunun qaydalarını danışıb razılaşırlar. Uzunluğu 15-20 m, eni 2-3 m olan dar bir keçid hazırlanır və bu keçidin sonunda yerə bir xətt çəkilir. Oyunda taxta nizələrdən istifadə olunur. Hər oyunçu, öz növbəsində, nizəsini alır və keçidlə qaçaraq bir az sürətlərini artırdıqdan sonra eninə çəkilmiş xətti tapdamadan nizəsini atır. Bu vaxt oyunçuların bir-birlərinə yaxın dayanması və keçid sahəsində durması qadağandır. Oyun iştirakçıların istədiyi qədər davam edə bilər. Nizəsini ən uzağa atan oyunçu qalib sayılır.

Oyunun baxan (çadır qurularkən tavanı qaldırmaq üçün istifadə olunan dirək) atma, uuq (çadırın tavanındakı uzun çubuqlar) atma, kürək atma və s. kimi başqa variantları da vardır.

**Oxatma** – Ox və kaman tarixdəki ilk mexanizmi olan silahlardır. Türklərin ox və kamana verdikləri önəmin ən gözəl örnəyi Oğuz xanın üç böyük oğlu olan Gün, Ay və Ulduzdan nəvəsi olan sağ qola Bozoxlar, Gök, Dağ və Dənizdən nəvəsi olan sol qola Üçoxlar adını verməsidir. Türklərin hər şöləninde və əyləncəsində yer alan oxatma və kaman gərmə yarışmalarını sabit və hərəkətli hədəflərə at üzərindən dayanaraq və ya gedərək ox atdıqları bilinir. Atlılar sürətlə gedən atın üzərindən hədəfə sərrast ox atardılar. Ox meydanında

qurulan məşhur kamankeşlər otağı XV və XVI əsrlərdə tayı-bərabəri olmayan usta idmançılar yetişdirmişdir.

**Örkənçəkmə** – Qədim türk oyunu olan örkənçəkmə bu gün ən çox qırğızlar arasında oynanılır. Meydanın ortasına bir xətt çəkilir. Xəttin hər iki tərəfində iki qrup olmaqla müəyyən sayda oyunçular üzbəüz düzülür. Hər iki qrupda oyunçuların sayı eyni olmalıdır. Hakimin işarəsi ilə oyun başlayır. Yerdəki örkəni bütün oyunçular tutur və eyni anda iki qrup da özünə tərəf çəkməyə hazırlaşır. Ən yaxındakı ilk oyunçunun xətti ayaqlaması ilə rəqib tərəf oyunun qalibi elan olunur. Güc nümayişi olan oyun bəzən iki oyunçu arasında da oynanılır.

**Rab** – Ərəblər arasında məşhur olan bu oyun ağır atletika növüdür. Oyunun qaydalarına görə, insanlar böyük, ağır çəkili daşları başları üzərinə qaldıraraq öz güclərini nümayiş etdirirdilər.

**Rəhvan (yorğa)** – Rəhvan atın "tək ayaq" qaçış şəklinə verilən addır. Atın eyni tərəfdəki ayaqlarının birlikdə hərəkət etdiyi və çapar sarsıtmayan hərəkət formasıdır. Atı rəhvan çapmaqda məqsəd çapar və təchizat yükünü ən uzun məsafəyə ən qısa müddətdə çatdırmaqdır. Bu zaman əsas şərt çaparı yormadan daha az enerji sərf etməkdir. Bu gün bütün çətinliklərə baxmayaraq, rəhvan atçılıq və yarışma ənənəsi yaşayır.

Anadoluda çox yayılmış məhəlli yarmarka əyləncələrində keçirilən yarışların da bu ənənənin yaşamasında böyük rolu olmuşdur. Bütün Türkiyədə rəhvan at yarışlarında yerli cins atlar iştirak edir.

**Samiduh** – Bu oyun Səudiyyə Ərəbistanının şiələr məskunlaşmış rayonu Qatifdə çox yayılmış bir oyundur. Samiduh oyununun digər adı "korun əsası" adlanır. Əsasən kişilər arasında oynanılsa da, bəzən bunu qızlar da oynayır. Oyunçulardan birinin gözləri bağlanır. Gözübağlı oyunçunun bir əlinə

əsa verilir. O, həm özünü yoldaşlarının maneələrindən qorumalı, həm də onları gizləndiyi yerlərdə axtarıb tapmalıdır. Oyunçu tapdığı digər iştirakçıları əsa ilə vurmalı, onları öz yerinə keçirməli idi. Növbə ilə "kor"ların yeri dəyişir və oyun davam edirdi.

**Sənəd** – Qədim Misirdə ən çox oynanılan oyun növlərindən biri olan sənədi sadə insanlardan tutmuş zəngin adamlara qədər hər kəs oynayırdı. Oyun lövhəsi qara ağacdan və fil sümüyündən düzəldilir. Oyunda istifadə olunan daşlar isə gildən düzəldilir, üzərinə rəngli mina çəkilir. Oyun 30 xanası olan dördkünc şəkilli 3x10 ölçülü lövhə üzərində oynanılır. Oyunun gedişini kiçik çubuqlar və ya sümüklər müəyyən edirdi. Bu oyunun 20 xanalı lövhə üzərində oynanılan forması da mövcuddur.

**Səyirtmə (qaçış)** – Qədim türklərin müxtəlif idman yarışlarına səyirtmə (qaçış) idman oyununu da əlavə edə bilərik. Səyirtmə Orta Asiyada ənənəvi idman növü olmuşdur. Qırğızlar uşaqların doğulması şərəfinə 265 km-lik bir məsafəyə (qadınların da iştirak etdiyi) ənənəvi qaçış təşkil edirdilər.

**Səyis** – Şimali Afrika tayfaları arasında atların üstündə keçirilən qədim hərbi oyundur. Nizə ilə silahlanmış və dəri, yaxud yaraq-əsləhə (qalxan-dəbilqə) geyinmiş iki atlı çaparaq döyüşdə bir-birini yəhərdən salmağa çalışırdı. Bu, yarışların ən təhlükəlilərindən biri idi və çox vaxt atlının şikəstliyi, hətta ölüm hadisələri ilə nəticələnirdi.

Səyis oyunu "Fantaziya" festivallarında oynanılır. Bu festival bölgənin müxtəlif yerlərində müntəzəm olaraq keçirilir. Bu, bərbər tayfalarının (bərbərlər Afrikanın şimalında Misirdən Atlantik okeanına qədər ərazidə VII əsrdə islam dinini qəbul etmiş yerli xalqların ümumi adıdır. Avropalılar onlara "bərbər" adını dillərini başa düşmədiklərinə görə veriblər.

Əsl adları isə amaziq, amaxaqdır ki, bu da ”azad kişi” mənasını verir.) atlı festivalıdır. Bu zaman çadır şəhərciyi salınır və onun ortasında tamaşa göstərilir. Ağ geyimdə – calabiyyədə onlarla bərbər barabanların sədaları altında at çaparaq döyüş halayları səsləndirir, əntiq tüfəng və qılınc oynadırlar.

**Sibaq-taqrav** – Üç oyunçudan ibarət iki komanda tərəfindən oynanılan və əldən başqa bədənin bütün hissələrinin və xüsusilə ayaq, diz, çiyin və başın istifadə edildiyi bir idman oyunudur. Top rəqib meydançasında yerə düşdüyü zaman xal qazanılır. Futbolla gimnastikanın birləşməsinə bənzəyən sibaq-taqrav dünyada geniş yayılmış bir idman növüdür.

İlk dəfə olaraq XV əsrdə oynanıldığı güman edilən oyun ən çox Tayland və Malazyada məşhurdur. Oyunun yarandığı ilkin dövrlərdə komandalar topun yerə dəyməsinə izin vermədən bir-birləri ilə oynayırlar. Sibaq-taqrav oyunu bugünün “hacky sack” oyununa bənzəyir. Sibaq Malazya dilində “vuruş”, taqrav da Tayland dilində “yumaq, top” mənasını verir.

Qədimdə sərt bir yumaq yaratmaq üçün əllə yoğrulan takrau topları bu gün çox sərt plastik və bambuq saplarından hazırlanır. Bu toplar təxminən 250 qram ağırlığında olur. Yarışlar 15 xal hesabı ilə üç hissədən ibarət oynanılır. Hesab 14-14 olarsa, iki xal fərq olana qədər müddət uzadılır. Hər iki komandanın 12 oyunçusu vardır, hər hissədə fərqli bir üçlük sahəyə çıxır. Torun yüksəkliyi kişilərdə 1,54 m, qadınlarda isə 1,45 m olaraq qəbul edilmişdir.

**Şalvar güləşi** – Daha çox Türkiyənin cənub bölgələrində oynanılan qədim güləş növüdür, adını yarış vaxtı geyinilən xüsusi geyimdən almışdır. Keçi yunundan hazırlanmış parçadan tikilmiş qısa şalvarın ağız hissəsinə keçə dəri tikilir. Bağı isə qalın hörmə ipdən hazırlanır. Qısa şalvar dizdən baldırın ortasına qədər olur. Güləşçilər bu şalvarlarla meydana çıxır. Qarın

və ya dizlər yerə dəyincə güləş ayaqla davam edir. Oyunçunun göbəyinin göy üzünü görməsi məğlub olması deməkdir.

**Şətrənc** – Burada oyun iki ağ və iki qara dəbbabə ilə oynanılır. Dəbbabə ərəb dilində divar sökən maşına işarədir, hərfi mənası tısbağa deməkdir. Ərəblərdə silah kimi istifadə edilən divar sökən maşın xarici görünüşünə görə tısbağaya oxşadığı üçün bu cür də adlanır. Təkcə dəbbabəyə görə güman etmək olur ki, bu, ərəb şətrəncidir. Oyunda 100 xana və dörd qala olur. Şahların və hökmdarların təhlükəsizliyini təmin etmək məqsədi ilə onlar bu qalalarda yerləşdirilir və buradan da hərbi əməliyyata nəzarət edirdilər. Şətrəncdəki qalalar bu istehkam-qalaların surətidir.

Şətrəncin müxtəlif formaları bir çox islam ölkələrində məlum olsa da, inkişaf edə bilmədi və nəhayət, öz yerlərini 64 xanalı şahmata verdilər ki, bu da şətrəncin klassik forması hesab edilir. Burada artıq şah şahla, vəzir də vəzir ilə üz-üzə dayanmışdır.

Şətrəncdə bir sıra oyun sistemlərinin yaranması xüsusilə qeyd edilməlidir. Oyunçular, primitiv də olsa, bu debütlərdən istifadə edib mübarizəni planlı şəkildə aparırdılar. Bu debütlərdən orta əsr şahmat ədəbiyyatında "mancanaq", "qılınc", "sel", "müdrik" adlanan oyun üsullarına rast gəlmək olur. Orta əsrlərdə də oyunçular daşların düzülüşünün qılınca bənzədiyindən ona şərti olaraq "qılınc" sistemli oyun adı vermişdilər. Bəzi oyunçular topları oyunun sonunda deyil, ortasında işə salırdılar ki, buna "mancanaq" üsulu deyilirdi. "Sel" və "müdrik" adlanan üsullar daha maraqlı idi. "Sel" adlanan oyun üsulunda daşlar başqa debütlərə nisbətən sürətlə taxtanın ortasına çıxarılırdı. Oyunun ortası üçün də müəyyən qaydalar meydana çıxırdı. "Müdrik" adlanan oyun sistemi məhz oyunun ortası üçün imkanlar yaradırdı. Burada oyunçular

tədricən xırda üstünlüklər əldə etməklə ümumi mövqe üstünlüyünə nail olur, oyunu öz xeyirlərinə qurtarırdılar.

Şətrənc fiqurları canlıların heykəllərini xatırlatdığından zaman keçdikcə ərəblər onun "Qurani Kərim" ruhuna zidd olduğunu gördülər və "canlıları ancaq Allah yarada bilər" deyə şahmatı qadağan etməyə başladılar. Bu zaman onlar islam dininin ruhuna zidd olmamaq üçün həmin fiqurların şəklini dəyişmək qərarına gəldilər. Şətrənc fiqurları insan (şah, vəzir, piyada) və heyvan (at, fil) şəkillərinə oxşamasın deyə, onların başlarını kəsib adi bir ağac parçasına çevirdilər. Beləliklə də, yeni ərəb şətrənc fiqurları meydana çıxdı.

**Tənqəlü** – Bu oyun qazax və qırğızlar tərəfindən oynanılır. Adı pul mənasında olan "təngə" sözü ilə əlaqəlidir. Pulun yerinə hər hansı kiçik əşya da istifadə etmək mümkündür. Komanda şəklində oynanıldıqda hər komandada üç atlı iştirak edir. Pulu və ya əşyanı götürmək komandaya xal qazandırır. Müəyyən müddət ərzində oynanılan oyunda xal hesabı ilə udan və uduzan komandalar bəlli olur.

**Təpük** – Ənənəvi türk idman növüdür. Bugünkü futbola çox bənzəyir. Təpük oyununda ip yumağı üstünə keçə sarıyaraq və ya keçilərin sidik torbaları şişirdilərək əldə edilən topdan istifadə edilir. Top dar sahədə, əllərdən başqa, bədənin digər üzvlərindən istifadə edərək qapıdan keçirilir. Təpük oyununu türklərin qədim zamanlardan oynadıqlarını tarixi qaynaqlar da təsdiqləyir.

**Tətyir** – Tətyir oyunu Şam diyarında çox yayılmış bir oyundur. Kişilər arasında fərdi olaraq oynanılır. 10-15 nəfər açıq bir ərazidə toplaşır. Oyunda bir hakim və bir nökər seçilir. Nökər taxtadan hazırlanmış girdə bir kürəni səmaya tullayır. Oyunçu da əlindəki çınqıl daşlarla hədəfi yerə salmağa çalışır. Hər vurulan hədəf bir xal sayılır. Hakim xalları hesablayır.

**Tımak –** Orta Asiyada oynanılan bu oyun Azərbaycanda oynanılan papaq oyununu xatırladır. Oyun iki komanda və ya iki oyunçu arasında keçirilir. Oyun zamanı iştirakçı müəyyən vaxt ərzində öz papağını başında saxlamağı bacarmalı, eyni zamanda rəqibin başından papağını götürməlidir. Bu oyun oyunçuda atı idarə etmək üçün cəld hərəkətlər formalaşdırır.

**Toxmaq –** Türklərin ən diqqət cəlb edən idman oyunu, şübhəsiz ki, toxmaqdır. Bu oyun bugünkü futbolun əcdadı olub. Orta Asiyada çox yayılmış bir oyundur. Türklərin öküz ödünü şişirdib ayaq topu oynadıqları, yaxud ata minərək dəyənəklə bu topa vurmaqla yarışlar keçirdikləri məlumdur. Toxmaq altı da üstü kimi dəridən hazırlanmış qısa boğazlı çəkmənin adıdır. Öküz ödündən hazırlanmış topla oynayan zaman bu çəkmə geyinildiyindən oyunun adı toxmaq olmuşdur.

**Top oyunu və çovqan –** Bu oyun qədim Misirdə məşhur oyunlardan biri olmuşdur. Burada top və aşağı hissəsi əyri olan çubuq istifadə edilir. İslam dövründə bu oyunu at belində oynayırdılar. Fironların dövründə topu halqa əvəz edirdi.

Çovqan oyununda olan bəzi qaydalar tarixi mənbələrdə qeyd olunmuşdur. Oyunçu topa gözlənilmədən zərbə vurmalı idi. Zərbə ehtiyatlı, tələsmədən olmalı idi. Oyunçu atın sürətlə qaçması üçün qamçıdan istifadə etməməli idi. Zərbə zamanı çubuqla torpağa toxunmamalı, çomağı sındırmamalı və yaxud atın ayaqlarına vurmamalı idi. Oyunçu meydanda onunla yarışan oyunçulara əziyyət verməməli idi. Atını saxlamaq istəyəndə yüyəni ehtiyatla çəkməli idi ki, heyvan sürətlə qaçdığı zaman zədə almasın. Mənbələrdən məlum olur ki, bu oyun islam fəthindən əvvəl Bizans dövründə də mövcud idi. İslam dövrü onun oyunu üslubu dəyişmişdi. Belə ki, tarixi mənbələr ilk müsəlmanlarda bu oyuna bənzər bir oyunun olmasını göstərir. Oyun midhat adlanırdı. Orada da aşağı hissəsi əyri

olan bir çubuq istifadə edilirdi, onunla taxta topu dəvəquşu yumurtası boyda quyuya salmağa çalışırdılar.

Göründüyü kimi, çovqan və midhat oyunları arasında oxşarlıq çoxdur. Çovqan oyunu digər islam ölkələrində də yayılmışdır. Bu ölkələrdən biri də İran olmuşdur. Bəzi tarixi mənbələrdə Siyavuş və Əfrasiyabın at belində bu oyunu oynadıqlarını göstərən təsvirlər mövcuddur. Başqa təsvirlərdə Ərdəşir Şapurun oğlunun bu oyunu izləməsi göstərilir. Bununla da, məşhur top və çovqan oyunlarının islam aləminin müxtəlif ölkələrində geniş yayıldığını deyə bilərik.

**Üzgüçülük** – Üzgüçülüyün istər sülh, istərsə də müharibə zamanı böyük rolu olmasına baxmayaraq, onun haqqında, demək olar ki, heç kim təfsilatı ilə yazmamışdır. İslamın sövq etdiyi işlərdən biri də üzməyi öyrənmək və öyrətməkdir. Müsəlmanlar fəth etdikləri bütün ölkələrdə çaylarda, dənizdə üzməklə məşğul olurdular. Onlar bunu gəmi ilə səfərə çıxan zaman suda batmaqdan özlərini qorumaq üçün edirdilər. Bundan əlavə, bu idmanla istirahət etmək, bəzən də güc və qüdrəti göstərmək üçün məşğul olurdular.

Üzgüçülük islam ölkələrində, xüsusilə də dənizə və okeana çıxışı olan, yaxud çayları olan ölkələrdə geniş yayılmışdır. Misirdə insanlar üzgüçülüklə sabit qaydalarla məşğul olurdular. Onlar bu qaydaları qəbirlər və ibadətgahların divarları üzərində təsvir edilən fironların üzgüçülüklə bağlı rəsmlərindən mənimsəmişdilər.

**Yağlı güləş** – Sərbəst güləşin bu növündə bədən saf zeytun yağı ilə yağlanır. Belə olduqda güləşçilərin bir-birini tutması çətinləşir və güc ön plana çıxır. Bu gün Türkiyədə çox məşhur olan güləşin bu növü uzun əsrlərdən əvvəl də mövcud olmuşdur. Qədim Misir və yunan əsgərlərinin bədənlərini yağlayaraq güləşdikləri məlum faktdır, ancaq türklər

bu güləş formasını ənənə halına gətirmişlər. Əsrlərdir toylarında, xüsusi mərasimlərində, zəfər və Novruz bayramı şənliklərində oyunçuların bədənləri yağlanaraq güləşmişlər. Yağlı güləş növü əsasən Türkiyənin Trakya bölgəsində və Balkan yarımadasında yayılmışdır.

Osmanlı İmperiyasında yaşlı pəhləvanların ustalıq etdiyi yağlı güləş təkkələri qurulmuş, müsabiqələr keçirilmişdir. Bu gün Ədirnədə keçirilən 650 illik keçmişə sahib olan ənənəvi Kırkpınar Yağlı Güləşləri bu idman növünün türk mədəni həyatının ayrılmaz hissəsi olduğunu göstərir. Güləş ilk zamanlarda güləşçilərdən biri qalib gələnə qədər – müddətsiz davam edirdi. Yeni qaydalara görə isə oyuna müddət və xal sistemi daxil edilmişdir.

**Yıxışma (güləş)** – Güləş sözü özbək və başqırdlarda olan "kurəs" sözündən yaranmışdır. Yaxın mübarizədə üstünlük qazanmaq üçün, sülh zamanı günlərlə davam edən güləş yarışları keçirilmiş, yeni güləş növləri icad edilmişdir. Güləşin dünyaya Orta Asiyadan yayıldığı da ehtimal olunur. Səlcuqilər dövründə dövlət tərəfindən tutulan qeydiyyat dəftərlərində də Konyada güləşçilər məhəlləsinin olduğundan və güləşçilər təkkəsinin varlığından bəhs olunur.

# Azərbaycanda oyunlar

Azərbaycanda xalq oyunları çox zəngin bir tarixə malikdir. Onların mövzusu, forması, məzmunu, fəlsəfəsi çox erkən dövrün təsəvvürləri ilə bağlı olmuşdur. Oyunların bir çoxu bugünümüzə tam şəkildə gəlib çatmamışdır, lakin bu oyunların ilkin variantları əsasında onları təsnif etmək mümkündür.

Oyunlar hər bir xalqın özünəməxsus həyat baxışlarını, inanc və etiqad sistemini, dünyanı anlamaq formasını əks etdirən ilkin estetik janrlardan biridir. Onlar, eyni zamanda insanların əyləncə tərzini və məişətini də əks etdirir. Hər xalqın oyunlarından onların əhval-ruhiyyəsini, əxlaqi keyfiyyətlərini, psixoloji vəziyyətini də təyin etmək mümkündür.

Azərbaycanda ənənəvi oyunları tədqiq etmək üçün iki hissəyə böldük:

- Ənənəvi oyunlar və meydan tamaşaları;
- İdman oyunları.

Əslində ənənəvi idman oyunları da meydan tamaşalarının tərkib hissəsi hesab olunur. Böyük cıdır tamaşaları, at yarışları və atla bağlı müxtəlif oyunlar güc nümayiş etdirilən idman oyunları idi. Zorxana oyunları böyük meydanlarda xüsusi hazırlanmış sahələrdə keçirilirdi.

Meydan tamaşaları, adından da məlum olduğu kimi, xalq yaradıcılığının bu sahə üzrə ixtisaslaşmış və sənət ənənələrinə söykənən sənətkarları tərəfindən açıq havada nümayiş etdirilən əyləncələr idi. Fərdi sənətkarlarla yanaşı, xüsusi qrupların oyunları da xeyli tamaşaçı toplayırdı.

Meydan tamaşalarının əsas oyunlarından biri cıdır tamaşaları idi. Burada at çapma, at oynatma, atla oxatma, qılıncoy-

natma, kəməd atma üzrə yarışlar keçirilirdi. Xalqın həftələr ərzində hazırlaşdığı cıdır tamaşaları böyük el şənliyinə, bayrama çevrilirdi. Atlı yarışlarından sonra güc yarışları başlayır, zorxanaya meydan verilirdi.

Ənənəvi idman növü olan zorxana oyunları meydan tamaşalarının əsas oyunlarından idi. Azərbaycanda keçirilən zorxana tamaşalarının tarixi qədim dövrlərə gedib çıxır. Pəhləvanlar meydana mil oynada-oynada çıxar, rəcəz oxuyardılar. Özlərinə tərəf müqabili axtarardılar. Oyun zamanı pəhləvanlar bir dairə içərisində güc sınağına çıxardılar. Zorxanalarda sim pəhləvanlarının, kəndirbazların nömrələri də maraqla qarşılanardı.

## Ənənəvi oyunlar və meydan tamaşaları

Meydan tamaşaları musiqi, rəqs, məzhəkə, nəqletmə, yarışma və s. ünsürlərdən yaranmışdır. Açıq havada, şəhər meydanlarında, kəndlərdə geniş sahələrdə, karvansaralarda, bazar və küçələrdə göstərilən meydan tamaşaları ənənəvi xalq teatrıdır. Tamaşaçılarla əhatələnmiş sahədə, meydanda oynanıldığı üçün ona (orta oyunu) meydan tamaşası deyilmişdir. Meydan tamaşaları termini altında əsasən Azərbaycanda oynanılan təhkiyəli, süjetli xalq oyunları nəzərdə tutulur.

Xalqın özü qədər qədim olan meydan tamaşaları oyunçu və tamaşaçı arasında baş verən səmimi münasibətlər şəraitində göstərilən tamaşalara verilmiş addır. Bu tamaşalar masqarabazlar, nağılçılar, aşıqlar, məzhəkəçilər, kukla oyunçuları tərəfindən inkişaf etdirilərək ənənəvi meydan və ya xalq tamaşalarının özəyini yaratmışdır. Məişətlə bağlı müxtəlif əyləncələr zaman keçdikcə daha kütləvi xarakter alaraq təkmilləşmiş, xalq yaradıcılığı xəzinəsinə daxil olmuşdur. Xalq tamaşaları mərasimlər və oyunlar içərisində yaranmış və yayılmışdır.

Meydan tamaşalarının kökləri xalqın məişəti, həyat tərzi, dünyagörüşü, toy və mərasim ənənələri ilə bağlıdır. Qədim türk tayfalarında musiqinin müşayiəti ilə oynanılan kollektiv rəqslər – yallılar bütün növ milli oyunların ilkin örnəkləridir. İlkin teatr ünsürlərini özündə ehtiva edən bu rəqslərdə bədən və əl-qol hərəkəti, baxışlar süjet xəttini təşkil edirdi.

Aşığın genetik əcdadı, sələfi qam-şaman da öz mərasimlərini musiqinin müşayiəti ilə həyata keçirirdi. Bu vaxt qam-şaman rəqs edir, musiqinin ritminə uyğun olaraq sözlər söyləyirdi. Gələcəkdən xəbər gətirən, bədahətən söz söyləyən, xəstələrə şəfa verən, pis ruhları qovan qam-şaman qədim türk

qaynaqlarından gələn, ritual-mifoloji kökləri olan bir obrazdır. Bu obrazın izləri meydan tamaşalarımızda yaşayır.

**Aşıq məclisləri:** Azərbaycanda orta əsrlərdən təşəkkül tapmış aşıq məclislərinin də özünəməxsus qaydaları mövcud idi. Böyük otaqlarda tamaşaçıların əhatəsində keçirilən ənənəvi aşıq məclislərində sənət etikası naminə onların bəzi ardıcıllıqlara əməl etmələri vacib idi. Məclisi idarəetmə bu sənət qaydasına görə davam edirdi:

- Həqiqət;
- Nəsihət;
- Xədəngi.

Meydana girən hər bir aşıq, qədim ənənəyə görə, əvvəlcə həqiqətdən başlamalı, bir ustadnamə söyləyərək bununla özünün və ustadının bilik və qabiliyyətini nümayiş etdirməli idi.

Ənənəvi meydan tamaşalarının ən məşhurlarından olan aşıq məclisinin bir başqa qaydası da mükalimə-müsabiqə, yəni deyişmədir. 3-5 bəndlik dördlüklərdən ibarət olan bu deyişmədə sənətinə güvənən aşıq başlamaq üçün sözü qarşı tərəfə verir. İlk başlayan aşıq üçün hansı mövzuda və qafiyədə sözə başlamanın əhəmiyyəti böyükdür. Şairlik istedadı olmayan aşıq ustadlara məxsus nəsihətnamə, ya da qıfılbənddən başlayırdı. Bu məclislərdə rəngarəng aşıq havalarından istifadə olunurdu. Aşıqların deyişmə səhnələri əsasən geniş meydançalarda, səhnələrdə auditoriya qarşısında baş tutur və böyük maraqla izlənilirdi.

Meydan tamaşalarının və ya milli oyun sənətinin yaranması və inkişafı bir çox ünsürlərə bağlıdır. Meydan tamaşaları və oyunları canlı ifa, kukla, kölgə və s. yönümlüdür. Azərbaycanda kukla oyunları geniş inkişaf etməmişdir. Bu tamaşaların ilk nümunələri sayıla bilən oyunlar Azərbaycanın bir çox regionlarında və Cənubi Qafqazın şimal və qərb bölgələrində oynanılmışdır.

Oyunun təhkiyəli forması olan meydan tamaşalarının dini-inanc təməlində dəyişiklik baş verdikcə göstərilən oyunun mövzusu da dəyişirdi. İslam dini bərqərar olandan sonra baş verən Kərbəla hadisəsi ilə xalq teatrı faciəli, dramatik məzmunlu yeni bir meydan tamaşası olan şəbihi yaratdı. Şəbih əslində meydanda tamaşaçıların əhatəsində, həm də tamaşaçıların iştirakı ilə oynanılır. Şəbih oyunçuları bu ənənəni atadan oğula keçirməklə ənənəvi bir üsul, oyun tərzi yaratmışlar.

**Şəbih tamaşaları** – Şəbih sözünün tərcüməsi oxşar, bənzər deməkdir. Şəbih tamaşaları islam dininin yaşaması uğrunda mübarizə aparan müqəddəs müsəlmanların həyat tarixçəsini, xüsusilə Kərbəla faciəsini simvolik formada səhnələşdirən meydan tamaşalarına verilmiş ümumi addır. Şəbihlərin baş mövzusunu imam Hüseynin tərəfdarları ilə Yezid və onun qoşunları arasındakı mübarizələr təşkil edir. Şəbih tamaşaları məhərrəmliyin müxtəlif günlərində bir-birinin davamı olaraq hissə-hissə keçirilirdi.

Şəbih tamaşaları məhərrəm ayının girməsi ilə başlayır və əsasən iki mərhələdən ibarət olur. Məhərrəm ayının ilk on günü əza keçirilir. Onuncu günə "aşura" deyilir və dini etiqada görə imamlar və övladları bu gündə qətlə yetiriliblər. Həmin günə Qətl günü də deyirlər. Aşura günü və ondan sonrakı günlərdə müxtəlif adlarda böyük və təntənəli şəbih tamaşaları oynanılır.

Əza günləri xüsusi hazırlanmış qafilə Həzrəti Hüseynin 72 tərəfdarını təmsil edir. Qətldə şəhid olmuş "Əli Əkbərin otağı" hazırlanır. Otaqda onun rəmzi nəşi düzəldilir. Bu rəmzi nəş xərəkdə qafilə içində gəzdirilir. "Qasım otağı" əza qafiləsinin ən mühüm oyun atributlarındandır. Toy çadırının modeli şəklində düzəldilib xərəyin üstündə qurulur. Onun içərisinə imam Həsənin şəhid oğlu Qasımın nəşini andıran müqəvva qoyulur. Həmin müqəvvanın üstünə çoxlu qan çilənir. Xərəyin kənar-

larına fanarlar düzülür, mövsümə uyğun olaraq süni, ya da təbii çiçəklərlə bəzədilir. "Qəbri-Hüseyn" də əza qafiləsində gəzdirilir. Qəbir sərdabə şəklində qurulur və xüsusi xərək üzərində yerləşdirilir. Sərdabə ipək-atlas, zərxara parçalarla bəzədilir, qiymətli daş-qaşla süslənir. Sərdabənin yuxarı hissəsinə zərli çalma qoyulur, ətrafına isə qılınc, qalxan, ox, kaman, uzunboğaz çəkmə və imam Hüseynə aid edilən digər əşyalar düzülür. Sərdabə qurğusunun içərisinə ağzıbağlı tabut qoyulur və ona ağ göyərçinlər bağlanır. Əbülfəzl Abbas (Həzrət Abbas) obrazının əza qafiləsində xüsusi yeri var. O, on gün mühasirədə qalan müddətdə imam Hüseynin ailəsinə və əshabələrinə su gətirib.

Bu qafiləyə başqa bir çox faciə atribut və obrazları əlavə edilə bilər. "Əliəkbər otağı", "Qasım otağı", "Qəbri-Hüseyn", "Həzrət Abbasın kəsili qolları" on gün ərzində əza qafiləsində gəzdirilib nümayiş etdirilir. Əza qafiləsinin yürüşünə yas bayraqları gəzdirən ələmdar, tüğdar, xərəkdar və digər əzadarlar daxildirlər. Onlar öndə gedirlər və hamısı birlikdə "əlviyyə" adlanır. Bu səyyar tamaşa 10 gün boyunca şəhərin bütün küçələrindən keçir və Kərbəlaya səfəri zamanı imam Hüseyn və qəbilə üzvlərinin başlarına gələn müxtəlif dəhşətli hadisələri ardıcıl şəkildə dəfələrlə camaatın gözü qarşısında nümayiş etdirir.

Məhərrəm ayının 9-dan 10-na keçən gecə "İmam Hüseynin şəhadəti" adlanan şəbeh tamaşası başlayırdı. Əza qafiləsinin gəzdirdiyi sərdabə və otaqlar bir yerə cəm olur. Açıq havada qurulmuş səhnələrdə bir çox oyunçunun iştirakı ilə keçirilən tamaşaların süjetli, gərgin konfliktli səhnələri başlayırdı. İmkanlı adamlar zinət əşyalarını, qiymətli xalçalarını, say-seçmə atlarını, dəvələrini bu tamaşaların təmtəraqlı keçirilməsi üçün verirdilər. İmam Hüseyn obrazının ifaçısı kimi yəhəri, üzəngisi, yüyəni al-əlvan qotazlarla bəzənən ağ at gətirilirdi. Səhnə dekorasiyası üçün asan tapılan, əl altda olan

əşyalardan istifadə olunurdu. Məsələn, bir teşt su ilə Fərat çayı canlandırılırdı. Şəbih tamaşalarında səhnə tərtibatı məzmunla uyuşur, dramatizm özünü qabarıq şəkildə göstərirdi. Qadın rollarını adətən kişilər oynayırdılar.

Azərbaycanda xalq arasında "Əliəkbərin şəhid olması", "Həzrət Abbasın şəhid olması", "İmam Hüseynin şəhid olması", "Səkinənin vəfatı", "Qasımın nişanlısı Səkinənin ölümü", "Qasım Həsən oğlunun şəhadəti", "Əsirlərin qayıtması", "Tiflani-Müslüm", "Hürrün şəhadəti", "Fatimənin qətli", "Kərbəla davası", "Mədinə səfəri", "Əsirlərin Kərbəlaya daxil olmaları", "İmam Hüseynin 18 yaşlı oğlunun şəhadəti", "Müslümün Kufədə qətli", "Kərbəla müsibəti", "Əlinin qətli" və s. şəbih tamaşaları mövcuddur. Şəbih tamaşalarının təşkilatçısına şəbihgərdan deyilir. Şəbihgərdan özü əsas rolları ifa edir və oyunçular arasında rol bölgüsü aparır. Şəbih oynanılan məkanın bütün tərtibatını, geyimlərin seçilməsini, qrim işlərini də baş şəbihgərdan görür. Şəbih tamaşaları yay, yaz, payızda açıq havada, məhərrəmlik ayı qış günlərinə təsadüf edərsə, qapalı yerlərdə göstərilirdi.

Azərbaycanda meydan tamaşalarının bir hissəsi olan mərasim tamaşaları mövsümi mərasimlər olub əsasən yazın gəlişi, əkinin başlanması, məhsulun toplanması, elatın yaylağa çıxması, qoyun qırxımı, xırman və s. hadisələr ilə əlaqəlidir. Mövsümi xarakter daşıyan tamaşalarda da əkinçilik və maldarlıqla bağlı tamaşalar oynanılır. Təbiət qanunları ilə yaşayan insanlar məhsul yığımı, damazlıq seçimi, qış hazırlıqları və s. təsərrüfatla bağlı hadisələrdən sonra şənlənməyi, müxtəlif oyunlarla bunu qeyd etməyi vacib hesab etmişlər.

**Qodu-qodu** – Mərasim tamaşalarından biri olan qodu-qodu adlı kütləvi xalq oyunu qədim zamanlardan aramsız yağan və əkinə-biçinə ziyan vuran yağışın kəsilməsi üçün keçirilirdi. Oyunda qadın formasında kuklalar düzəldilir və

yağışın altında qapı-qapı gəzərək qodunun şəninə nəğmələr oxunur, tərifləyib onu vəsf edirdilər. Onları musiqiçilər müşayiət edirdilər. Qodunu günəşin rəmzi olaraq qırmızı parçaya büküb günəşin çıxmasını, yağışın kəsilməsini arzulayırdılar.

**Cütcü şumu** – Bir başqa mövsüm-mərasim oyunu cütcü şumu adlanır. Əcdadlarımız Novruz bayramının torpaq çərşənbəsində torpağa inam və etiqad əlaməti olaraq bu mərasimi icra edirdilər. Bu tamaşada oyunçular yazda əkin-biçin, şumlama, suvarma işlərini canlandırırdılar. Bununla da insanlar torpağa bağlı olduğunu, yazda görəcəyi işləri qabaqcadan planlaşdırdığını diqqətə çatdırmağa çalışmışdır. Mərasim ən bərəkətli əkin sahəsinin yanında keçirilirdi. Burada cüt və kotan vəsf edilir, onların şəninə gözəl sözlər deyilirdi.

**Yel baba** − Bu mövsüm-mərasim oyunu təbiətlə, torpaqla bağlı olub. Bu oyun xırmanda dəni sovuran vaxt küləkdən kömək istəmək üçün icra edilirdi. Mərasim zamanı buğdanı samandan təmizləmək üçün "yel babanı" köməyə çağıran iştirakçılar onun şəninə nəğmə oxuyur, mahnının məzmununa aid hərəkətlər icra edirdilər.

**Kövsəc** − Mərasim tamaşalarında yazın gəlişi, qışın sona çatması ilə bağlı oynanılan oyunlardan biri də kövsəc oyunu idi. Burada qışı ağ saçlı, ağ saqqallı, ağ paltarlı, əlinə əsa almış qəzəbli qoca, yazı isə qarı təmsil edir. Oyunda pantomim hərəkətlər – qaş-göz, bədən oyunu əsas yer tuturdu. Qarının sevinclə rəqs edib şənlənməsi qocanı qəzəbləndirirdi. Kövsəc tamaşası qışa bir ay qalmış keçirilirdi.

Təbiət dəyişiklikləri ilə bağlı xalq təqvimindəki xüsusi günlərdə mərasim tamaşaları oynanılmışdır. Bununla bağlı oyunlarda həmişə qış sərtliyin, qorxunun; bahar yumşaqlığın, xoşbəxtliyin rəmzi olmuşdur.

**Masqara tamaşaları** – Masqara tamaşaları meydan tamaşalarının tərkib hissəsi kimi həmişə özünə tamaşaçı toplayan qədim oyun növüdür. Bu tamaşaların oyunçusuna masqaraçı və ya masqarabaz deyilir. Bəzən bu oyuna "lağ oyunu" və ya "lağlağı" da deyiblər. Masqara tamaşaları, bütün dünyada olduğu kimi, komediya, məzhəkə, gülmək və əylənmək üçün olan tamaşa mənasındadır. Cənubi Azərbaycanda (İran) bu gün də komediya aktyorlarına lağbaz, məzhəkəçi, masqarabaz deyirlər. Masqara tamaşalarında musiqiçilər dəstəsi iştirak edirdi.

Tamaşalar dairəvi kiçik meydançalarda nümayiş etdirilirdi. Tamaşaçılar dövrə vurub otururdular. Əvvəlcə musiqi fəsli başlayır, zurnada zil oyun havası səslənirdi. İstəyən tamaşaçılar rəqs edirdi. Sonra zurnanı balaban əvəz edir, məzəli və oynaq rəqs havaları ifa edilirdi. Bundan sonra dəfin ritmik nəqaratları ilə masqaraçı meydana çıxırdı.

Masqaraçı öz söhbətinə başlayırdı. Nəql olunan əhvalat məzhəkə xarakteri daşıyırdı. Canlı, bədahətən yaranan söhbətlər, tamaşaçı və oyunçu arasındakı məzəli dialoqlar bu oyunların əsas mövzusu olurdu. Tamaşaya toplanmış insanların xarici görünüşü, boyu, geyimi və s. müzakirə olunur, məzəli, qafiyəli mətnlər yaranırdı. Masqaraçı bəzən bu yolla müxtəlif insanların naqis cəhətlərinin tipikləşdirilmiş obrazını yaradırdı. Bu tamaşa oyunçudan hazırcavab olmağı, söz oynatmaq məharəti və güldürmək bacarığı tələb edir.

Bəzən masqaraya qoyulan tamaşaçı dava-dalaş salmaq istər, köməkçilər onu cəld tutub ağaca sarıyardılar. Bəzi böyük tamaşalarda ağaca 5-6 nəfər sarınardı. Masqarabazı döymək, ona hədə-qorxu gəlmək qadağan idi. Tamaşa bitdikdən sonra ağaca sarınanları açar, masqarabazla barışdırardılar. Masqarabazlar ağaca adam sarımaqdan qaçardılar. Məcbur olmasalar, bu üsula əl atmazdılar. Çox vaxt masqaraya qoyulan

tamaşaçının bundan xoşlanmadığını hiss edib, mövzunu və obyekti dəyişməyə çalışardılar.

Masqarabazlar meydana xüsusi libasla çıxardılar: xələtləri, əbaları allı-güllü olar, bellərinə qurşaq bağlayar, ayaqlarına yüngül məst geyərdilər. Bir çox masqarabazlar başlarını ülgüclə qırxdırar, alınlarında kəkil saxlayardılar.

Masqara tamaşaları əyləncə tamaşaları içərisində ən qədimi hesab olunur. Gülüşün bir çox elementini özündə birləşdirən bu tamaşalar zamanla müxtəlif səbəblərdən təlxəklər, məzhəkəçilər tərəfindən mənimsənilmişdir. Satirik xalq tamaşalarının özəyini təşkil edən masqara tamaşalarının yavaş-yavaş sıradan çıxmasına səbəb olmuşdur.

**Qaravəllilər** – Mahiyyət etibarı ilə komediya tamaşalarıdır. Orta əsrlərdə Azərbaycanda toy-nişan mərasimlərində, dastan-nağıl məclislərində qaravəllilər söylənərdi. Əvvəllər varsaqlar, sonralar aşıqlar bir qədər nəfəs dərib dincəlmək üçün qaravəllilərdən istifadə etmişlər. Bu oyun tipi əsrlərdən keçərək müəyyən estetik səciyyəli meydan tamaşaları kimi formalaşmışdır.

**Məzhəkələr** – Məzhəkə qədim oyun növlərindən biridir. Formaca xalq tamaşalarının hamısından daha bitkin və çevikliyi ilə fərqlənən məzhəkələrin oyun prinsipi daha çox improvizəyə bağlıdır. Bu tip oyun-tamaşalarda kobud, şit zarafatlara, əndazəni aşmış atmacalara və intim epizodların şişirdilməsinə üstünlük verilirdi. Məzhəkələrdə əsas etibarı ilə mənfi xarakterli, əməli qüsurlu, əxlaqi naqis, davranışları yersiz insanlar gülüş hədəfinə tutulur, cəhalət, kütlük, biganəlik və digər insana xas olmayan hallar tənqid edilirdi.

**Dərvişlik** – XI əsrdən üzü bəri Hindistan, Pakistan, İndoneziya, İran və Azərbaycanda geniş yayılmışdır. Sufi təriqətinin bir qolu kimi formalaşan bu cərəyanda dərvişlər el

arasında nağılçı-oyunbazlar kimi də tanınmışdır. Onlar ilan, əqrəb və digər zəhərli heyvan və həşərat gəzdirib əllərində oynatmaqla, ritmik hərəkətlər və əfsunlu oyun göstərməklə insanları özlərinə cəlb etmişlər. El arasında onların göstərdikləri tamaşalara "dərviş mərəkəsi" də deyirdilər.

**Gözbağlayıcılar** – Meydan tamaşaları arasında əyləncə üçün keçirilən ən çox gözbağlayıcıların oyunları tamaşaçı toplayırdı. Bu tamaşalarda əl cəldliyi ilə tamaşaçının sezə bilmədiyi qeyri-adi görünən "möcüzə" göstərmək əsas şərt hesab olunurdu. Bu oyunçulara gözbağlayıcı və ya hoqqabaz deyilirdi. Səhnədə oyun üçün lazım olan ləvazimatların yığıldığı sandıqçaya hoqqa deyilmiş, hoqqabaz sözü də buradan yaranmışdır. Bu oyunlar müasir sirk oyunlarının əsasını təşkil edir. Gözbağlayıcılar 5 və ya 7 nəfərdən ibarət olur, meydanda dövrə vururdular. Oyun üçün onlar ağ və qara daşlardan, müxtəlif heyvan və insan kəllələrindən, heyvan sümüklərinin bəzi hissələrindən istifadə edirdilər. Tamaşalarda müxtəlif süjetli hadisələr cərəyan edir, guya oğurlanmış əşyalar tapılır, kor uşaq görür, müxtəlif sirlər açılırdı. Qədim gözbağlayıcı tamaşalarına "Musanın əsası", "Od baba" və s. tamaşalarını örnək göstərmək olar.

**Qaraçı tamaşaları** – Azərbaycanda XIX əsrin əvvəllərindən XX əsrin əvvəllərinə qədər qaraçı tamaşaları məşhur idi. Qaraçı dəstələri kəndlərə gəlir, əsasən çay kənarlarında çadır qururdular. Göstərilən tamaşalarda oyunçu heyəti keşikçi, baş oyunbaz, onun köməkçisi və rəqqasə qızlardan ibarət olurdu. Keşikçi oyunçuları qoruyar, nizam-intizama nəzarət edirdi. Tamaşa oyunbazın təlim verdiyi heyvanların oyunu ilə başlayırdı. Qaraçı tamaşalarında əsasən ayı oynadılırdı, amma bəzi qruplarda meymun da olurdu. Heyvanların oyunu səhnəsində ayı mayallaq aşır, insanların hərəkətlərini, yerişlərini təqlid edir, qəlyan çəkir və s. müxtəlif komik hərəkətlər edir-

di. Heyvan oynadıldıqdan sonra meydan qaraçı qızlarına verilirdi, onlar dəf çalıb rəqs edir, mahnı oxuyurdular.

Meydanda oynanılan tamaşalardan "Kosa-kosa", "Çəltikçilər", "Əkəndə yox, biçəndə yox, yeyəndə ortaq qardaş", "Xan-vəzir", "Tənbəl qardaş", "Şah Səlim" və s. oyunlar daha çox süjetli olub xalq teatrı xüsusiyyəti daşıyır. Bunların çoxunun mövzusu xırda lətifələrdən, qaravəllilərdən, satirik məişət nağıllarından, məzhəkələrdən alınmışdır.

Meydan tamaşalarında oyunların keçirilməsi, səhnənin qurulması və tərtibatı, oyunçunun qrimi, göstərilən tamaşanın məzmunu, tamaşaçısı, mərasimə və ya bayramlara görə göstərilmə səbəbi və s. haqqında bir neçə tamaşadan nümunələr verərək söhbət açacağıq. Bəzən bu oyunlarda xüsusi səhnə olmur, oyunçular tamaşaçı ilə bərabər qapı-qapı gəzir və ya meydanın ortasında var-gəl edərək rolunu ifa edirdi. Bəzən də bu oyunlar qədim xalq rituallarının izlərini daşıyır, oyunun xarakteri və məzmununa görə xüsusi yerlərdə icra edilirdi.

**Dəvə oyunu** – Canlı kukla oyunlarından olan dəvə oyunlarının həm kukla, həm də maska variantı var. Dəvə oyununun canlı kukla variantında örtüyün altına dəvə təsəvvürü yaratmaq üçün bir yox, bir neçə – iki və ya dörd adam girir. Maska variantında isə boynuna zınqırov asıb çiyninə dəvə dərisi atan adam dəvə təqlidi edərək oyun çıxarır.

Görünür, xalq arasında, "dəvə oynayanda qar yağar" deyiminə uyğun olaraq əyləncə məqsədi ilə dəvə oyunu düzəldilib.

**Dumbul Bəkir oyunu** – Bu oyun el şənliklərində, axır çərşənbədə oynanılır. Oyunun iki iştirakçısı var: Dumbul Bəkir rolunun ifaçısı və dəf çalan. Dumbul Bəkir rolunun ifaçısı yeniyetmə oğlanların arasından seçilir. Dumbul Bəkiri oynayacaq oyunçunun bir az kök və böyük qarınlı olması vacib

idi. Gəncin başına xəlbir keçirilir, xəlbirin üstü isə bir neçə qat tənziflə bərk-bərk sarınır.

Burada məqsəd oyuna tamaşa edənlərin ifaçını tanımamasıdır. Başına xəlbir keçirilən oyunçu ətrafı görür, ətrafdakılar isə onun kim olduğunu bilmirlər. Dumbul Bəkirin çiyninə bədəninə perpendikulyar şəkildə uzun bir ağac keçirilir. Bu ağac sanki qolların vəzifəsini yerinə yetirir. Ağacın üstündən isə oyunçunun əyninə kürk və ya pencək geyindirilir. Bu vəziyyətdə oyunçunun qarın hissəsi açıq qalır, göbəyinin üstünə də qaş-göz, ağız-burun çəkilir, ağızın məhz göbəyin üstünə düşməsinə xüsusi səy göstərilir. Üzü bağlı, qarnı açıq Dumbul Bəkir dəfin sədaları altında məclisə daxil olur, gah qarnını, gah da ağac taxılmış çiynini oynadaraq camaatı əyləndirir.

**Əkəndə yox, biçəndə yox, yeyəndə ortaq qardaş oyunu** – Bu tamaşa 5 fərqli dekorasiya ilə hazırlanan mürəkkəb süjetli meydan tamaşasıdır. Burada başqa ölkədən gəlmiş iki qardaş becərmək üçün icarəyə əkin yeri götürürlər. Əkin, suvarma, biçin, xırman vaxtı kiçik qardaş həmişə “xəstələnir”. Bütün işlər böyük qardaşa qalır, üstəlik “xəstə” qardaşa qayğı göstərmək də lazım gəlir. Taxıl bölündüyü zaman kiçik qardaş öz payını istəyir, amma böyük qardaş onu ifşa edərək pay vermir.

Həm komik, həm də düşündürücü, tamaşaçıya xüsusi ismarıc verən bu tamaşa quruluşca və səhnə tərtibatına görə mürəkkəb meydan tamaşasıdır. Hər səhnədə dekorasiyalar dəyişir, bəzən cüt, bəzən ağacdan hazırlanmış öküz müqəvvası qoyurlar, bəzən də səhnədə öküzləri təmsil etmək üçün insanları xüsusi formada geyindirirlər.

Oyunçuların xarici görünüşü komikdir, tamaşaçı onları görən kimi gülməyə başlayır. Onların paltarlarına nal, çömçə və s. asılır, başlarına balqabaq qoyulur. Üzlərinə un vurulur, paltarlarının altından yastıq qoyub üstdən örkənlə sarıyırlar.

Tamaşa başlamazdan əvvəl məclisi idarə etmək üçün bir nəfər toyağası seçilir. O, asayişi qorumaq üçün özünə köməkçilər seçir. Bütün səhnə dekorasiyaları və oyunçuların geyindirilməsi onların işidir. Bu tamaşa geniş meydanda keçirilirdi, tamaşaçılar dairəvi şəkildə cərgə ilə yerdə oturub seyr edirdilər.

**Xanbəzəmə oyunu** – Şah-vəzir oyununun başqa bir forması olan xanbəzəmə Novruz bayramında xalqın sevimli meydan tamaşalarından biri kimi yaddaşlarda yaşayır. Burada Kosanın və təlxəyin iştirakı ilə xan seçilir. Sonra xana vəzir, vəkil, fərraş, cəllad seçilir. Xan da, onun komandası da xalq arasından seçilir.

Xan istədiyi əmri verir, istədiyini asır, istədiyini mükafatlandırır. Hər kəs öz əməlinə görə xandan ənam alır. Kosa və təlxək hoqqabazlıq edib xanı güldürməyə çalışırlar. Əgər xan gülərsə, onu taxtdan salıb suya basırlar. Xanın (padşahın) xalqın içərisindən seçilməsi, onun verdiyi qərarlar, günahkarın cəzalandırılması, xanın özünün sonda devrilməsi qədim xalq hakimiyyətinin rituallaşmış formasıdır.

**Kaftar oyunu** – Oyun kaftar adlı vəhşi bir heyvanın insanla vuruşmasını əks etdirir. Burada kaftara qalib gələn insanın qalibiyyəti göstərilir. O, hiylə ilə qalib gəlir. İnsanları kaftarın əlindən xilas edir. Oyun ibtidai insanın dünyagörüşü ilə bağlı olub xeyirin şər üzərində qələbəsi kimi öz əksini tapmışdır.

**Kilimarası oyunu** – Məşhur kukla oyunlardan biri olan Kilimarası oyunu tamaşa şəklində qurulan bir oyundur. Oyun bir nəfərdən ibarət olurdu. Onun sağ əlinin üç barmağına çubuq bağlayırdılar. Bu çubuqları qız və iki oğlan formasında bəzəyirdilər. İfaçını isə kilimə bükürdülər. Oyunçu 4 kuklanı barmaqları və dizləri ilə idarə edirdi. Oyun sabit süjet xəttinə malik idi.

İlk olaraq səhnədə Ceyran adlı gənc qadın və onun əri birlikdə rəqs edirlər. Aralarındakı sevgini, məhəbbəti göstərir

və buna uyğun hərəkətlər edirdilər. Sonra gəlinin əri yatır. Gəlin onun yatıb-yatmadığını yoxlayır, o tərəf-bu tərəfə baxıb başqa bir oğlanı – aşiqini qaldırıb oynadır. Bu vaxt gəlinin əri yuxudan oyanıb oğlanı əlindəki xəncərlə, yaxud da bıçaqla qətlə yetirir. Bununla da oyun bitir.

Oyunda musiqiçilər də olurdu. Onlar əsasən qara zurna və dəfdə ifa edirdilər. Oyun ailə-məişət mövzusunda olub, əxlaqi-tərbiyəvi xüsusiyyətə malikdir. Bu oyun daha çox toy mərasimlərində oynanılır. Təzə bəy və gəlinin qarşısında oynanılan bu oyun insanların bir-birinə sədaqətli, vəfalı olması hissini aşılayır.

**Kos-kosa oyunu** – Azərbaycan xalq yaradıcılığında, el tamaşalarında, qədim oyun və mərasimlərdə ən qədim komik personajlar Keçəl və Kosa surətləridir. Kosa və Keçəl uzun illər ən müxtəlif meydan və mərasim tamaşalarının qəhrəmanları olmuş, bu oyun Novruz şənliklərindəki saya gəzintisi və bu kimi mərasim tamaşalarına qovuşub onlarla eyniləşmişdir. Buradakı baş surət və əsas tənqid hədəfi qışı təmsil edən Kosa olmuşdur.

Oyun iştirakçıları onunla birlikdə dəf çala-çala qapı-qapı gəzib əylənmiş, ətrafdakıları yazın gəlişi münasibəti ilə təbrik etmişlər. Tarix boyu "Kos-kosa", "Kosa gəzdirmə" və s. tərzdə adlanan bu el oyunu bu gün də xalq bayramının əsasını təşkil edir.

**Kukla oyunu** – Azərbaycanda və bütövlükdə türk dünyasında geniş yayılan oyunlardan biri də kölgə-kukla oyunudur. Bu oyun pərdəyə kölgələri salınan kuklalar vasitəsi ilə icra olunur. Burada kuklalar iplə oynadılır. Süjetli olan bu oyunlar həmişə tamaşaçıların diqqətini çəkmişdir. Pərdə oyunu (oyun bu cür də adlanır) bir zamanlar meydanlarda, açıq havada oynanılarmış.

**Maral oyunu –** Toy və şənliklərdə daha çox yaz aylarında çəmənlikdə, açıq havada maral formasında paltar geyinmiş bir nəfərin iştirakı ilə oynanılan məşhur oyundur. O, maral formasını geyinib musiqiçinin qara zurnada çaldığı ritmik mahnıya uyğun şəkildə oynamağa – hərəkət etməyə başlayır. Maral başını yerə qoyanda ətrafdakı insanlardan nəmər istədiyini işarə edir. Ona nəmər verən kimi yenə də oyununu davam etdirir.

Oyunda "sızağı havası" ifa olunur. Əfsanəyə görə, bu maralı Sızağı adlı bir çoban sevgilisinə hədiyyə vermişdir. Maral oyununun etnoqrafik xüsusiyyəti, mifoloji kökü, milli musiqi və xalq incəsənəti ilə əlaqəsi oyunun çox qədim və zəngin köklərə malik olmasının göstəricisidir. Türk xalqlarında qızıl buynuzları olan maral Sibir və Avrasiya çöllərində müqəddəs Günəş rəmzi sayılırdı. Maral sevgi, həssaslıq, saflıq mənalarını ifadə etmişdir.

**Şah-vəzir oyunu –** "Padşah seçmə", "Padşah oyunu", "Şah bəzəmə" və yaxud "Xan bəzəmə" adı ilə tanınan bu oyuna Azərbaycanın bir çox bölgələrində rast gəlmək mümkündür. Bu oyun Novruz bayramında daha çox Qarabağ bölgəsində oynanılır. Şah-vəzir tamaşasına bütün el-oba toplaşır. Bu tamaşanın iştirakçıları da, icraçıları da elə xalqın özü olur. Bir neçə gün əvvəldən "təlifçi" (təklifçi) seçilir və o, hər kəsi bir-bir bu mərasimə dəvət edir. Rayonun sayılıb-seçilən ağsaqqallarından biri "şah" seçilir. Novruz bayramı ərəfəsində – bayramdan iki-üç gün öncə keçirilən bu mərasim üçün bölgə əhalisinin hamısının yerləşə biləcəyi böyük bir çadır qurulur. Bu, səyyar sirk ustaları üçün qurulan çadıra bənzəyir. Mərasim üçün yaradılan çadırın ortasında hündürlüyü tavana dəyən bir dar ağacı qurulur. Çadırda şah, vəzir, vəkil, cəllad öz yerlərini tuturlar.

Məclis şaha olunan şikayətlərlə başlayır. Əslində bu meydan tamaşası küsülüləri barışdırmaq, hətta ailələrin içəri-

sindəki inciklikləri, umu-küsünü aradan qaldırmağa bir vəsilə idi. Beləliklə, şikayət edən şəxs qarşı tərəfə iddia irəli sürür. Qarşı tərəf, öz növbəsində, bu iddianı yerinə yetirməsə, şah tərəfindən cəzalandırılır. Cəza əsasən dar ağacından asılma ilə nəticələnir. Çadırın ortasından sallanmış kəndir cəza verilən şəxsin belinə bağlanılır və çadırın tavanına qədər qaldırılır. Bu insanları ən çox əyləndirən məqamdır. Şahın əmri ilə dar ağacından asılan adam elə onun əmri ilə də bir müddətdən sonra aşağı endirilir.

Əgər hər hansı səbəbdən burada olmayan varsa, şahın əmri ilə o da məclisə gətirilir və təbii ki, təklifçinin dəvətini sayıb gəlmədiyi üçün cəzalandırılır. O gün burada kimin kimdən nə şikayəti varsa, edir. Elin ağsaqqalı – şah da bu narazılıqları nizama salmağa, əhalinin sakit, firavan yaşaması üçün səy göstərir. Bu tamaşa səhərə qədər davam edir və beləliklə də, qarşıdakı ildə əhali sakit, əmin-amanlıq içərisində yaşayır.

Şah olan şəxs bir sutka dinməməli, danışmamalıdır. Gülən kimi onu taxtdan düşürər, soyundurub dar ağacından "asardılar". Ən məşhur məzhəkəçilər, gülüş ustaları şahı güldürmək üçün dəridən-qabıqdan çıxardılar. Şah bütün bu məzhəkələrin qabağında özünü saxlaya bilməyib gülərsə, meydana toplaşan tamaşaçılar onu geyimli-keçimli suya basar, "şahlıq"dan salardılar. Taxtdan salınmış şəxs isə bir daha şah seçilə bilməzdi.

Bunlardan başqa, bir çox xalq və mərasim oyunları meydan tamaşalarının bəzəyi olmuşdur. Bunlara "Lal oyunu", "Şəbədə oyunu", "Tənbəki oyunu" və digər tamaşaları misal göstərmək olar. Bu oyunlar qeyri-maddi mədəni irsimizin maraqlı və qədim nümunələri olub bu gün də xüsusi əhəmiyyət daşımaqdadır.

## Ənənəvi idman oyunları

İdman mənasında da işlədilən oyun sözü “oynamaq” feilindən yaranmışdır. Qədim türklərdə oyunun tarixi şamanqam tarixi ilə hesablanır, lakin oyunu yalnız şamanizm ənənələri ilə məhdudlaşdırmaq doğru olmaz. Bir xalqın oyunlarının yaşı onun şifahi yaradıcılığının yaşı qədərdir. Dünya xalqlarının təcrübəsindən bildiyimiz kimi, oyunların əcdadı olan rəqslərin daxilində oyun elementləri olmuşdur.

Ənənəvi meydan idman oyunları açıq havada keçirilir, fiziki gücü, şücaəti, çəldliyi əks etdirmək məqsədi daşıyırdı. Zəngin tarixə malik olan Azərbaycan qədim dövrlərdən bəri müxtəlif xalqların və mədəniyyətlərin təşəkkül tapdığı ərazilərdən biri olmuşdur. Azərbaycan Avrasiyanın mərkəzində Şərqlə Qərbin qovşağında, xüsusən İpək yolu üzərində yerləşdiyi üçün fərqli adət-ənənələrə sahib olan xalqların məskunlaşdığı bölgələrdə yerləşməsi ilə seçilmişdir.

**Zorxana oyunları** – Azərbaycanın klassik meydan tamaşalarının içərisində mənşə etibarı ilə qədim olanı və daha çox yayılanı zorxana oyunları idi. Zorxana oyunları qədim türk ənənələrini özündə ehtiva edən idman oyunlarıdır. Zorxana daha çox böyük yaşayış yerlərində bu oyunlar üçün nəzərdə tutulmuş sahələrə, evlərə verilmiş addır. Bu, fars mənşəli iki sözdən götürülmüşdür: zor – güc, xana – ev mənasını verir. Elat həyat tərzi keçirən qədim türklərdə belə evləri daha çox xüsusi mərasimlər üçün hazırlanmış sahələr, çöl-çəmən əvəz edirdi. Zorxana oyunları mütləq bitərəf bir hakimin nəzarətində keçirilir və həmişə xüsusi cəng havaları çalınırdı.

İlk vaxtlar zorxana meydanları göy otun üstündə düzəldilərdi, sonralar xüsusi zorxana meydançaları hazırlandı. Dairə şəklində meydançanın hər tərəfinə ağaclar basdırılır, kəndir, ciyə və s. iplərlə dövrəyə alınırdı. Güləşçi kəndirə toxunmamalı idi, əks halda, məğlub hesab edilirdi. Meydança cızıqlarla işarələnirdi, oyunçuların ayağı cızıqdan çıxsa, oyun saxlanılır və yenidən başladılırdı. Belə zorxana meydançaları Azərbaycanın, demək olar ki, hər yerində yayılmışdı. Kiçik şəhərlər, böyük kəndlər, yaşayış yerlərinin kənarında belə zorxanalara rast gəlmək mümkün idi.

Bu zorxanalarda pəhləvanlar çıxış edirdi, onların xüsusi güləş paltarı olmazdı. Meydanda pəhləvanların güc sınamaq, güşt tutmaq, daş oynatmaq, kərən sındırmaq, buğa boynu əymək, güləşmək, ağırlıq qaldırmaq, ağırlıq dartmaq və s. oyunlarına tamaşaçılar böyük rəğbət və həvəslə baxırdılar.

Böyük şəhərlərdə xüsusi peşəkar zorxanalar var idi. Bu zorxanalardan Bakının bir çox yerində – İçərişəhərdə, Yuxarıbazarda, Qoşa karvansaranın altında var idi. Onlar zirzəmilərdə yerləşirdi. Böyük meydanın ortasında hovuz düzəldilirdi. Metr yarım dərinliyi və eni-uzunu on metr olan bu hovuza "süfrə" deyilirdi. Bütün məşqlər bu hovuzun içərisində keçirilərdi. Zorxanaların özünəməxsus oyun alətləri var idi. Oyun zamanı işlədilən mil, cəng, zəncir, kamada və s. zorxana alətləri idi.

**Güləşmə** − Zorxanalarda və ya bunun üçün ayrılmış xüsusi meydanlarda güc nümayişi tələb olunan oyunların başında güləşmə gəlir. Qurşaqtutma da adlanan bu güləşlər min illərdən bəri qəbul olunmuş üsullara və qaydalara uyğun olaraq həyata keçirilir. Bu tamaşalar zamanı pəhləvanlar oyun alətlərindən: mil, toppuz, qalxan, idman daşı və səngidən istifadə edirlər. Cəng sədaları altında meydana çıxan pəhlə-

vanlar, ilk növbədə, bir-biri ilə salamlaşır, sonra meydanda dövrə vurur, alətlərin köməyi ilə məşq edirdilər. Sonda hakimin işarəsi ilə pəhləvanlar bir-birinin əlini sıxır, nağara-zurna sədaları altında çiyinlərini 3 dəfə bir-birinə vuraraq savaşa başlayırdılar.

Qədim zamanlarda gücünə, oyun texnikasına güvənən bəzi pəhləvanlar dizlərinə kiçik aynalar bağlayardı ki, döyüş zamanı dizi yerə gəlməsin. Bu pəhləvanlara el arasında “aynalı pəhləvanlar” deyilirdi. Əgər pəhləvanın dizi yerə gəlsə və aynalar qırılsa idi, bu, məğlubiyyət hesab olunurdu. Zorxana oyunları güc və çəldliyin simvolu olaraq müasir pəhləvanların simasında hələ də yaşamağa davam edir. Güləş, qurşaqtutma, daşoynatma, nizə və oxatma, qılıncoynatma, güləşmə, mil oyunu, əlüstəgəzmə, ağırlıq qaldırma və s. zorxana oyunlarının əsasını təşkil edir.

**Mil oyunu** – Mil oyunu və əlüstəgəzmə oyunu zorxanalarda nümayiş etdirilən xüsusi güc oyunları idi. Mil zorxanada pəhləvanların alətlərindən biridir. Pəhləvan musiqi sədaları altında əvvəlcə musiqinin ahənginə uyğun asta-asta, sonra sürətli hərəkətlərlə mili başının üstünə qaldıraraq atıb-tutur. Yaxşı mil oynadanlar mili ayaqlarının arasından atıb havada tutur, başının üzərində hərlədir. Əlüstəgəzmə tamaşasına müəyyən əşyaları yerdən dişlə götürmək, onu başqa yerə aparıb qoymaq, əl üstündə yüyürmək və s. nömrələr daxildir.

**Sinə oyunu** – Oyunda iştirak edənlər üzü üstə “süfrə”-nin içində uzanıb ayaqlarını divara dayayardılar. Bu vəziyyətdə iki əllərinin üzərinə qalxar, yerdən bir qarış yuxarı olmaqla “yeriyər”, əvvəl sağa, sonra sola gedər, sonra isə aşağı enərdilər. Yerə yaxınlaşaraq dərhal təkrar yuxarı qalxardılar. Oyunçuların sinələri yerə dəyməməli idi. Bu hərəkətləri 120 dəfə yerinə yetirmək norma hesab olunurdu, lakin bundan

yüksək dərəcə də göstərənlər var idi. Gücünə, qüvvətinə güvənən iştirakçı sinə oyununa başlarkən belinə kiçik bir uşaq oturdardı. Bu, hərəkətləri ləngidərək daha da çətinləşdirdiyi üçün böyük şücaət hesab olunurdu.

**Yekba oyunu** – Qədim daşoynatma oyunu olan yekba fiziki hazırlıq tələb edən bir sahə idi. Daş qaldıran pəhləvan oyunçu əvvəl hər əlində əvvəlcə pudluq, sonra qoşa-qoşa pudluq daşlar qaldırırdı. Sonra həmin daşları atıb-tutmaqla şou göstərir, sinəsini, çiynini, kürəyini havaya atdığı daşların qabağına verərək onları itələyir, kənara atırdı. Yekba oyununun ən maraqlı yeri isə pudluq daşları dişlə oynatmaq idi. Bu, çox çətin nömrə idi və həmişə çox tamaşaçı toplayırdı.

Bəzən belə də olurdu ki, bir pəhləvan həm əl üstə gəzir, həm də daşoynatma məharətini nümayiş etdirirdi. Belə tamaşalarda əvvəlcədən proqram hazırlanır və xüsusi müşayiətçi tərəfindən göstəriləcək nömrələr sadalanırdı. Bu elanlar daha çox tamaşaçı toplamaq üçün edilirdi.

**Alpaqut** – Alpaqut qədim türk döyüş sənətidir. Bu ad "alp" və "qutsal" sözünün ilk hecasından yaranmışdır. Müqəddəs döyüşçü mənasındadır. Turan coğrafiyasında yaşayan türk xalqlarının ortaq mədəni dünyagörüşünü təmsil və təbliğ edən, eləcə də milli döyüş ənənələrini inkişaf etdirən, xüsusilə qədim türklərin döyüş mədəniyyətini əks etdirən bir idman növüdür.

Alpaqut qədim idman ənənəsini bərpa etmək, keçmiş şöhrətini geri gətirmək üçün bütün gücü ilə fəaliyyət göstərir. Alpaqut Federasiyası 2014-cü ildən başlayaraq bir neçə beynəlxalq tədbirlər həyata keçirmiş və bir çox ölkələr üzrə rəsmi nümayəndəliklərini açmışdır.

**Turan-Do** – Bu idman növü qədim türk döyüş sənətləri üzərində qurularaq müasir idman tələbinə müvafiq hərəkət-

lərlə zənginləşdirilmişdir. İstifadə olunan hərəkətləri daha da çevik, mütəhərrik, sürətli etmək üçün çoxlu sayda alətlərdən istifadə edilir. Yığcam, mütəşəkkil, dolğun, yüksək, dinamik və sürətli olmasına görə digər növlərdən ciddi surətdə fərqlənir. Turan-Do iki istiqamətdə – idman və real döyüş (kombat) üsulunda öyrədilir.

Turan-Do döyüş sənəti 2003-2004-cü illər ərzində daha da təkmilləşdirildi. Yapon, Çin, Koreya tarixçiləri türk döyüş sənətinin onların döyüş növlərinin inkişafında böyük rol oynadığını qeyd edirlər.

**Sayokan** − Bu idman növü türk millətlərinin ortaq döyüş sənətidir. “Sayokan” sözü “sa-vaşçının (döyüşçünün) yolu və kan-ı (qanı)” cümləsindəki sözlərin baş hecalarının birləşməsindən yaranmışdır. Adın tərkibindəki savaşçı (döyüşçü) sözü ilə ağıl və bədən gücünü istifadə edə bilmə qabiliyyəti və intizam; yolu sözü ilə sülh, çalışqanlıq, sevgi, hörmət, adət və ənənələr; kanı (qanı) sözü ilə də tarixdəki qəhrəmanların birliyi, davamiyyəti əks olunur. Sayokan dünya döyüş sənətləri arenasında türk millətinin səciyyəsini, qabiliyyətlərini əks etdirən türk döyüş sənətidir.

**Kəndirbazlıq** − Kəndirbaz xalq arasında çox sevilən meydan tamaşası idi. El şənliklərində, Novruz bayramında nümayiş olunsa da, əsasən, payız aylarında məhsul yığımından sonra kəndirbazlar öz tamaşalarına başlayardılar. Dərin basdırılmış, aralarında 10-15 m məsafə olan iki dirəyə möhkəm kəndir bağlanırdı. Kəndirbaz əlinə ləngər-şüyül (müvazinətini saxlamaq üçün ağac) alır (bəzi hallarda onsuz da keçinirdi), ipin üstünə çıxırdı. O, kəndirin üzərində uzanır, mayallaq aşır, tərəf müqabilini çiyni və başı üstünə alaraq, yaxud başı üzərinə hər hansı bir ağır əşya alaraq yeriyir, bir çox təhlükəli nömrələr nümayiş etdirirdi. Bu vaxt kəndirbaz

zurnanın ritmi ilə rəqs edirdi. Kəndir üstə oynanılan rəqslər əsasən qaytağı və təkçalma havaları olurdu. Kəndirbaz bəzən cuşa gələrək oxuyurdu.

Bu tamaşalarında adətən 6 və ya 7 nəfər iştirak edirdi: kəndirbaz (bəzən kəndir üstə iki kəndirbaz çıxırdı), onun təlxəyi (yalançısı), gözətçi, balaban, nağara və zurnadan ibarət musiqiçilər dəstəsi. Kəndirbaz xüsusi geyimdə olur, başına araqçın qoyur, əyninə bəzəkli, gözmuncuğu və dualar tikilmiş, qollarına rəngli parçalar bağlamış ipək və ya atlas arxalıq, qısa məxmər şalvar geyinirdi. Onlar ayaqyalın olar və ya yüngül məst geyinirdilər.

Aşağıda kəndirbazı təqlid edən təlxəyi atılıb-düşərək məzəli hərəkətlər edir, heyvan və quşların səsini yamsılayır, qaravəlli danışaraq ətrafdakıları əyləndirirdi. Təlxək əyninə çuxanı tərsinə geyinir, boynundan zınqrov asır, üzünə dəri bağlayırdı. Kəndirbaz oyunlarında belə bir inanc var idi ki, təlxəyin çıxışları kəndirbazı bədnəzərdən qoruyur. Diqqət yetirilsə, kəndirbazla təlxəyin oyununun növbəli, əlaqəli olduğunu müşahidə etmək olar. Kəndirbazın oyununu əslində təlxək tamamlayır, gərginləşmiş tamaşaçını əyləndirir, güldürürdü. Bəzi yerlərdə təlxəyi kəndirbazın yalançısı, təkəmasqara, sijimqulu, kədaqazi və s. adlarla adlandırırdılar.

Kəndirbaz oyununda gözətçinin də rolu az deyildir. O, tez-tez kəndiri yoxlayır, boşalıb-boşalmadığına nəzarət edir, musiqiçilərə və ya təlxəyə lazım olan ləvazimatları çatdırırdı. Tamaşa vaxtı gözətçi meydanda dövrə vurur, tamaşaçını müəyyən məsafədə saxlayır, əgər bir təhlükə yaranarsa, anında müdaxilə edirdi. Kəndirbaz oyununda istifadə olunan kəndir canbaz ipi adlanırdı. Ona tənəf, tənab, çarmıx da deyərdilər.

**Sim pəhləvanları** – Geniş yayılmış meydan oyunlarından biri də sim pəhləvanlarının tamaşaları idi. Kəndirbazlıqda

olduğu kimi, sim pəhləvanları da hazırlanmış geniş meydançalarda öz məharətlərini göstərirdilər. Meydana payalar basdırılır, möhkəm gərilmiş simlər buraya bağlanırdı. Bəzən bu simlər bir-birinə paralel olaraq 8-10 m arası ilə qoşa bağlanırdı. Tamaşanın adı da buradan meydana gəlmişdir. Sim pəhləvanları sim üstündə rəqs elementləri olan müxtəlif ritmik və akrobatik hərəkətlər edirdi. Onlar sim üstündə barmaqlarının, əllərinin üstündə gəzir, daş qaldırır, dişləri ilə daş atıb-tuturdular. Bəzi hallarda simin üstündə xüsusi təlim görmüş qızlar da çıxır, musiqinin müşayiəti ilə rəqs edirdilər.

Tamaşada xüsusi sazəndələr dəstəsi ilə təlxək də iştirak edirdi. Bəzən bu tamaşalarda aşıqlar da iştirak edir, saz çalırdılar. Sim tamaşalarında, adətən, iki gözətçi iştirak edirdi. Gözətçilər həm tamaşanın təhlükəsizliyinə-simlərə nəzarət edir, həm də asayişi qoruyurdular.

**Nər döyüşdürmə** – Bu döyüşdə əsasən qara dəvələr iştirak edirdi. Dəvələr böyük meydanlarda, talalarda döyüşdürülürdü. Döyüş zamanı dəvəçi dəvəsinin üstündə oturur, onu idarə edirdi. Əsas məqsəd dəvələri kəllə-kəlləyə gətirmək idi. Dəvələri qızışdırmaq üçün xüsusi mahnılar oxuyur, onları haylayırdılar. Döyüşə hazırlanan dəvə xüsusi qidalarla bəslənirdi.

Bu tamaşalar adətən bir neçə saat çəkirdi. Məğlub edilmiş nəri sahibi meydandan çıxarırdı. Bu vaxt nər ağlayır, sahibinin üzünə tüpürür, sürünərək dizin-dizin meydandan çıxırdı. Qalib gəlmiş nər də meydandan narazı çıxır, sahibindən küsürdü. Nadir hallarda döyüş vaxtı nərlərdən biri ölür, bu vaxt qalib gəlmiş nər meydanda dövrə vurub sakitləşir, ölmüş nərin yanına gəlib göz yaşı tökürdü. Ölmüş heyvanı meydandan götürmək çox çətin olurdu, çünki qalib nər buna imkan vermirdi.

**Buğa döyüşdürmə** – Buğa döyüşü xüsusi meydanlarda keçirilirdi. Birillik, ikiillik buğalar meydana gətirilir, yaşına

və çəkisinə görə seçilir, döyüş üçün qızışdırılırdı. Buğa sahibləri at üstündən döyüşü idarə edirdi. Qızışdırılmış buğalar bir-birinə dəfələrlə hücum edir, möhkəm döyüşürdülər. Buğalardan biri meydandan çıxıb qaçana qədər döyüş davam edirdi. Qaçan buğanın sahibi məğlub hesab edilirdi.

**Qoç döyüşdürmə** – Qoç döyüşü məşhur meydan tamaşalarından biri olmuş, həmişə çoxlu sayda tamaşaçı kütləsi toplamışdır. Döyüşdə ən seçmə, xüsusi bəslənmiş qoçlar iştirak edirdi. Döyüşlər yaşa görə üç kateqoriyada keçirilirdi: toğlu, şişək və öyəc. Toğlu birillik, şişək ikiillik, öyəc üçillik olurdı. Ağ qoçların boyunlarına xırda zınqrovlar asır, buynuzlarını, alınlarını və bədənini xına ilə çalın-çarpaz boyayırdılar. Döyüşdən əvvəl sahibi qoçu döyüşə sövq edən mahnılar oxuyur, onu tərifləyir, başını sığallayır, əzizləyirdi. Döyüş vaxtı da qoçu qızışdırmaq üçün oxuyur, hay-küy salırdılar.

Qoçlar döyüşdükcə qızışır, bir-birinə güclü kəllələr vururdular. Bəzən bu zərbələrdən onların buynuzları sınır, başları yarılırdı. Bu vaxt kimin qoçu yerindən tərpənsə idi, onu məğlub hesab edirdilər. Bu tamaşalar 2-3 saat çəkirdi.

**Xoruz döyüşdürmə** – Bu meydan tamaşası da böyük şəhərlərdə və qəsəbələrdə məşhur idi. Döyüşə hazırlanan xoruzu çolpalıqdan döyüşkən böyüdürdülər. Məxsusi qidalarla bəslənən xoruzlara bəzən kişmiş də yedirdir, gündə bir istiot dənəsi uddururdular. Belə xoruzlar al qana boyansalar da, meydanı tərk etmirdilər. Onlar həm dimdikləri, həm caynaqları ilə döyüşürdülər. Bu tamaşalar təxminən bir saat davam edirdi.

**Şahmat** – Bu stolüstü oyunun Hindistandan İrana gətirilməsi barədə iki fikir yürüdürlər: birinci, şahmat VI əsrdə hind şahı tərəfindən İran Sasani hökmdarı I Xosrov Ənuşirəvana göndərilmişdir. İkinci, şahmatı I Xosrov Ənuşirəvanın

saray həkimi Bərziyə “Kəlilə və Dimnə” kitabı ilə birlikdə Hindistandan gətirmişdir.

Mənbələr göstərir ki, şahmat 64 xanalı deyil, 100 xanalı olmuşdur. Yüz xanalı şahmata biz ancaq islamın yayılmasından sonrakı dövrlərdə meydana çıxan əsərlərdə rast gəlirik. Hindistandan başqa ölkələrə yayılan şahmat isə əslində 64 xanalı olmuşdur, XI əsrdə artıq 100 xanalı şahmat olmamışdır. Ərəblər İranda öyrəndikləri şahmatı özləri ilə birlikdə İspaniyaya apardıqları kimi, sasanilərin Azərbaycana köçürdükləri əhali şahmatı da özü ilə birlikdə gətirmişdi.

Məlumdur ki, Hindistandan Şərqin bir çox ölkələrinə yayılan çətrəng zər atmaqla davam edirdi: 1 xal piyada, 2 – fil, 3 – top, 4 – at, 5 isə şahdır. Zərin xalları ilə çətrəng fiqurlarının sayı bərabərdir. Ona görə də güman etmək olar ki, VI əsrdə İranda və Azərbaycanda oynanılan çətrəng oyunu bu cür zəri atmaqla davam etmişdir.

**Qalaqapı (qo)** − Bu stolüstü oyun qədim islam mədəniyyətinin incisi hesab olunur. Oyun Azərbaycanda qədim zamanlarda qara və ağ daşlarla deyil, qara və ağ kişmişlərlə oynanılıb. Ona görə də bu oyunu bəzən “kişmiş oyunu” da adlandırmışlar.

Oyuna qaralar başlayır. Digər stolüstü oyunlardan fərqli olaraq qalaqapı oyununda qaraların başlaması oyun lövhəsində qara daşın oyundaşın ürəyinə tərəf olan hissəyə qoyulması ilə (ürəyə yaxınlıq, səmimiyyət əlaməti olaraq) nəticələnir. Əvəzində isə “siftə” olaraq bir neçə qara daşın ağlara verilməsi, bir növ, oyundaşların savaş meydanında güclərini tarazlaşdırır. Sonra növbə ağlara keçir.

Prinsipcə, oyundaşlar növbə ilə lövhədə istənilən boş bəndə (xanaya yox) öz daşını qoya bilər. Lakin çalışmaq lazımdır ki, oyunun ilkin mərhələsində mənalı və strateji pro-

fessional seçimlər olsun. Hər bir seçimin özünəməxsus fəlsəfi izahı, məntiqi davamı, dünyagörüşü olmalıdır. Maraqlı odur ki, digər oyunlardan fərqli olaraq, qalaqapıda professional və həvəskarların da qarşıdurması mümkündür. Bu zaman daha güclü olan zəifə "dədəboyu" (şans) verir. Belə ki, dədəboyu bəndlərinə 9-a kimi sayda qara daşlar düzülə bilər.

Daha sonra qeyd etmək olar ki, hər hansı daşın lövhəyə qoyulması gediş yox, dov adlanır. Yəni oyundaşlar hər dəfə növbə ilə bir-birinə dov gəlirlər, öz güclərini artırırlar. Hər bir oyunda olduğu kimi, qalaqapıda da qadağa qoyulmuş dovların edilməsi mümkün hesab olunmur. Belə ki, bu zaman qarşı tərəf "kov deyil" deyərək oyundaşa daşını başqa bəndə qoymağı təklif edir. Oyunda yaranmış hər hansı vəziyyətin təkrarı da "kov deyil" qaydasına tabedir. Maraqlıdır ki, beynəlxalq aləmdə və hətta bütün dillərdə bu, kov qaydası kimi məşhurdur.

**Atüstü oyunlar** – Azərbaycanda at üstündə idman oyunları da çox qədim tarixə malikdır, bu oyunlar çox böyük bacarıq tələb edən meydan tamaşalarıdır. At üzərində müxtəlif hərəkət və oyunlar icra edən oyunçu atcanbazı, əsbəndaz, minici, cündi adlanır. O, atın üzərində müxtəlif hərəkətlər icra edir, qaçan atın belinə təkanla sıçrayır, atı çapa-çapa onun qarnının, boğazının altından keçir, ayaq üstə və ya başı üstə durur, əyilib yerdən müxtəlif əşyalar qaldırır, at üstündə libasını çıxarıb yenidən geyinir və s. bu kimi nömrələr nümayiş etdirir. Bununla yanaşı, o, at belində qılınc, xəncər, zorxana mili, tüfəng və başqa alətlərlə də hünər göstərir.

At üstündə oynanılan oyunlarından çovqan, cirit, sürpapaq, baharbənd, yaylıq, at belində güləş, cıdır, qızqov, gərdəkqaçırma, çoban oyunu, qopuq, piyalə və ox və s. oyunları daha geniş yayılmışdır. Orta əsrlərdə mövcud olmuş bir çox at oyunlarının adları, qaydaları bu günə qədər gəlib çatmışdır.

Bu atüstü oyunlar cıdır tamaşaları adlanırdı. Tamaşalar müəyyən hazırlıq tələb edirdi. Bu atların yemlənməsinin, suvarılmasının özünəməxsus qaydaları var. Yarış atlarına yaşıl yonca yeməyə icazə verilmir, yazqabağı onlara verilən arpaya kişmiş qatırlar. Oyunqabağı atlar nallanır, qaşovlanır, bəzədilirdi. Atın yüyənlərindən mis zınqrovlar asılır, qotazlı yəhərüstü xalçalar toxunurdu. Atları bəzəyən əsas rənglərdən biri qırmızıdır.

**Cıdır (sürək)** – At üstündə keçirilən oyunlardan ən geniş coğrafiyaya yayılan və populyar olanı cıdırdır. Burada bəzədilmiş atlar sıra ilə düzülür, işarə verilən kimi hamısı eyni anda çapırlar. Cıdır oyunlarında iştirak edən çaparların əsas məqsədləri finiş xəttinə birinci çatmaqdır. Cıdırın keçiriləcəyi yer, vaxt, qət olunacaq məsafə və finiş yeri əvvəlcədən müəyyən edilir. Yarış ənənəvi musiqinin, zurnaçılar dəstəsinin müşayiəti ilə keçirilir. Finiş xəttinə birinci çatan atlı yarışın qalibi sayılır və ona xonça təqdim olunur. Qalib çıxmış atın alnına bir yumurta vurub sındırılır, boynuna qırmızı kəlağayı və ya parça bağlanılır. İkinci və üçüncü yeri tutan iştirakçılara da müəyyən hədiyyələr verilir.

Cıdırdan sonra atoynatma başlayır. Atı iki dal ayağı üstə şahə qaldıraraq oynatmaq, maneələrin üstündən tullanmaq xüsusi məharət tələb edir. Çapan atın üzərində ayağa qalxmaq, atın qarnının altından keçmək, qaçan atdan yerə tullanmaq, yenidən atı saxlamadan minmək və s. müxəlif akrobatik hərəkətlər çaparların və xüsusi təlim görmüş atların birgə məharəti idi.

**Çovqan oyunu** – At oyunlarından ən qədimi çovqan oyunudur. Bu oyunun tarixi min ildən artıqdır. Bu oyunun əski qaynaqlarda "kuyiçovgan", "çomaq oyunu", "çövğabazi" adları ilə qeyd edilən başqa variantları da olmuşdur. Çovqan yarışlarının Azərbaycanda qədimdən məşhur olduğu barədə bir sıra faktlar var. Arxeoloji qazıntılar zamanı tapılan qab

üzərində çovqan oyununun təsvir edildiyi rəsm bu oyunun IX əsrdə Beyləqan şəhərində oynanıldığı və geniş yayıldığını güman etməyə əsas verir.

İki, yaxud üç hissədən ibarət olan bu oyunda atlarının rəngi bir-birindən fərqlənən, hər dəstədə 6-8, bəzən isə daha çox atlı iştirak edirdi. Bu oyun zamanı xüsusi təlim keçmiş atlardan istifadə olunurdu. Oyunun qaydaları sadədir və onu bugünkü futbol oyunu ilə müqayisə etmək mümkündür: atlı oyunçular iki komandaya ayrılır, topu əllərindəki ağac vasitəsilə rəqib qapısından keçirməyə çalışırlar.

Oyunda istifadə olunan topa "küy", topu vurmaq üçün istifadə olunan dəyənəyə isə "səvələcan" deyilir. Atüstü çovqan oyununun iştirakçısı "çovqanbar" adlanır. Çovqanbarın topu dəyənəklə yerdə sürütləyib irəli getməsinə "şütdəmə" deyirlər. Bu oyunda iştirak etmək üçün xüsusi atlar yetişdirilir. Bu atlara "çovqani" deyirlər. X-XI əsrlərdə Azərbaycanda "tabtab" və yaxud "tabtaba" adlanan, çovqana bənzəyən atüstü idman oyununa da təsadüf olunur.

Qarabağ atı ilə oynanılan çovqan oyunu 2013-cü ildə UNESCO-nun Qeyri-maddi Mədəni İrsin Reprezentativ Siyahısına daxil edilmişdir.

**At belində güləş** – Ən qədim meydan tamaşalarından biridir. At üstündə keçirilən zorxana oyunları oyunçudan yüksək fiziki hazırlıq və dözümlülük tələb edir. Bu oyunçular həm mahir at çapan, həm də ustad güləşçi olmalıdırlar. Özünəməxsus fəndləri və oyun qaydaları olan bu tamaşada at belindən düşən oyunçu 3 dəqiqə ərzində ata qalxa bilirsə, məğlub sayılmır. Bu müddət ərzində yenidən atın belinə qalxmaq insandan çəldlik, çeviklik tələb edir. Atüstü güləş atlı oyunlar içərisində ən çətini hesab olunur. Atlı güləşcilər eyni çəkidə olmalı, həm pəhləvanlıq, həm də at sürmə qaydalarını və

fəndlərini bilməlidirlər. Meydanda qarşılaşan oyunçular əl-ələ verib görüşür və oyuna başlayırlar. Oyunun əsas məqsədi rəqibi atdan salmaq və 5 dəqiqə müddətində ata minməsinə mane olmaqdır.

**Cirit (dəyənək)** – Bu, atüstü oyunların ən qədim və ən yaşarı olanıdır. Oyunun mahiyyəti iki komanda şəklində oynanılan oyunda atlı oyunçuların uzun dəyənəklərlə bir-birinə hücum etməsi, vurması və xal hesabı ilə qalib gəlməsidir. Dəyənək rəqib komandanın oyunçusuna atılarkən yerə düşərsə, bu, itirilmiş xal hesab olunur. Palıd və xurma ağaclarından hazırlanmış dəyənəklərdən yaralanmalar olduğu üçün hal-hazırda bu ləvazimat yüngül qovaq ağaclarından hazırlanır. Oyunun qaydalarına görə, rəqib tərəfindən atılan dəyənək göydə tutulmalıdır. Dəyənək atılarkən oyunçu müxtəlif manevrlər edərək atın altına keçir, ya da boynuna qısılır və bu zaman əgər dəyənək oyunçuya deyil, ata dəyərsə, bu da itirilmiş xal hesab olunur. Şərqi Anadoluda xalq arasında yaşayan və xüsusilə qış aylarında təşkil olunan bu atlı oyunu bu gün də böyük rəğbət və sevgi ilə oynanılır və izlənilir.

**Sürpapaq** – Bu oyun iki komandanın qrup halında oynadığı bir oyundur. 5-8 nəfərlik iki qrup halında oyuna başlanılır. Müəyyən müddət ərzində komandalar qapı dəyişməklə iki tur oynayırlar. Bu atüstü oyun müasir basketbol oyununu xatırladır. Papaq və ya xüsusi olaraq hazırlanmış xəz top halqadan keçirilməlidir. Papağı rəqibin halqasından daha çox keçirən komanda qalib hesab olunur. Oyunun qaydalarına görə yerə düşmüş papağı atdan enmədən götürmək lazımdır. Oyun zamanı oyunçular cəmi üç dəfə atdan yerə düşə bilərlər.

**Papaq** – Bu oyun komanda halında və ya tək olaraq oynanıla bilər. Oyunun iştirakçısı müəyyən vaxt ərzində öz papağını başında saxlamağı bacarmalı, eyni zamanda rəqib

komandadakı oyunçulardan da iki papaq götürməlidir. Bütün atüstü oyunlarda olduğu kimi, bu oyunda da çevik və cəld olmaq, oyun manevrlərindən doğru istifadə etmək lazımdır.

Regionlarda oyunun bir neçə variantı mövcuddur. Bəzi bölgələrdə toyda bəyin başından papağı atlı bir oyunçu alıb qaçır, bəy papağını geri almaq üçün mübarizə aparır. Başqa bir variantda iki oyunçu eyni yerdən cıdıra çıxır, irəli çıxan geri qalanın papağını alıb qaçırdı. Bu oyunda qalib gəlmək üçün əsas şərt xüsusi təlim görmüş atları doğru şəkildə idarə etmək, gözəl minici olmaqdır.

**Baharbənd** – Yarış xarakterli bu oyun yaz aylarında, adətən Novruz bayramında təşkil olunduğu üçün baharbənd adlanmışdır. Yarışçılar çətin yollarda və xüsusi bəndlərdə at sürdükləri üçün bu oyunda yalnız mahir çaparlar iştirak edirlər. Oyunçu atı yorğa çaparaq papağını, tüfəngini, kəmərini, nəhayət, çuxasını çıxararaq əvvəlcədən təyin olunmuş yerlərə atır. Geri dönərkən isə tulladığı geyimini atdan düşmədən növbə ilə geyinir. Ən sonda silahını yerdən qaldırıb belinə asır. Oyun keçirilən sahənin uzunluğu adətən 100-150 m olur.

**Yaylıq** – Meydan tamaşalarımızın əsas hissəsini təşkil edən atüstü oyunlarının biri də yaylıq oyunudur. Oyun zamanı əvvəlcədən müəyyən yerlərə yaylıqlar qoyulur. Oyunçular atı çaparaq yaylıqları götürməlidirlər. Müəyyən məsafələrdə qoyulmuş yaylıqları daha çox toplayan qalib hesab olunur. yaylıq oyununun başqa bir variantında oyunçu müəyyən hündürlükdən atılmış yaylığı atını çapa-çapa yerə düşmədən ya ov tüfəngi ilə vurur, ya xəncər, ya da qılıncla kəsir.

**Gərdəkqaçırma** – Bu oyun yalnız toy günü qızın cehizinin oğlan evinə aparıldığı zaman keçirilir. Qız evinin adamları gərdəyi ancaq öz qohumlarına verir ki, oğlan evindən xələt ala bilsin. Bu zaman mərasimdə iştirak edən bütün atlılar

gərdəyi ələ keçirmək və birinci oğlan evinə verib nəmər almaq üçün mübarizə aparırlar.

**Qızqov** – Atüstü meydan oyunlarından biridir. Qızqov oyununda çeviklik və minicilik qabiliyyəti ilə yanaşı, teatrlaşmış xalq tamaşalarının izlərini də görmək mümkündür. İki atlıdan – qız və oğlandan ibarət oyunçular yarışa çıxır. Oyunun şərtlərinə görə, qız 12-15 metr daha irəlidən oyuna başlayır. Oyun meydançası 400-500 metr uzunluqda sahədən ibarət olur. Çaparlar arasındakı məsafə daralsa və oğlan qıza çatıb tuta bilsə, onu öpmək haqqı qazanır. Geri qayıdan zaman isə qaydalar dəyişir, indi qız oğlanı qovur. Əgər qız oğlana çatsa, onu qamçılayır. Bu zaman oğlan zərbələrdən yayınmaq üçün yəhərin sağına və ya soluna əyilir, yalvararaq qızdan kömək istəyir. Geniş tamaşaçı rəğbəti toplayan bu oyun yayla əyləncələrinin tərkib hissəsi olub, gənclərin fiziki hazırlığını da nümayiş etdirir.

**Gücsınağı** – Güc sınağı atüstü oyunumuzdan biridir. Bu zaman atlı çaparaq qabaq və arxa ayaqları bağlanmış qoyun və ya keçini yerdən götürüb yəhərə qaldırmalıdır. Oyunun əsas məqsədi güc, çəldlik, sərrastlıq, dəqiqlik kimi fiziki keyfiyyətləri üzə çıxarmaqdır. Yerdəki 26 kiloqrama qədər ağırlığı olan qoyunu çaparaq əyilib yerdən götürmək, yəhərə qaldırmaq və lazımi məsafəyə qədər aparmaq, həqiqətən də, güc sınağıdır. Bu oyun bölgələrdə bir az fərqlidir. Bəzən oyunun adına oğlaq oyunu da deyilir.

**Çoban oyunu** – Əsasən çobanlar tərəfindən oynanıldığı üçün belə deyirlər. Bu atlı oyun ot üzərində xokkeyi xatırladır. O, komanda oyunudur və hər komandada üç və ya beş nəfər iştirak edir. Oyun vaxtı ağac oyunçunun əlindən düşərsə, onu atdan düşüb götürə bilməz, mütləq atın üstündə ikən götürməlidir. Atdan düşmək oyunu tərk etmək deməkdir. Mü-

barizə top uğrundadır və onu eni üç metr olan qapılardan keçirmək lazımdır.

**Atlı oxatma və qılıncoynatma** – Atüstü oyunlarımızdan hesab olunan atlı oxatma və atlı qılıncoynatma da müasir döyüş idman növü kimi meydan tamaşalarında nümayiş olunur. Bu oyunlar geniş ərazidə və xoş havalarda təşkil olunur.

Oxatma həm atlı, həm piyada oyunçular arasında da keçirilmişdir. Yarışmalarda yüksək yerdən atılan almanı havada vurmaq, qırx oxu eyni hədəfdən keçirmək, üzük halqasından ox keçirmək və s. şərtlər yerinə yetirilir. At üstündə oxatma uzun müddətli məşqlərlə həm oyunçunun, həm də atın səriştə qazanmasını tələb edən bir oyun növüdür. Bu oyunda atın hürkməməsi üçün onu yavaş-yavaş alışdırmaq, əvvəlcə atdan uzaqda oxatma təlimlərinə başlamaq, yavaş-yavaş ata yaxınlaşaraq məşq etmək və nəhayət, at üzərində təlimlərə davam etmək lazımdır. Məşqlər zamanı atın oxu və yayı qoxulamasına izin verilməlidir. Mahir ox atanlar hətta hədəfi atın boynunun altından nişan alaraq vura bilirlər.

Qılıncoynatma da atlı və piyada keçirilən oyunlardandır. Bu oyunda nisbətən yüngül qılınc istifadə olunur. Oyunçulardan birinin qılıncı sınana və ya əlindən düşənə qədər oyun davam etməlidir. Atla qılıncoynatmada atdan düşmək də məğlub olmaq hesab edilirdi.

At üstündə oxatma kimi, atüstü qılıncoynatma da ciddi məharət və çəldlik tələb edən bir oyundur. Bu oyunlar adətən Novruz bayramında keçirilir və qaliblərə Novruz nəməri verilirdi.

**Qopuq** – Atla oxatmada at çaparaq hədəfi nişan almaqla bağlı bir neçə oyun növü mövcud olmuşdur. Atla oxatma növlərindən biri olan qopuq zadəgan sinfinin saraylarda oynadığı idman növü idi. Hündür dirəyin başına qoyulmuş qızıl

cam oxla vurulub salınmalı idi. Sanki dirəkdən cam qoparılırdı, oyunun adı da buradan yaranmışdır. Bu oyun hərbi əhəmiyyətli oyun kimi çox şöhrət qazanmışdı və igidlik sınağı sayılırdı.

**Piyalə və ox** – Atlı oxatmaya başqa bir misal olaraq piyalə və ox oyununu nümunə göstərmək olar. Bu oyun daha sadə insanlar arasında oynanılır və qızıl camı piyalə əvəz edirdi. Oyunda məqsəd xüsusi dirəyin üzərindəki piyaləni atı çaparaq oxla vurmaqdır. Burada nişangah piyalə və ya hər hansı bir əşya da ola bilər. Bu oyun bir neçə variantda oynanılır. Piyalə və ox oyunu iştirakçılardan dəqiqlik və çəldlik tələb edir. Atın üstündə sürətlə hərəkət edərkən piyaləni dəqiq nişan almaq üçün həm də sərrastlıq tələb olunur.

## Son söz

IV İslam Həmrəyliyi Oyunları bu il Azərbaycanda keçiriləcək. Bu oyunlara ev sahibliyinə Azərbaycanın seçilməsi heç də təsadüfi deyildir. Azərbaycan qədimdən bəri müxtəlif xalqların bərabər, mehriban yaşadığı məkan olmuşdur. Ümumiyyətlə, multikulturalizm Azərbaycan xalqının həyat tərzidir desək, yanılmarıq, çünki bizdə onun möhkəm təməli və tarixi əsasları vardır. Bütün xalqlarla dinc, yanaşı yaşamaq, dini və milli azlıqlara hörmətlə yanaşmaq, tolerantlıq burada həmişə üstün səviyyədə olmuşdur.

Hər bir xalqın və cəmiyyətin təkamülündə milli oyunların, tamaşaların əvəzsiz rolu olmuşdur. Xalqların ilkin təsəvvürləri, həyata baxışı bu oyunlarla ifadə olunmuşdur. Oyunlar mövzu, məzmun, yaranma yolu və formaları baxımından da çox zəngin, rəngarəngdir. Bu oyunları birləşdirən əsas nüans isə insanlar və eyni zamanda xalqlar arasında həmrəylik, xoş əhval-ruhiyyə, ən başlıcası səmimiyyət yaratmaqdır.

Fiziki hazırlıqla yanaşı, qədim idman oyunları xoş zaman keçirtməyi, əyləncəni, istirahəti də əhatə edən geniş məhfumdur. Buna görədir ki, qədimdən bəri bütün xalqlarda idman həm bədənin, həm də ruhun başlıca tərbiyə metodlarından biri hesab olunur. Əqli və stolüstü oyunlar da xüsusilə Şərq aləmində müdrikliyə, dərin biliklərə təkan olmuşdur.

Bu kitab hansı zərurətdən yarandı və necə meydana gəldi? İslam Həmrəyliyi Oyunları ərəfəsində dövlət və qeyri-dövlət təşkilatlarının keçirdiyi onlarla tədbiri müşahidə etdikdən belə qərara gəldik ki, bu oyunlar çərçivəsində çoxlu sayda idman növləri diqqətdən kənarda qalır. Ümumiyyətlə, islam coğrafiyasında oynanılan oyunlara həsr olunmuş küll halında

heç bir mənbə yoxdur. Biz də buradan yola çıxaraq İslam Həmrəyliyi Oyunlarına töhvə vermək məqsədi ilə ədəbiyyat, foklor, idman, tarix, etnoqrafiya və arxeologiya sahəsindəki bir sıra mənbələri bir yerə topladıq.

Oyunlar ərəfəsində ölkəmizdə gündəmə gələn islam coğrafiyasında xalq oyunlarının qədim qatlarını açaraq onları coğrafi, milli arealda növünə, tipinə və s. görə təsnif etdik. Oyunlar, onlara hazırlıq mərhələsi, yarışların, festivalların, bayramların, əyləncələrin keçirilməsi, tamaşalar, mərasimlər haqqında olan məlumatlara yer verdik. İslam ölkələrində bir-biri ilə səsləşən hansı ortaq oyunlar, meydan tamaşaları var, onlar praktik olaraq necə icra olunur? Kitabda məhz bu suallar cavablandırılır.

Kitab 3 hissə halında nəzərdə tutulmuşdur. Burada islam ölkələrində oynanılan, demək olar ki, xalqların yaranma tarixi ilə yaşıd olan xalq oyunları və ənənəvi idman oyunları sistemləşdirilmişdir. Bütün islam coğrafiyası oyunlarını əhatə edən bu kitab bu baxımdan bir ilkdir. Kitabın hazırlanmasında ərəb, türk, rus, ingilis və s. dillərdə mənbələrə müraciət olunmuşdur.

Birinci hissədə İslam Həmrəyliyi Oyunlarının tarixi və Azərbaycanda keçiriləcək IV Həmrəylik Oyunlarına ciddi hazırlıq və təşkilatı məsələlərindən bəhs edilmişdir. İslam Əməkdaşlıq Təşkilatının üzvləri və müşahidəçiləri olan ölkələr haqqında tək-tək məlumat verilmişdir.

İkinci hissədə islam coğrafiyasında oyunlardan küll halında bəhs edilmişdir. Mümkün qədər bütün ölkələrə, xalqlara müraciət olunmuşdur. Bu hissə milli və ənənəvi idman oyunları şəklində iki bölüm halında yazılmışdır. Müxtəlif islam ölkələrində oynanılan ənənəvi idman oyunlarının çoxu haqqında ilk dəfə bu kitabda məlumat verilmişdir. Daha çox üstünlük təşkil edən hərbi hazırlıq məqsədi daşıyan, güc tələb

edən atçılıq, oxçuluq, güləş və s. oyunlar haqqında ətraflı bilgi verilmiş, həmçinin, əyləncə, fiziki hazırlıq, əqli inkişaf üçün oynanılan oyunlardan da nümunələr verilmişdir.

Araşdırma zamanı islam coğrafiyasında atla, güləşlə bağlı olan oyunların bir-birinə çox bənzədiyini görürük. Bu da oyunların ortaq düşüncə və həyat tərzindən doğduğunu bildirir. Oyunlar arasındakı fərqlər isə coğrafi şərait və iqlimlə əlaqəlidir. Ən başlıcası, əlimizdəki materiallar idrakı inkişaf etdirən şahmat, nərd və digər stolüstü oyunların Şərqdə doğulub islam coğrafiyasında təkmilləşərək Avropaya qədər yayıldığını göstərir. İslam dünyasında oynanılan bu oyunlar bu və ya digər dərəcədə bir-birindən fərqlənsələr də, mahiyyət etibarı ilə eynidirlər. Bu da eyni mədəni tarixi kökləri, dini, milli tolerantlığı ifadə edir.

Kitabın son hissəsində isə İslam Həmrəyliyi Oyunlarının keçiriləcəyi Azərbaycana məxsus olan oyunlar iki bölümə ayrılmışdır. Bu bilgilər gələn xarici qonaqlara ölkəmizi tanıtmağa xidmət edir. Azərbaycanda oyunlar meydan, mərasim, əyləncə və idman xarakterli olub ənənəvi, milli mahiyyəti əks etdirir. Hər xalqın mədəni həyatının süzgəcindən keçən və yaşamaq hüququ qazanan oyunlar o xalqın milli kimliyini əks etdirir. Azərbaycanda oynanılan bu oyunlar da xalqımızın sərvəti və mədəni irsidir.

Güman edirik ki, bu kitabla islam coğrafiyasında və həmçinin Azərbaycanda meydan və xalq oyunları, eləcə də ənənəvi idman oyunları haqqında aydın mənzərə yarada bildik.

# İstifadə olunmuş mənbələr

**Azərbaycan dilində:**

**Aslanov E.** El-oba oyunu xalq tamaşası: xalq oyun-tamaşa mədəniyyətimizdə deyim və adların izahlı söz kitabı. Bakı: İşıq, 1984.

**Azərbaycan folkloru antologiyası.** 23 cilddə, X c., İrəvan çuxuru folkloru / Toplayıb tərtib edənlər İsmayılov H., Ələkbərli Ə. Bakı, Səda, 2004.

**Bayat F.** Xalq teatrı və ya meydan tamaşaları // "Ümumtürk kontekstində Qarabağ xalq oyunları və meydan tamaşaları" mövzusunda Beynəlxalq Elmi Konfransın materialları. Bakı: Elm və təhsil, 2014.

**Dadaşzadə M.** Azərbaycan xalq bayramları, oyun və əyləncələri / Azərbaycan EA Arxeologiya və Etnoqrafiya İnstitutu. Bakı: Elm, 1995.

**Əskər N.** Aşığın çıxış etdiyi meydanlar // "Ümumtürk kontekstində Qarabağ xalq oyunları və meydan tamaşaları" mövzusunda Beynəlxalq Elmi Konfransın materialları. Bakı: Elm və təhsil, 2014.

**Əskər N.** Meydan tamaşaları və zorxana oyunları // AMEA Folklor İnstitutu. "Dədə Qorqud" toplusu. 2016. №1.

**Həkimov M.** Oğuz tərəkəmə xalq mərasimləri və meydan tamaşaları. Bakı: Maarif, 1997.

**Xəlil A.** Çövkan oyununun xarakteri: oyun at üstündə oynanılan futbolu xatırladır // "Xalq cəbhəsi" qəzeti. 2015, 9 iyun.

**“İslam coğrafiyasında və Azərbaycanda xalq** oyunları və meydan tamaşaları” mövzusunda Beynəlxalq Elmi Konfransın materialları. Bakı: Elm və təhsil, 2016.

**Kazımoğlu M.** Xalq gülüşünün poetikası. Bakı: Elm, 2006.

**Kazımoğlu M.** Eposda gülüş // Elmi araşdırmalar, VIII buraxılış. Bakı, 2005.

**Kazımoğlu M.** Dərvişlər: sehrkarlıq və oyunbazlıq // “Dədə Qorqud” toplusu. – 2005. №4.

**Qarabağ: folklor da bir tarixdir.** VI kitab (Cəbrayıl, Kəlbəcər və Tərtər rayonlarından toplanmış folklor örnəkləri). Toplayıb tərtib edın Süleymanova L. Bakı, Zerdabi LTD MMC, 2013.

**Quliyev Ş.** Azərbaycanda şahmatın tarixi. Bakı, CBS poliqrafiya mərkəzi, 2012.

**Quliyev Ş.** Nərd oyunu. Bakı, Yazıçı, 1985.

**Mustafa S.** “Şir şəbehi” Təbrizdə // “İslam coğrafiyasında və Azərbaycanda xalq oyunları və meydan tamaşaları” mövzusunda Beynəlxalq Elmi Konfransın materialları. Bakı: Elm və təhsil, 2016.

**Nəbiyev A.** El nəğmələri, xalq oyunları. Bakı, Azərnəşr, 1988.

**Novruz bayramı**. Bakı, Yazıçı, 1990.

**Rəhimli İ.** Azərbaycan teatr tarixi. Bakı: Çaşıoğlu, 2005.

**Rüstəmzadə İ.** Qarabağda “Padşah oyunu” // “Ümumtürk kontekstində Qarabağ xalq oyunları və meydan tamaşaları” mövzusunda beynəlxalq elmi konfransın materialları. Bakı, Elm və təhsil, 2014.

**Seyidov M.** Yaz bayramı. Bakı: Gənclik, 1990.

**Sultanlı Ə.** Azərbaycan dramaturgiyasının inkişaf tarixindən, Bakı: ADN, 1964.

**Süleymanova L.** Xalq mərasimlərində nəğmələr (“Bənövşə, Bənövşə”, “Cəhribəyim”, “Tunqay Məlik”, “Dumbul Bəkir” oyunları əsasında) // “Ümumtürk kontekstində Qarabağ xalq oyunları və meydan tamaşaları” mövzusunda Beynəlxalq Elmi Konfransın materialları. Bakı, Elm və təhsil, 2014.

**Şamil Ə.** Novruz bayramında “Xan bəzəmə” və oradakı arxaik ünsürlər // Azərbaycan şifahi xalq ədəbiyyatına dair tədqiqlər, Bakı: Nurlan, XXXI cild, 2009.

**Şəhriyar Q.** Folklor və nərd // “Dədə Qorqud” toplusu. 2005, №2.

**Şəhriyar Q.** Klassiklərimiz və şahmat // “Xəmsə” qəzeti, 2005, 20-27 fevral.

**Şəhriyar Q.** Xalq oyunları və mərasim tamaşaları (Qarabağdan toplanmış materiallar əsasında) // “İslam coğrafiyasında və Azərbaycanda xalq oyunları və meydan tamaşaları” mövzusunda Beynəlxalq Elmi Konfransın materialları. Bakı: Elm və təhsil, 2016.

**“Ümumtürk kontekstində Qarabağ xalq oyunları** və meydan tamaşaları” mövzusunda Beynəlxalq Elmi Konfransın materialları. Bakı, Elm və təhsil, 2014.

**Türk dillərində:**

**Beden Eğitim ve Sport Bilgileri.** Bişkek, 2016.

**Delice H.İ.** Hulasa Okçuluk ve Atçılık, Hüseyin b. Ahmed el Erzurumî, Kitabevi, İstanbul, 2003.

**Дене тарбия жана спорт жарчысы** / Вестник физической культуры и спорта. Бишкек, 2016.

**Kaya D.** Kırgızlar’ın Millî Oyunu Kökbörü // İzzet Gündağ Kayaoğlu Hatıra Kitabı- Makaleler, İstanbul, 2005.

**Кыргыз этнографиясы боюнча сөздүк** / Тузгендер: О. Каратаев, С. Эралиев. Бишкек: Бийиктик, 2005.

**İslam kültürü** (çeşitli konuları ile) 5. Cilt. İslamda kültür ve bilgi / editör İhsanoğlu E. İstanbul, Kültür bakanlığı yayınları. 2008.

**İslam Ansiklopedisi**, 8. Cilt, İstanbul, İSAM Türkiye Diyanet Vakfı İslâm Araştırmaları Merkezi ,1993.

**İslam Ansiklopedisi**, 36. Cilt, İstanbul, ISAM, Türkiye Diyanet Vakfı İslâm Araştırmaları Merkezi, 2009.

**Öztopçu K.** Kitâb fi-ilim an-Nuşşâb, Memlûk Kıpçakçasıyla 14. y.y.'da Yazılmış Bir Okçuluk Kitabı. Türk Dilleri Araştırmalan Dizisi, İstanbul, 2002.

**Токтобаев С. Оспурумдор ойундары.** Бишкек, 1991.

**Турк элдеринин салттуу спорттук оюндары** - Türk Halklarının Geleneksel Spor Oyunları / Тузгендер: А. Мокеев, Ф. Унан, О. Каратаев, О. Йорулмаз, Ж. Алымбаев, Ж. Буйар. Бишкек, 2015.

**Umetov T. E.** Orta Asya ve Kazakistan Halk Oyunları. Moskova, 2016.

**Ülkütaşır M.Ş.** Çevgan ve Gökbörü // Türk Kültürü. 1967, Temmuz.

**Yücel Ü.** Türk Okçuluğu. Ankara, Atatürk Kültür Merkezi Başkanlığı yayınları, 1999.

**Rus dilində:**

**Авдеев А.Д.** Происхождение театра. Ленинград; Москва, 1959.

**Антонова Е.В.** Очерки культуры древних земледельцев Передней и Средней Азии. Москва, 1984.

**Анучин Д.Н.** Сани, ладья и кони как принадлежность погребального обряда // Древности. Москва, 1890. Т. 14.

**Ардзинба В.Г.** Ритуалы и мифы древней Анатолии. Москва, 1982.

**Байбурин А.К.** Ритуал в традиционной культуре. Структурно-семантический анализ восточнославянских обрядов. Санкт-Петербург: Наука, 1993.

**Бернштейн Б.М.** Традиция и социокультурные структуры // Советская этнография. 1981. № 2.

**Дробницкий О., Левада Ю.** Ритуал // Филос. энциклопедия. Москва, 1967. Т. 4.

**Исследования по общей этнографии.** Москва, 1979.

**Ольдерогге Д.А.** Сумаоро – царь кузнецов и древняя культура Западной Африки // Africana: Этнография, история, лингвистика (ТИЭ, 1969; Т. 93).

**Пасто Тармо А.** Заметки о пространственном опыте в искусстве // Семиотика и искусствометрия. Москва, 1972.

**Першиц А.И.** Проблемы нормативной этнографии // Исследования по общей этнографии. Москва, 1979.

**Пропп В.Я.** Фольклор и действительность // Русская литература, 1963, №3.

**Редер Д.Г.** Культура Древнего Египте. Москва, 1976.

**Сборник материалов для описания местностей** и племён Кавказа, вып. XIII, Тифлис, 1892.

**Сборник материалов для описания местностей** и племён Кавказа, вып. XXI, Тифлис, 1896.

**Стасов В.В.** Коньки на крестьянских крышах. Москва, Изв. Археол. о-ва. 1861. Т. 3.

**Стельмах О.Д., Чернушевич В.А.** Профессиональная практика будущих педагогов-психологов с использованием народных игр // Социальная педагогика. 2012. №5.

**Чернушевич В.А.** Народная игра (фольклор) как психокоррекционный ресурс юридической психологии // Психология и право, 2012. № 4.

**Чернушевич В.А.** Экспериментальное исследование психоэмоциональных ресурсов народных игр (фольклора) // Психология и право, 2014, № 1.

**Чистов К.В.** Семейные обряды и обрядовый фольклор // Этнография восточных славян. Москва, 1987.

**Ərəb dilində:**

الخيل و الفروسية عند العرب (http://www.lakii.com/vb/a-13/a-360560/)

خالد بيومي، الفروسية عند العرب إلهام الشعر والبطولة (http://www.arrafid.ae/195_p10.html)

اداب الفروسية عند العرب، عبود قرة، دار الملايين، 2000

عبد العزيز صلاح سالم: مصر أصل الرياضة في العالم؛ القاهرة، دار المعارف، 2001

الألعاب الشعبية في بلاد الشام، خليل محمود الصمادي (http://www.alukah.net/culture/0/150/)

الألعاب الشعبية في الامارات (http://arabic-bstan.ahlamontada.com/t150-topic)

الألعاب الشعبية القديمة في السعودية تبث روح التنافس في الماضي (http://www.aleqt.com/2012/05/10/article_655430.html)

الألعاب الشعبية (/http://culture.gov.bh/ar/theevents/s,3982/s,3993/hf2015/s,4377)

الألعاب الشعبية الفلسطينية (http://info.wafa.ps/atemplate.aspx?id=9517)

**İnternet saytları:**

http://azerihorsetourism.wix.com/ratm#!blank-1/cxxj
http://bilimdili.com/dusunce/geleneksel-uygur-sporlari-ve-erillik/
http://haltalem.ahlamontada.com/t46-topic
http://kimvekil.com/
http://kirkpinar.org/oyunlar
http://kmb3.kloop.asia/uluttuk-oyundar/
http://kyrgyzinfo.ru/tekst/uluttuk-oyundar-kyrgyz-oyundary.html
http://ozetler.xyz/index.php?newsid=60925
http://tamassinte.blogspot.com/2012/08/blog-post.html
http://www.ayrintiblog.com/2015/02/ask-oyunu.html?m=1
http://www.bilgicik.com/yazi/turklerde-gures/
http://www.cokbilgi.com/yazi/asik-oyunu-tarihi-turk-eglencesi/
http://www.dem.kg/ru/article/22067/toguz-korgool-natsionalnaya-intellektualnaya-igra-kyrgyzskogo-naroda
http://www.dunyabizim.com/dunyada-kultur/18011/kirgiz-gelenekleri-dunyaya-tanitildi-video
http://www.gelenekselfed.gov.tr/
http://www.kulturelbellek.com/turklerde-av-ve-avcilik/
https://az.wikipedia.org/wiki/Zorxana
https://tr.m.wikipedia.org/wiki/Cirit

https://www.facebook.com/shurubu.kayhan/posts/1239551986112480

**Гридина Т.А.** Ментальные ориентиры ономастической игры в малых фольклорных жанрах / http://virlib.eunnet.net/proceedings/N200 l/win/41/html

**Zeynalov M.** Bədənin və ruhun güçü. 2015 // http://regionplus.az/az/articles/view/4733

**Gürdal İ.** Atlı okçulukta at ve binici eğitimi // http://an-ok.com/yazi/atli-okculukta-at-ve-binici-egitimi/

# Mündəricat

**İslam Həmrəyliyi Oyunları ..................................... 3**

İslam Əməkdaşlıq Təşkilatının üzvləri
və müşahidəçiləri ........................................................ 7
*Azərbaycan* ........................................................ 7
*Albaniya* ........................................................ 8
*Banqladeş* ........................................................ 8
*Benin* ........................................................ 9
*Birləşmiş Ərəb Əmirlikləri* ................................ 10
*Bəhreyn* ........................................................ 11
*Bruney* ........................................................ 12
*Burkina-Faso* ................................................... 13
*Cibuti* ........................................................ 13
*Çad* ........................................................ 14
*Əlcəzair* ........................................................ 15
*Əfqanıstan* ........................................................ 16
*Fələstin dövləti* ................................................. 17
*İndoneziya* ........................................................ 18
*İordaniya* ........................................................ 18
*İraq* ........................................................ 19
*İran* ........................................................ 20
*Kamerun* ........................................................ 21
*Komor adaları* ................................................... 22
*Kot-d'İvuar* ........................................................ 23
*Küveyt* ........................................................ 24
*Qabon* ........................................................ 25
*Qambiya* ........................................................ 25

*Qayana* .......................................................... 26
*Qazaxıstan* ...................................................... 27
*Qətər* ............................................................... 28
*Qırğızıstan* ...................................................... 29
*Qvineya* ........................................................... 30
*Qvineya-Bisau* ................................................ 31
*Livan* ............................................................... 32
*Liviya* .............................................................. 33
*Mavritaniya* .................................................... 34
*Malayziya* ........................................................ 34
*Maldiv adaları* ................................................ 35
*Mali* ................................................................. 36
*Mərakeş* .......................................................... 37
*Misir* ............................................................... 38
*Mozambik* ........................................................ 39
*Niger* ............................................................... 40
*Nigeriya* .......................................................... 41
*Oman* ............................................................... 42
*Özbəkistan* ...................................................... 43
*Pakistan* .......................................................... 43
*Seneqal* ........................................................... 44
*Səudiyyə Ərəbistanı* ...................................... 45
*Somali* ............................................................. 46
*Sudan* .............................................................. 47
*Surinam* ........................................................... 48
*Suriya* ............................................................. 49
*Syerra-Leone* .................................................. 50
*Tacikistan* ....................................................... 51
*Toqo* ................................................................ 51
*Tunis* ............................................................... 52
*Türkmənistan* ................................................. 53

*Türkiyə* ........................................................... 54
*Uqanda* ........................................................... 55
*Yəmən* ........................................................... 55

Müşahidəçilər
*Bosniya və Hersoqovina* .................................. 57
*Mərkəzi Afrika Respublikası* ............................ 57
*Tayland* ........................................................... 57
*Rusiya* ........................................................... 58
*Şimali Kipr Türk Respublikası* ......................... 58

**İslam coğrafiyasında oyunlar.................................59**

Xalq oyunları ........................................................ 61
*Məzhəkəçilər* .................................................... 61
*Məddahlar* ........................................................ 62
*Kukla-kölgə oyunçuları* .................................... 63
*Köhnə dəniz fənəri oyunu* ................................ 63
*Şeyx Talehin oyunu* .......................................... 64
*Çadır xəyal* ...................................................... 66
*Əlcək kuklalar* .................................................. 66
*Qaragöz oyunları* ............................................. 68
*Qızıqcılıq* ......................................................... 68
*Sapsata* ............................................................ 68
*Moqoladi* .......................................................... 68
*Masqarabaz* ...................................................... 69
*Xəyal (müxəyyilun)* .......................................... 69
*Mərgi-tamaşa* ................................................... 69
*Folklorun milli festivalları* ............................... 70
*Şəbeh tamaşaları* .............................................. 71
*Şir şəbehi* ......................................................... 72
*Dorvoz (darvaz)* ................................................ 72

Ənənəvi idman oyunları.............................................74
*Ağ-qara* ............................................................ *78*
*Aştapad* ............................................................ *78*
*Atçılıq və at yarışları* ........................................ *79*
*Atlı oxçuluq* ..................................................... *80*
*Bəygə (babiqa)* ................................................. *82*
*Bouzkaçi* .......................................................... *82*
*Budhipal* .......................................................... *83*
*Bukaçəkmə* ....................................................... *83*
*Cəbbinq* ............................................................ *83*
*Cirit* .................................................................. *83*
*Cop* ................................................................... *84*
*Çana (xizəksürmə)* ............................................ *84*
*Çaturanqa* ......................................................... *84*
*Çöğen (çukanyon-bandal)* ................................ *84*
*Daivapal* ........................................................... *85*
*Dambə* .............................................................. *85*
*Dəmir top* ......................................................... *85*
*Dəvə döyüşü* ..................................................... *86*
*Dəvə üzərindən tullanmaq* ................................ *86*
*Doqquz korqol* ................................................... *86*
*Döymə* .............................................................. *86*
*Əba güləşi* ........................................................ *87*
*Ər güləşi* .......................................................... *87*
*Güləş* ............................................................... *87*
*Xasət* ............................................................... *88*
*İcu oyunu* ......................................................... *89*
*Kərabi* .............................................................. *89*
*Kokböri (yaşıl qurd)* ......................................... *90*
*Kopkar ulaq* ...................................................... *90*
*Kökbörü* ........................................................... *90*

*Kuşti* ............................................................. 91
*Qaraqucaq güləşi* ............................................. 92
*Qasinq (fırfıra)* ................................................ 92
*Qəfazə* ............................................................ 92
*Qılıncoynatma* .................................................. 93
*Qız quu* ........................................................... 93
*Qız quumay* ..................................................... 93
*Qur`a və təxmin* ............................................... 94
*Qurşaq güləşi* .................................................. 94
*Ləcdir* ............................................................. 94
*Mankala* ........................................................... 95
*Matraq* ............................................................ 96
*Mizraq (hərbə-qarğı)* ........................................ 96
*Nayzə-bazi* ....................................................... 96
*Nevarteşir* ........................................................ 97
*Nərd* ................................................................ 97
*Niqaf* ............................................................... 97
*Nizəatma* .......................................................... 98
*Oxatma* ............................................................ 98
*Örkənçəkmə* ..................................................... 99
*Rab* ................................................................. 99
*Rəhvan (yorğa)* ................................................. 99
*Samiduh* ........................................................... 99
*Sənəd* ............................................................. 100
*Səyirtmə (qaçış)* ............................................. 100
*Səyis* .............................................................. 100
*Sibaq-taqrav* .................................................... 101
*Şalvar güləşi* .................................................... 101
*Şətrənc* ........................................................... 102
*Tənqəlü* .......................................................... 103
*Təpük (futbol)* ................................................. 103

*Tətyir* ............................................................. 103
*Tımak* ............................................................. 104
*Toxmaq* ........................................................... 104
*Top oyunu və çovqan* ........................................ 104
*Üzgüçülük* ....................................................... 105
*Yağlı güləş* ...................................................... 105
*Yıxışma (güləş)* ................................................ 106

**Azərbaycanda oyunlar..........................................107**

Ənənəvi oyunlar və meydan tamaşaları .................... *109*
*Aşıq məclisləri* ................................................ 110
*Şəbih tamaşaları* .............................................. 111
*Qodu-qodu* ....................................................... 113
*Cütcü şumu* ...................................................... 114
*Yel-baba* .......................................................... 114
*Kövsəc* ............................................................. 114
*Masqara tamaşaları* ......................................... 115
*Qaravəllilər* ..................................................... 116
*Məzhəkələr* ....................................................... 116
*Dərvişlik* .......................................................... 116
*Gözbağlayıcılar* ................................................ 117
*Qaraçı tamaşaları* ............................................ 117
*Dəvə oyunu* ..................................................... 118
*Dumbul Bəkir oyunu* ........................................ 118
*Əkəndə yox, biçəndə yox, yeyəndə ortaq qardaş oyunu* ................................................... 119
*Xanbəzəmə oyunu* ............................................ 120
*Kaftar oyunu* .................................................... 120
*Kilimarası oyunu* ............................................. 120
*Kos-kosa oyunu* ............................................... 121

*Kukla oyunu* .................................................... *121*
*Maral oyunu* .................................................... *122*
*Şah-vəzir oyunu* .............................................. *122*

Ənənəvi idman oyunları ........................................... 124
*Zorxana oyunları* .............................................. *124*
*Güləşmə* ........................................................ *125*
*Mil oyunu* ....................................................... *126*
*Sinə oyunu* ...................................................... *126*
*Yekba oyunu* .................................................... *127*
*Alpaqut* ........................................................... *127*
*Turan-Do* ......................................................... *127*
*Sayokan* .......................................................... *128*
*Kəndirbazlıq* .................................................... *128*
*Sim pəhləvanları* ............................................... *129*
*Nər döyüşdürmə* ............................................... *130*
*Buğa döyüşdürmə* ............................................. *130*
*Qoç döyüşdürmə* ............................................... *131*
*Xoruz döyüşdürmə* ............................................ *131*
*Şahmat* ........................................................... *131*
*Qalaqapı (qo)* ................................................... *132*
*Atüstü oyunlar* ................................................. *133*
*Cıdır (sürək)* .................................................... *134*
*Çovqan* ........................................................... *134*
*At belində güləş* ............................................... *135*
*Cirit (dəyənək)* ................................................. *136*
*Sürpapaq* ......................................................... *136*
*Papaq* ............................................................. *136*
*Baharbənd* ....................................................... *137*
*Yaylıq* ............................................................. *137*
*Gərdəkqaçırma* ................................................. *137*

*Qızqov* ............................................................. *138*
*Gücsınağı* ......................................................... *138*
*Çoban oyunu* ..................................................... *138*
*Atlı oxatma və qılıncoynatma* .......................... *139*
*Qopuq* ............................................................. *139*
*Piyalə və ox* ...................................................... *140*

**Son söz ........................................................................ 141**
**İstifadə olunmuş mənbələr.......................................... 144**

**Nailə Əskər.**
İslam coğrafiyası və Azərbaycanda oyunlar.
Bakı, Elm və təhsil, 2017.

Nəşriyyat direktoru:
**Prof. Nadir Məmmədli**

Kompyuterdə yığdı:
**Ləman Qafarova**

Kompyuter tərtibçisi və
texniki redaktoru:
**Aygün Balayeva**

Fotoqraf:
**Mehmet Sancı**

Kağız formatı: 60/84 1/32
Mətbəə kağızı: №1
Həcmi: 160 səh.
Tirajı: 300

Kitab Azərbaycan MEA Folklor İnstitutunun
Kompyuter Mərkəzində yığılmış, səhifələnmiş,
“Elm və təhsil” NPM-də hazır deopozitivlərdən
ofset üsulu ilə çap olunmuşdur.